RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100



№ 115 (9282) 2 İYUN 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan Avropada sülhə və təhlükəsizliyə önəmli töhfə verir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri



## Prezident İlham Əliyev Kişineuda "Avropa Siyasi Birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib



**İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa Siyasi Birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

→ 2

## Azərbaycan, Ermənistan, Avropa İttifaqı Şurası, Almaniya və Fransa liderlərinin qeyri-rəsmi görüşü keçirilib



İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

## "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısı çərçivəsində işçi lanç

İyunun 1-də Kişineuda "Avropa Siyasi Birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində işçi lanç olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Kişineuda Azərbaycan, Ermənistan və Avropa İttifaqı Şurası liderləri arasında qeyri-rəsmi görüş olub

İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında qeyri-rəsmi görüş olub.

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib




## Şarl Mişel liderlərin qeyri-rəsmi görüşündən sonra mətbuata açıqlama verib

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında keçirilmiş qeyri-rəsmi görüşün yekunlarına dair mətbuata açıqlama verib. AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Biz indicə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şolts ilə çox yaxşı görüş keçirdik. Bizim may ayında Brüsseldə müzakirə etdiyimiz məsələləri nəzərdən keçirmək, əlaqələndirmə, təhlükəsizlik, sərhədlərin delimitasiyası, sülh sazişi ilə bağlı müzakirə aparmaq imkanımız oldu. Bu görüş iyulun 21-də Brüsseldə keçiriləcək növbəti toplantıya çox yaxşı hazırlıq oldu. Bu o deməkdir ki, biz çox gərgin çalışırıq. Biz münasibətlərin normallaşdırılması istiqamətində bütün müsbət səyləri dəstəkləmək niyyətindəyik və həmçinin bəyan etdik ki, Prezident Əliyevi, baş nazir Paşinyanı, Kansler Şoltsu və Prezident Makronu "Avropa Siyasi Birliyi"nin İspaniyada keçiriləcək növbəti toplantısı çərçivəsində yenidən görüşə dəvət etmək niyyətindəyik. Bu o deməkdir ki, biz Avropa İttifaqı tərəfindən münasibətlərin normallaşdırılması istiqamətində daha çox irəliləyişə nail olmağa yardım etmək üçün əlimizdən gələni edəcəyik.

## Azərbaycan Prezidenti Kişineuda enerji təhlükəsizliyinə həsr olunmuş "dəyirmi masa"da iştirak edib

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa Siyasi Birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş "dəyirmi masa" keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri

# Azərbaycan Avropada sülhə və təhlükəsizliyə önəmli töhfə verir



## Prezident İlham Əliyev Kişineuda "Avropa Siyasi Birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib

*Əvvəli 1-ci səh.*

Paytaxt Kişineudan 35 kilometr məsafədə yerləşən Bulboaka kəndində keçirilən builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Sammitdə liderlər sülh və təhlükəsizliyin təmin edilməsi, enerji təhlükəsizliyinin və Avropada ölkələrarası əlaqələrin gücləndirilməsi mövzularında müzakirələr aparırlar.

Qeyd edək ki, həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələri müzakirələr zamanı bərabər səslə təmin edən nadir və misilsiz platforma olan "Avropa Siyasi Birliyi"nin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.



"Avropa Siyasi Birliyi"nin 2-ci Zirvə toplantısı Moldovanın tarixində ən böyük beynəlxalq tədbirdir.

Xatırladaq ki, "Avropa Siyasi Birliyi"nin 1-ci Zirvə toplantısı ötən ilin oktyabrında Çex Respublikasının paytaxtı Praqada keçirilib.

## Azərbaycan və Ukrayna prezidentlərinin görüşü olub

**İyunun 1-də Moldovanın paytaxtı Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr ətrafında fikir mübadiləsi aparıldı, Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında Ukraynaya səfəri və səfər zamanı keçirilmiş müzakirələr qeyd edildi. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikasının Ukraynaya yeni səfiri təyin olunub və səfir tezliklə fəaliyyətə başlayacaq.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya humanitar yardımlarına, ukraynalı uşaqlara göstərilən qayğıya və onların Azərbaycana səfərlərinin təşkil olunmasına görə təşəkkürünü bildirdi və bunun çox yüksək qiymətləndirildiyini dedi.

Söhbət zamanı Azərbaycanın və Ukraynanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsi məmnunluqla qeyd olundu.

❖❖❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mimi qəsrinin xatirə kitabını imzaladı.



## Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasına səfəri iyunun 1-də başa çatıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb.**




AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin fevral-mart aylarını əhatə edir. Fevral ayının mühüm hadisələrindən biri Prezident İlham Əliyevin Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya səfəri olub. Dövlət başçısı konfrans çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı Qarabağ ermənilərinin təhlükəsizliyi ilə bağlı Azərbaycanın mövqeyini bir daha bəyan edib: "Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq".

Prezident İlham Əliyev konfrans çərçivəsində həmçinin "Boru arzuları: gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da iştirak edib, Münhendə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmidt, İsrail Dövlətinin müdafiə naziri Yoav Qalant, ATƏT-in Baş katibi xanım Helqa Maria Şmid və başqaları ilə görüşlər keçirib, xarici və Azərbaycan telekanallarına müsahibələr verib. Bütün bu görüşlər haqqında informasiyalarla və müsahibələrin mətnləri ilə yeni kitabda tanış olmaq mümkündür.

Yeni kitaba Prezident İlham Əliyevin digər mühüm tədbirdə - Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada "Fəlakət - fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda keçirilən Fövqəladə Zirvə görüşündəki çıxışının mətni daxil edilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşündə Azərbaycan və Türkiyənin hər zaman bir-birinin yanında olduğu vurğulanıb, Vətən müharibəsində qardaş ölkənin siyasi və mənəvi dəstəyi minnətdarlıq hissi ilə xatırlanıb, hazırda münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd edilib. Dövlət başçısı son 20 ildə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyənin böyük inkişaf yolu keçdiyini də diqqətə çatdırıb, dağıdıcı zəlzələnin nəticələrinin uğurla aradan qaldırılacağına əminliyini bildirib.

***Sitat:*** *Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaqdır.*

*Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir. 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.*

*Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçib, dünyada söz sahibi olub, güc mərkəzinə çevrilib. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.*

*Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün türk dünyası üçün önəmli şərtdir.*

Çoxcildliyin 126-cı kitabına Prezident İlham Əliyevin mart ayında Almaniyaya işgüzar səfərinə aid materiallar, o cümlədən Prezident Frank-Valter Ştaynmayer, Kansler Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşləri haqqında informasiyalar, Olaf Şolts ilə birlikdə mətbuata bəyanatlarının mətnləri daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevlə videokonfrans formatında görüşünə, Albaniya Prezidenti Bayram Beqay ilə görüşünə dair materiallarla da tanış ola bilər.

Yeni nəşrdə Prezident İlham Əliyevin "Qoşulmama Hərəkatının "COVID-19"a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə çıxışının mətni, Azərbaycana səfər etmiş İslam İnkişaf Bankı qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir, Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes, Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Mariano Qrossi, BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos ilə görüşləri, müxtəlif ölkələrin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında informasiyalar verilib.

Prezident İlham Əliyev martın 18-də Tərtər rayonuna səfər edib. Səfər çərçivəsində Suqovuşan qəsəbəsində yaşayış məhəlləsinin təməlini qoyub, qəsəbə tam orta məktəbində yaradılan şəraitlə, Suqovuşan su anbarında aparılan əsaslı təmir işlərinin gedişi, turizm infrastruktur obyektlərinin tikintisi ilə tanış olub. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 126-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 173

QƏRAR

Bakı şəhəri, 31 may 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 6 fevral tarixli 38 nömrəli və "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisa-diyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin və "Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respub-likasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 n?mr?li Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 336, № 3, maddə 560; 2022, № 6, maddə 685) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın 1-ci hissəsində "Azərbaycan Respub-likasının Vergilər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

2. "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1535; 2021, № 7, maddə 866) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları" üzrə:

2.2.1. 1.4-cü bənddə "Əmlak Məsələləri Dövlət Komitəsidir" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətidir" sözləri ilə, 1.5-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.8.1-ci yarımbənddən ", Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri, 1.8.2-ci və 1.8.3-cü yarımbəndlərdən ", Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın;

2.2.3. 3.2-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Xalqlarımız arasındakı güclü dostluq əlaqələri ortaq tariximizə əsaslanır. 105 il bundan əvvəl hər iki ölkə, demək olar ki, eyni zamanda öz müstəqilliklərini elan etmişdir. O zamandan etibarən bizim mehriban qonşuluq, qardaşlıq münasibətlərimiz davamlı şəkildə güclənərək dövlətlərimiz arasında möhkəm strateji tərəfdaşlıq mərhələsinə qədəm qoymuşdur.

Bu gün Gürcüstan Azərbaycan Respublikası ilə strateji tərəfdaşlığı daha da dərinləşdirməyə və möhkəmləndirməyə xüsusi önəm verir.

Zati-aliləri, Sizə dərin hörmətimi bir daha bildirir, fəaliyyətinizdə uğurlar diləyir, dost Azərbaycan xalqına isə sülh, cansağlığı və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqına rifah və tərəqqi arzulayır, ölkələrimiz arasında mövcud səmimi münasibətlərin gələcək illərdə daha da möhkəmlənməsini diləyirik.

*Dərin hörmətlə,*

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Zati-alinizə davamlı uğurlar və firavanlıq, qardaş xalqınıza isə tərəqqi və rifah arzulayıram.

*Dərin ehtiramla,*

***Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, Azərbaycan xalqına tərəqqi və rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycanla Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasındakı yüksəksəviyyəli əməkdaşlıqdan məmnunam. 2023-cü il mayın 18-19-da ölkənizə rəsmi səfərim zamanı Zati-alinizlə məhsuldar görüş keçirmək şərəfinə nail oldum.

Mən mülki müdafiə sahəsində tərəfdaşlığımızın perspektivlərini möhkəmləndirmək istiqamətində işləmək əzmində olduğuma Sizi əmin edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Njupuo Yap MARİATU,***
***Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycanın Müstəqillik Gününün 105-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına "ACWA Power" şirkətinin adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycanın etibarlı və sadiq tərəfdaşı kimi dayanıqlı inkişafa, enerji transformasiyasına və iqtisadi tərəqqiyə nail olmaq üçün ölkənizin davamlı səylərinə dəstək göstərməkdən dərin iftixar hissi duyuruq. Azərbaycan ilə strateji tərəfdaşlığımız qarşılıqlı inam, hörmət və parlaq gələcək üçün ortaq baxış üzərində qurulub.

Sizə və Azərbaycan xalqına davamlı uğurlar və xoşbəxtlik arzulayıram. Qoy, Azərbaycanın müstəqilliyi əbədi olsun!

Bu əlamətdar bayram münasibətilə ən səmimi arzularımı və təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Məhəmməd ƏBUNƏYYAN,***
***Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Tarix boyunca qəhrəmanlıqlar yurdu olan Azərbaycanın 28 May - Müstəqillik Günü münasibətilə Sizi - "Daim irəli" şüarını söyləyən Zati-alinizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azadlıq mübarizəsində çətin yollardan keçən, şəhidlər verən qəhrəman Azərbaycan işğal altındakı torpaqlarını düşmən tapdağından azad edərək adını tarixin baş səhifəsinə qızıl hərflərlə yazdırdı. Qarabağ Zəfərinin qəlbimizdə doğurduğu iftixar hissi ilə Azərbaycanın bugünkü inkişafında və müstəqilliyinin möhkəmlənməsində misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin xatirəsini sonsuz ehtiramla yad edirik.

Sizə və qardaş Azərbaycan xalqına firavanlıq, yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıram.

*Hörmətlə,*

***Erşat SALİHİ,***
***İraq Respublikası Nümayəndələr Şurasının üzvü, İnsan hüquqları komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-alinizi, dost və qardaş Azərbaycan xalqını milli bayramınız - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Uca Allahdan Sizə və ölkənizə rifah, əmin-amanlıq və davamlı tərəqqi arzulayırıq.

Azərbaycanlı qardaşlarımıza salamlarımızı və sevgilərimizi çatdırırıq.

*Hörmətlə,*

***Həsən TURAN,***
***İraq Türkmən Cəbhəsinin sədri***

# Azərbaycan Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının üzvü seçilib

**BMT-nin Ümumdünya Turizm Təşkilatının (BMÜTT) Avropa Komissiyasının Bolqarıstanın Sofiya şəhərində keçirilən 68-ci iclasında Azərbaycan təşkilatın İcraiyyə Şurasının üzvü seçilib.**




Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, Avropa regionu üzrə üzvlüyə ayrılmış 5 vakant yerə Azərbaycanla birgə Türkiyə, İsrail, Albaniya, Bolqarıstan, Çexiya, İtaliya, Litva, Slovakiya, Ukrayna və Özbəkistan öz namizədliklərini irəli sürüb.

Gərgin keçən seçkilərdə namizədliklərini irəli sürmüş 11 ölkədən qalib olaraq Azərbaycanla yanaşı, Avropa İttifaqına üzv olan 4 ölkə (Litva, Çexiya, İtaliya, Bolqarıstan) seçilib.

İcraiyyə Şurasının iclasında çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev səsvermədə iştirak edən hər kəsə təşəkkürünü bildirərək Azərbaycanın hər zaman olduğu kimi, bərabərliyə və ədalətli yanaşmaya üstünlük verəcəyini qeyd edib.

Agentlik sədri Azərbaycanın 2001-ci ildə BMT-nin Ümumdünya Turizm Təşkilatının tamhüquqlu üzvü olmasından etibarən təşkilata üzv dövlətlərlə uğurlu tərəfdaşlıq və əməkdaşlıq əlaqələrini genişləndirdiyini, gələcək fəaliyyətində də İcraiyyə Şurasının işinin səmərəliliyinə öz töhfəsini verəcəyini bildirib.

Fuad Nağıyev qlobal turizmin gələcəyinin zəruri tədbirlərin birgə həyata keçirilməsindən asılı olduğunu diqqətə çatdırıb.

İclasda Azərbaycanın İspaniya Krallığı və Andorra Knyazlığındakı səfiri, eyni zamanda Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Ramiz Həsənov və Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov iştirak ediblər.

# Azərbaycan-Rusiya ikitərəfli siyasi məsləhətləşmələri aparılıb

**Mayın 31-də Moskva şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli siyasi məsləhətləşmələr keçirilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini Xələf Xələfov, qarşı tərəfi isə Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin təmsil edib.

Məsləhətləşmələr zamanı Azərbaycan-Rusiya münasibətlərinin ikitərəfli gündəliyində olan siyasi, iqtisadi, humanitar və digər aktual mövzular, müqavilə-hüquq bazasının genişləndirilməsi, regional əməkdaşlıq və təhlükəsizlik, o cümlədən qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətləri regionda sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş səylərin, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması kontekstində əldə olunan bütün razılaşmaların icrası istiqamətində ardıcıl addımların atılmasının vacibliyini qeyd ediblər.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb

**İyunun 1-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və çoxşaxəli tərəfdaşlığa söykənən ikitərəfli münasibətlərin davamlı şəkildə uğurla inkişaf etdiyi bildirilib. Neft-qaz, "yaşıl enerji"yə keçid, ticarət, nəqliyyat, təhsil və digər sahələrdə əhəmiyyətli nailiyyətlərin əldə olunduğu vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinin fəal şəkildə davam etdirildiyi, çox qısa vaxt ərzində və daxili maliyyə imkanları hesabına böyük nəticələrin əldə olunduğu diqqətə çatdırılıb.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işlərində, xüsusilə şəhərsalma və minatəmizləmə fəaliyyətlərində Böyük Britaniya şirkətləri ilə səmərəli əməkdaşlıq edildiyi qeyd olunub.

Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin daha da gücləndiriləcəyinə, ikitərəfli gündəliyin bütün sahələrində yeni nailiyyətlərin əldə olunacağına dair əminlik ifadə edilib.





# Çinlə "yaşıl enerji" sahəsində əməkdaşlıq müzakirə olunub

**İyunun 1-də iqtisadiyyat naziri Mikayıl Cabbarov "China International Energy Sources Group Co., Ltd." şirkətinin nümayəndələri ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə Çin şirkətləri ilə işgüzar dialoqun genişlənməsinin önəmi vurğulanıb, Azərbaycanın əlverişli biznes və investisiya mühiti, sərmayədarlar üçün yaradılan imkanlar,



ölkəmizdə alternativ və bərpaolunan enerji sahəsində reallaşdırılan və perspektiv layihələr barədə məlumat verilib.

Tərəflər Azərbaycanın "yaşıl enerji" potensialı, azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr və əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, 2021-ci ildə yaradılmış "China Energy International Group Co., Ltd." Çinin aparıcı şirkətlərindəndir. Şirkət "yaşıl enerji" və aşağı karbonlu enerji layihələrinin inkişafı üçün ümumi həllər və xidmətlər təqdim edir.

# Azərbaycan ilə Rumıniya arasında enerji, nəqliyyat-tranzit, sənaye sahələrində böyük əməkdaşlıq imkanları var

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Rumıniyanın energetika naziri Virgil Daniel Popesku ilə görüşüb.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov Rumıniya ilə əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səfərlərin, keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Azərbaycan-Rumıniya iqtisadi-ticarət tərəfdaşlığı genişlənir, iqtisadi tərəfdaşlığın



əsas istiqamətlərindən olan ticarət əlaqələrinin inkişafı nəticəsində ticarət dövriyyəsi artır. Bununla belə ölkələrimiz arasında enerji, nəqliyyat-tranzit, sənaye və s. sahələrdə əməkdaşlığın inkişafı imkanları böyükdür. Nazir iki ölkənin biznes subyektlərinin qarşılıqlı faydalı əməkdaşlığını, SOCAR-ın Rumıniyada səmərəli fəaliyyətini qeyd edib.

Virgil Daniel Popesku ölkəsinin Azərbaycanla əməkdaşlığa önəm verdiyini, son zamanlar əlaqələrin daha da intensivləşdiyini qeyd edib, birgə iqtisadi layihələrin həyata keçirilməsinin perspektivləri barədə fikirlərini bölüşüb.

Tərəflər iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən energetika sahəsində əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# "Qaradağ" GES bu ilin payızında istifadəyə veriləcək

## "Masdar" və ADNOC ilə bərpaolunan enerji və karbohidrogen sektorunda əməkdaşlıq müzakirə edilib

**"Bakı Enerji Həftəsi" çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə BƏƏ-nin Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) Aşağı Karbon Həlləri və Beynəlxalq İnkişaf üzrə icraçı direktoru və "Masdar" şirkətinin İdarə Heyətinin üzvü Musabbeh Al Kaabinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında yüksəksəviyyəli münasibətlərin "Masdar" ilə irimiqyaslı bərpaolu-



nan enerji layihələri üzrə uzunmüddətli əməkdaşlığın sütunu olduğu vurğulanıb. 230 meqavatlıq "Qaradağ" GES-in bu ilin payızında istifadəyə veriləcəyi, bununla da "Masdar"ın layihələrin vaxtında reallaşdırılmasına sadiq olduğu qeyd edilib. Ümumi gücü 4 QVt olan digər layihələrin icrası ilə bağlı da əhəmiyyətli irəliləyişlər olduğu, bərpaolunan enerji güclərinin ölkənin enerji sisteminə inteqrasiyası üçün elektrik şəbəkəsinin öyrənilməsinə "Masdar"ın dəstəyi və bu xüsusda görülən işlər diqqətə çatdırılıb. Şəbəkənin idarə edilməsi sahəsində təcrübə mübadiləsi məqsədilə yaxın vaxtlarda birgə seminar keçirilməsi razılaşdırılıb.

Həmçinin karbohidrogen sektorunda əməkdaşlığa dair SOCAR və ADNOC arasında aparılan müzakirələrə də toxunulub. Şirkətin karbonsuzlaşdırma sahəsində təcrübəsi, aşağı karbonlu enerji istehsalçısına çevrilməsi, karbon tutma, eləcə də "yaşıl", "mavi" hidrogen və ammonyakın istehsalı ilə bağlı fəaliyyətindən bəhs edilib. Aşağı karbon həlləri üzrə əməkdaşlıq imkanları dəyərləndirilib.

# "Yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə nazirlərin üçüncü iclası keçirilib

**"Bakı Enerji Həftəsi" çərçivəsində "Azərbaycan Respublikası, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin üçüncü iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin birinci müavini Romeo Mikautadze, Rumıniyanın energetika naziri Daniel Virgil Popesku, Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti üzrə dövlət katibi Peter Sztarayın iştirakı ilə keçirilən görüşə onlayn formatda Bolqarıstanın energetika naziri Rosen Hristov da qatılıb. Tədbirdə Avropa İttifaqı Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru Kristina Lobillo Borrero ilə təmsil olunub.



İclasda "yaşıl enerji" dəhlizinə Bolqarıstanın qoşulması, layihənin texniki-iqtisadi əsaslandırması üçün texniki tapşırıqların tezliklə yekunlaşdırılması razılaşdırılıb. Həmçinin məsləhətçi şirkətin seçilməsi və iştirakçı ölkələr arasında birgə müəssisənin yaradılmasına dair anlaşma memorandumunun layihəsi üzrə müzakirələr aparılıb.

Növbəti görüşün 2023-cü ilin iyul ayında keçirilməsi barədə razılıq əldə edilib.

# Pakistanla Preferensial Ticarət Sazişinin imzalanması istiqamətində işlər davam etdirilir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistan İslam Respublikasının neft üzrə dövlət naziri Musadik Məsud Malik ilə görüşüb.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Pakistan əlaqələrinin inkişaf etdiyi vurğulanıb, ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə reallaşan beynəlxalq əhəmiyyətli iri neft-qaz layihələrinin önəmi qeyd edilib. Diqqətə çatdırılıb ki, ticarət Pakistanla tərəfdaşlığın əsas istiqamətlərindəndir və



bu sahəyə xüsusi töhfə verəcək Preferensial Ticarət Sazişinin imzalanması istiqamətində işlər davam etdirilir.

Görüşdə Azərbaycanın uzunmüddətli strateji təşəbbüslərindən bəhs edilib, regional və qlobal enerji layihələri, habelə reallaşdırılan investisiya layihələri barədə məlumat verilib. Bu xüsusda Pakistan şirkətləri ilə potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər enerji, tranzit-logistika və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə Pakistan şirkətlərinin iştirakı məsələlərini müzakirə ediblər.

# "Envision Energy" şirkəti ilə Azərbaycanda sıfır emissiyalı sənaye parkının yaradılması barədə müzakirələr aparılıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Çinin "Envision Energy" şirkətinin beynəlxalq işlər üzrə vitse-prezidenti Con Li ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Çinin biznes dairələri ilə əməkdaşlıq münasibətlərinin inkişaf etdiyini vurğulayıb, ölkəmizin işgüzar mühiti, investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib. Qeyd olunub ki, enerji səmərəliliyinin artırılması, bərpaolunan enerji sahəsinin inkişafı ölkəmizin əsas



prioritetlərindəndir. Ölkəmizdə bu sahədə ixtisaslaşan müəssisələrin qurulması məqsədilə tərəfdaşlıq üçün geniş imkanlar var.

Görüşdə bərpaolunan enerji mənbələrindən istifadə sahəsində yeni texnologiyaların tətbiqi, resurslardan səmərəli istifadə üçün innovativ mexanizmlər, sıfır emissiyalı sənaye parkının yaradılması və əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

Qeyd: Çinin "Envision Energy" şirkəti 2007-ci ildə yaradılıb və külək turbini istehsalı üzrə ixtisaslaşıb. Şirkət Çin və digər ölkələrdə külək, günəş və hidrogen enerjisi istehsalı layihələrində iştirak edir. "Envision Energy" "yaşıl texnologiyalar"ın inkişafı məqsədilə dünyanın bir sıra ölkələrində elmi-tədqiqat və mühəndislik mərkəzləri şəbəkəsi yaradıb.

# Qlobal nüfuz, yüksək etimad



## İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 2-ci Zirvə toplantısına dəvət edilməsi Azərbaycana verilən yüksək dəyərin bariz təcəssümüdür

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir. Bununla yanaşı, müstəqil Azərbaycan həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş dövlət kimi tanınır. Bütün bu uğurların yeganə səbəbi isə, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir.**

Azərbaycana rəhbərlik etdiyi 20 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Bu uğurlar isə İlham Əliyevin mütərəqqi iqtisadi islahatlarının bəhrəsidir, desək,yanılmarıq.

Məhz İlham Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın dünyada böyük etimad qazanaraq nüfuzlu dövlətə çevrilməsini təmin edib. Bu gün Azərbaycan müstəqil söz və yüksək nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Bu reallığı əks etdirən çoxsaylı faktlar mövcuddur.

Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq görərik ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf məkanına çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir.

Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırmaqdadır.

Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də dünyada şəxsi nüfuzunun artmasına gətirib çıxarıb. Beləliklə, cənab Prezidentin regionda mübaliğəsiz lider olduğunu isbat edib.

Xüsusilə qeyd etməliyik ki, İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizliyə və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxış etməsi, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. İstər Davos İqtisadi Forumu, istər Münhen Təhlükəsizlik Konfransı, istərsə də digər beynəlxlaq təşkilatların toplantılarında iştirakı bir daha sübut edir ki, dünya ölkələri Azərbaycanla əməkdaşlığa yüksək dəyər verir, İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və ən önəmli lider hesab edirlər.

Bu gün elə bir beynəlxalq toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin mərasimə dəvət edilməsin. Dünən Moldovada keçirilən "Avropa Siyasi Birliyi"nin 2-ci Zirvə toplantısına Azərbaycan Prezidentinin ikinci dəfə dəvət olunması deyilənlərin təsdiqidir.

"Avropa Siyasi Birliyi" Avropa İttifaqı tərəfindən təşviq edilən platformadır. Təsadüfi deyil ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel bununla bağlı qeyd edib: "Aİ özünün strateji hədəflərini genişlənmə ilə məhdudlaşdırmamalıdır. Aİ-nin geosiyasi liderliyinin güclənməsi ilə beynəlxalq ictimaiyyətin ondan gözləntiləri artır. Həmin gözləntilər bir sıra qonşuların Aİ ilə yeni münasibətlər qurması ilə əlaqədardır. Bu isə Reykyavikdən Bakıya, Oslodan Ankaraya uzanan geosiyasi birlikdən qaynaqlanır".

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər. Praqa Sammitindən fərqli olaraq, budəfəki toplantıya daha 3 ölkə - Lixtenşteyn, Monako və San-Marino da dəvət edilib.

İlham Əliyevin ikinci dəfə təşkil olunan tədbirlərə dəvət edilməsi Avropanın ölkəmizə necə böyük əhəmiyyət verdiyini, onu etibarlı tərəfdaş kimi qəbul etdiyini təsdiqləyir. Bu, həm də onu göstərir ki, Azərbaycan Avropanın təkcə enerji təhlükəsizliyində mühüm rol oynamır, eyni zamanda qitənin və Aİ-nin gələcəyi ilə bağlı müzakirələrdə də rəyinə, mövqeyinə önəm verilən ölkə kimi çıxış edir. Bu da əlbəttə ki, Vətən müharibəsindən sonra Azərbaycanın artan nüfuzu, İlham Əliyevin verdiyi sözə əməl etməsi, ölkəmizin etibarlı tərəfdaş, regionda söz sahibi olması ilə birbaşa bağlıdır.

Bütün bunları dəyərləndirərkən İlham Əliyev deyir ki, artıq Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi qəbul edilir. Ölkəmizin bu tədbirlərə mütəmadi dəvət olunması həm də İlham Əliyevin şəxsi nüfuzunu, Azərbaycanın dünya miqyasında mühüm aktora çevrildiyini, beynəlxalq proseslərə təsir etmək imkanına malik olduğunu isbatlayır.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 1-ci Zirvə toplantısı 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada keçirilib. Toplantıda 27-si Aİ-yə üzv ölkə olmaqla, ümumilikdə 44, Şərq Tərəfdaşlığı regionundan 5 ölkə (Belarus istisna olmaqla), o cümlədən Azərbaycan, Ermənistan, Gürcüstan, Ukrayna, Moldova, Qərbi Balkan regionundan Serbiya, Monteneqro, Bosniya və Herseqovina, Kosovo, Şimali Makedoniya və Albaniya, habelə qitənin digər ölkələri - Böyük Britaniya, Norveç, İsveçrə, İslandiya, Lixtenşteyn və Türkiyənin dövlət və hökumət başçıları iştirak ediblər.

İlham Əliyevin Praqada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşü zamanı səsləndirilən fikirlər Azərbaycanın etibarlı və perspektivli tərəfdaş kimi tanındığını, ölkəmizlə əməkdaşlığın Avropanın strateji prioritetlərindən biri olduğunu təsdiqləyib. Həmin tədbirdə dövlət başçısı Azərbaycan həqiqətlərini, regional təhlükəsizlik məsələlərini daha bir mühüm platformadan beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb.

Sammit çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda keçirilən "dəyirmi masa"da çıxışı zamanı İlham Əliyev ikitərəfli və çoxtərəfli münasibətlər, yeni geosiyasi reallıqlar, sülh, təhlükəsizlik və əməkdaşlıqla əlaqədar Azərbaycanın aydın və prinsipial yanaşmasını, qətiyyətli mövqeyini ortaya qoyub.

Praqa Zirvə toplantısı ilə bağlı daha bir məqam ondan ibarətdir ki, sammit çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşü zamanı tərəflər 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyıblar. Bu da İlham Əliyevin müəyyənləşdirdiyi sülh gündəliyinin Ermənistan tərəfindən qəbul edildiyini bir daha təsdiqləyir.

Bununla da Avropa ölkələrinə bir daha bəlli olub ki, İlham Əliyev konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan milli dövlətlər üçün strateji əhəmiyyət daşıyır.

Məhz bu faktlar təsdiq edir ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Avropanın yeni enerji təhlükəsizliyi arxitekturasında mühüm rol oynayır

## Bakı Enerji Forumu enerji təhlükəsizliyinə nail olmaq yolunda birgə həllərin axtarışı üçün gözəl imkan yaradır

**İyunun 1-də Bakı Konqres Mərkəzində Xəzər regionunun ən böyük tədbiri olan 28-ci Bakı Enerji Forumu işə başlayıb.**




AZƏRTAC xəbər verir ki, 600-dən çox nümayəndənin iştirak etdiyi konfransda keçid dövründə energetikaya dair yeni çağırışlar, o cümlədən Avropanın qlobal enerji təhlükəsizliyi və bu perspektivdə Azərbaycanın enerji sektorunun rolu müzakirə olunub.

Bakı Enerji Forumunun gündəliyinə həm Azərbaycan, həm də bütün Xəzər regionu üçün mühüm olan enerji məsələləri daxildir. Forumda iştirak etmək üçün ölkəmizə səfərə gələn Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Rumıniyanın energetika naziri Virgil Daniel Popesku, Pakistanın neft üzrə dövlət naziri Musadik Malik, bp-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrell, Çexiyanın ticarət və sənaye naziri Yozef Sikela və başqaları forumda çıxış edib, müzakirələrə qatılıblar.

Çıxışlar və müzakirələrdə Azərbaycanın enerji potensialı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolu, enerji ixracı, "yaşıl enerji"nin istehsalı, ixracı kimi məsələlərə toxunulub. Forumda bir sıra mühüm fikirlər səsləndirilib.

Birinci sessiyada çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov enerji müstəqilliyimizin banisi Ümummilli Lider Heydər Əliyevin neft strategiyası ilə həyata vəsiqə almış bu beynəlxalq enerji əməkdaşlıq platformasının ölkəmizin enerji nailiyyətlərinin tarixi salnaməsinə çevrilməsindən danışıb.

Hazırda təhlükəsiz, sabit enerji təchizatı mənbə və marşrutlarının diversifikasiyasına, xüsusilə "yaşıl enerji"nin inkişafına əsaslanan yeni qlobal enerji landşaftının formalaşdığını vurğulayan nazir deyib ki, ölkəmiz bu yeni mərhələyə regional və Avropa miqyasında enerji təhlükəsizliyindəki strateji mövqeyini möhkəmləndirəcək təşəbbüslərlə daxil olur. "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, "Həmrəylik Halqası" layihəsində iştirak, həmçinin bərpaolunan enerji mənbələrinin inkişafı və tədarükü ilə bağlı layihələrimiz bunun bariz göstəriciləridir.

Əlavə qaz tədarükü üçün infrastrukturların ötürücülük gücünün artırılmasının, bu məqsədlə tərəfdaş ölkələrin əlaqələndirilmiş fəaliyyətinin, qəti və aydın mövqeyinin zəruriliyi vurğulanıb. "Bizim mövqeyimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəqiq şəkildə ifadə edilib. Bu isə ondan ibarətdir ki, biz layihələri təkcə kommersiya deyil, həm də strateji nöqteyi-nəzərdən planlaşdırırıq. Xəzərin bütün növ enerji resurslarının işlənilməsi və dünya bazarlarına çıxarılması hər zaman paralel həyata keçirilib. Azərbaycan məhz özü hər zaman enerji marşrutları layihələrinin əsas lokomotivi olub və enerji siyasətimizin bu dəyişməz xətti bu gün də aktualdır", - deyə nazir əlavə edib.

Sessiyada "Abşeron", "Qarabağ", "Ümid" (Mərhələ II), "Babək", "Azəri-Çıraq-Günəşli" dərin qaz və "yaşıl enerji" layihələri əlavə qazı təmin edəcək mühüm mənbələr kimi qeyd olunub. 2026-cı ilin sonuna istismara verilməsi planlaşdırılan 1800 MVt gücündə külək və günəş-elektrik stansiyaları hesabına 1 milyard kubmetrdən çox qaza qənaət ediləcəyi bildirilib. 2030-cu ildə daha 5 QVt yaşıl istehsal güclərinin istifadəyə veriləcəyi və bu həcmlərin ilkin mərhələdə 4 QVt-nın Qara dəniz vasitəsilə Avropaya, 1 QVt-nın isə Naxçıvan üzərindən Türkiyə və Avropa istiqamətində ixracının nəzərdə tutulduğu diqqətə çatdırılıb. Nazir deyib ki, Azərbaycanın "yaşıl enerji" ölkəsinə transformasiyası artıq başlanıb. Bərpaolunan enerjinin quruda 135 QVt, dənizdə isə 157 QVt texniki potensialı əsasında ölkəmiz bu gün "yaşıl enerji"nin istehsalı və ixracı ilə bağlı irimiqyaslı layihələr icra edir: "Hazırda "MASDAR", "ACWA Power", bp və "Fortescue Future Industries" şirkətləri ilə 25 QVt-dan çox "yaşıl enerji" layihələri üzrə əməkdaşlıq edirik. "Bakı Enerji Həftəsi" çərçivəsində beynəlxalq enerji şirkətləri ilə əlavə 3 QVt-dək bərpaolunan enerji layihələri üzrə əməkdaşlıq sənədləri imzalayacağıq. Azərbaycan "yaşıl enerji" ölkəsi kimi inkişafı ilə bağlı strateji hədəflərini reallaşdırmaq əzmindədir. Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi və qətiyyəti bu növbəti böyük enerji missiyasının həyata keçirilməsində bizim strateji bələdçimizdir".

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson bildirib ki, Azərbaycanın dəniz külək enerjisi əhəmiyyətli potensiala malikdir, ölkədə təmiz enerjiyə sürətli keçid üçün bütün imkanlar var.

Onun sözlərinə görə, Böyük Britaniya dəniz enerjisi sahəsində mühüm təcrübəyə malikdir və Azərbaycan hökuməti ilə əməkdaşlıq çərçivəsində "yaşıl enerji"yə keçid sürətləndirilə bilər. "Azərbaycanda təmiz enerjiyə sürətli keçid üçün bütün imkanlar var. 30 ildən artıqdır ki, Böyük Britaniya və Azərbaycan güclü tərəfdaşlıq əlaqələri qurublar və indi biz "yaşıl enerji"yə daha çox diqqət yetiririk. Azərbaycan bərpaolunan enerjinin inkişafı sahəsində Böyük Britaniyanın əsas tərəfdaşlarından biridir. Təbii ki, Böyük Britaniya bu sahədə Azərbaycana dəstəyini davam etdirəcək", - deyə Emma Nikolson qeyd edib.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz deyib ki, Azərbaycan bp-nin ümumi strategiyasının bariz nümunəsidir və burada qazandığımız uğurlardan qürur duyuruq. bp gələcəkdə də Azərbaycanda həyata keçiriləcək neft və qaz layihələrinə investisiyalarını davam etdirəcək.

"Azəri-Mərkəzi-Şərqi" platformasında işlər davam etdirilir. Burada ilk neft hasilatını 2024-cü ildə gözləyirik. "Şahdəniz" layihəsinin də dekarbonlaşdırılması üzərində işləyirik. Bizim iddialarımız var. Həmçinin bildiyiniz kimi, Prezident İlham Əliyev elan edib ki, Azərbaycanın azad olunmuş ərazilərində "yaşıl enerji" planı icra olunacaq. Bir çox şirkətlər bu planda yaxından iştirak edəcək", - deyə Qari Counz vurğulayıb.

Onun sözlərinə görə, bu tədbir enerji sektorunun qarşısında duran məsələlərin və imkanların müzakirəsi baxımından çox önəmlidir. Xüsusən də indi, dəyişən enerji dünyasında Azərbaycanın rolunun getdikcə artdığı bir dövrdə. Azərbaycanın həm karbohidrogenlər, həm də bərpaolunan enerji mənbələri baxımından nəhəng potensialı var.

Vurğulayıb ki, Azərbaycan qabaqcıl enerji infrastrukturuna, güclü tərəfdaşlıqlara və zəngin bərpaolunan enerji ehtiyatlarına malikdir: "Bunun sayəsində ölkə enerji keçidində də irəlidə gedə bilər. Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi bp buna dəstək olmağa hazırdır".

SOCAR-ın prezidenti Rövşən Nəcəf isə enerji təhlükəsizliyinin önəmindən danışaraq bildirib ki, dayanıqlı enerji üçün proqramları nəzərə almaq lazımdır. SOCAR son zamanlar neft və qaz hasilatına investisiyaları artırıb.

Onun sözlərinə görə, yaxın onilliklərdə neft və qaz hasilatını dayandırmaq olmaz: "Biz neft ehtiyatlarının ekoloji təmiz çıxarılmasını, təmiz enerji istehsalı ideyasını dəstəkləyirik. Enerji qiymətlərinin artmasını, tərəfdaşlarımızın qaz və neft anbarlarının boşalmasını görməzdən gələ bilmərik. Keçid olaraq enerji şirkətləri ilə bunun üzərində işləməliyik. Şuşada da biz bp və "MASDAR"la birlikdə bərpaolunan enerji mənbələri üzrə müqavilələr imzalamışıq. Biz kifayət qədər tərəfdaşlarla işləməyə və layihələrin sayını artırmaqda qətiyyətliyik. Çalışıb iqlimimizi mühafizə etməli, sıfır emissiyaya nail olmalıyıq. Bunun üçün konstruktiv şəkildə və dataya əsaslanaraq analizlər aparmalıyıq. SOCAR enerji keçidi və dayanıqlı istehsal sahəsində beynəlxalq əməkdaşlığa açıqdır. Bu, Avropa İttifaqının və bütövlükdə regionun enerji təhlükəsizliyinin təmin edilməsi baxımından önəmlidir".

"Rumıniyada aşkar edilən qaz yataqlarından azərbaycanlı həmkarlarımızla birlikdə təbii qaz hasil edəcəyik", - deyən Rumıniyanın energetika naziri Virgil Daniel Popesku bildirib ki, Azərbaycan Şərqi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Təbii qazla yanaşı, Azərbaycan Avropaya "yaşıl enerji" də ixrac etməyi planlaşdırır ki, bu da çox mütərəqqi haldır. Azərbaycanın iqlim potensialı alternativ enerji mənbələrinin inkişaf etdirilməsinə imkan yaradır və hökumət bundan düzgün istifadə edir.

O diqqətə çatdırıb ki, rəsmi Buxarest Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq edir.

bp şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel çıxışında deyib ki, Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi neft strategiyası nəticəsində 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın neft-qaz sahəsinə sərmayə axınına səbəb oldu. Həmin ildən bp Azərbaycan ilə yaxından əməkdaşlıq edir və bir çox beynəlxalq əhəmiyyətli enerji layihələrini birgə həyata keçirir.

Onun sözlərinə görə, Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlar bloku çox unikal neft-qaz mənbəyidir. Burada qaz ehtiyatları çoxdur və onun çıxarılması istiqamətində iş aparılır. Yataqlar blokunun hasilatda olan laylarının altında yerləşən dərin qatlardakı qaz ehtiyatlarının qiymətləndirilməsi prosesi aparılır.

"Şahdəniz" qaz-kondensat yatağından daha çox qaz əldə etmək imkanları da araşdırılır və hazırda burada yeni kəşfiyyat quyusu qazılır", - deyə bp-nin vitse-prezidenti qeyd edib ki, şirkət Xəzərin Azərbaycan sektorunda əlavə qaz hasil edəcək.

Q.Birreli vurğulayıb ki, müasir dünyada ekoloji cəhətdən təmiz enerji istehsalı aktual xarakter alıb. BP də bu istiqamətdə böyük addımlar atır və sərmayələr yatırır. Belə layihələrdən biri Azərbaycan hökuməti ilə həyata keçirilir. BP Cəbrayıl rayonunda 200 meqavatlıq günəş stansiyası inşa edir. Azərbaycanın "yaşıl enerji" istehsal etmək üçün də böyük potensialı var və Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Çex Respublikasının enerji və sənaye naziri Yozef Sikela çıxışında bildirib ki, yaxın gələcəkdə Azərbaycan Avropanın enerji strukturunda daha əhəmiyyətli rol oynamağa başlayacaq. Azərbaycandan ixrac edilən təbii qaz bir sıra Avropa ölkəsinin tələbatını tamamilə ödəyir. O qeyd edib ki, Azərbaycan təbii qazla yanaşı, "yaşıl enerji" istehsalına da diqqət yetirir. Bu da onun enerji idxalını artırır. Azərbaycanın iqlim şəraiti günəş və küləkdən enerji almaq imkanı yaradır.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan artıq yeni texnologiyaları cəlb edərək alternativ enerji istehsalına başlayıb. Azərbaycanın neft və qaz istehsalı və ixracı ilə yanaşı, "yaşıl enerji" istehsalına və ixracına geniş yer verməsi, onun Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu artıracaq.

Sessiya və panel müzakirələrdə qeyd olunub ki, Bakı Enerji Forumu özünü səmərəli əməkdaşlıq üçün etibarlı platforma kimi təsdiqləyib.

İştirakçılar yekdil rəyə gəliblər ki, Bakı Enerji Forumu enerji təhlükəsizliyinə nail olmaq yolunda birgə həllərin axtarışı üçün gözəl imkan yaradır. "Azərbaycan Avropanın yeni enerji təhlükəsizliyi arxitekturasında mühüm rol oynaya bilər və oynayacaqdır" tezisi xarici nümayəndələrin əsas fikirləri arasında yer alır.

Forum öz işini davam etdirir.

# Heydər Əliyev müasir müstəqil Azərbaycanın memarı və ölkə multikulturalizminin banisidir

## Bakıda Ümummilli Liderin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib



**İyunun 1-də Bakıda Azərbaycan Respublikası Milli Məclisinin, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) və MDB PA-nın Assambleya Şurası Katibliyinin Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun (MDB PA DİMBİ) Bakı filialının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, "Heydər Əliyev - müasir müstəqil Azərbaycanın memarı və Azərbaycan multikulturalizminin banisi" mövzusunda keçirilən beynəlxalq konfransa MDB PA DİMBİ-nin Bakı filialının direktoru Ramin Rzayev moderatorluq edib. O, konfransı açaraq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya və MDB PA-nın Assambleya Şurasının və Şura Katibliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra Ramin Rzayev tədbir iştirakçılarına Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın salamlama nitqini çatdırmaq üçün sözü Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin müdiri İlkin Məmmədova təqdim edib.

Salamlama nitqində Milli Məclisin spikeri Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən beynəlxalq konfransın mövzusunun indiki dövrün çağırışları şəraitində aktuallığını və vacibliyini vurğulayıb.

Xalqımızın milli sərvəti olan multikulturalizm ənənələrinin Heydər Əliyevin rəhbərliyi dövründə dövlət siyasəti səviyyəsinə qaldırıldığını diqqətə çatdıran spiker Sahibə Qafarova Ulu Öndərin Azərbaycanın tolerantlığının qorunub saxlanması istiqamətində fəaliyyətindən söz açıb.

"Heydər Əliyev hesab edirdi ki, dövlətin möhkəmliyi onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyə qadir olan ideologiyanın mövcudluğundan çox asılıdır. Bu məqsədlə o, ölkənin bütün xalqlarının və etnik qruplarının nümayəndələrinin ümumdövlət mənafeləri naminə sıx birləşməsinə zəmin yaradan azərbaycançılıq amalını milli dövlətçilik ideologiyasının aparıcı istiqamətinə çevirdi. Məhz bu amal çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələrini yeni tarixi şəraitdə davam etdirməyə imkan verdi".

Müraciətində Ulu Öndər tərəfindən əsası qoyulmuş dövlət siyasətinin bu gün bütün sahələrdə uğurla davam etdirildiyini bildirən Sahibə Qafarova Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş tədbirlər sayəsində ölkəmizin dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanındığını vurğulayıb. Azərbaycanın dünyaya təqdim etdiyi demokratik cəmiyyət nümunəsi etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilməsinə, müxtəlif dinlərə etiqad edən insanların mənəvi dəyərlərinin qorunmasına və inkişafına əsaslanır. Bildirilib ki, Azərbaycanda yaşayan xalqların birliyi və həmrəyliyi 2020-ci ilin payızında aparılan 44 günlük Vətən müharibəsində də öz parlaq təcəssümünü tapdı. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoyulmasına, dövlətimizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasına ölkəmizdə yaşayan bütün millətlərin və etnik qrupların nümayəndələri öz töhfələrini verdilər və bu gün də onlar işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında birlikdə iştirak edirlər.

Bu mötəbər toplantının multikulturalizmin qorunması və inkişaf etdirilməsi sahəsində Ümummilli Lider Heydər Əliyevin irsinin və Azərbaycanın müasir təcrübəsinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətini vurğulayan Milli Məclisin Sədri Sahibə Qafarova konfransın işinə uğurlar arzulayıb.

Sonra Milli Məclisin MDB PA-dakı səlahiyyətli nümayəndəsi, MDB PA Şurası Baş katibinin müavini Aydın Cəfərov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri, MDB PA Şurasının sədri Valentina Matvienkonun və MDB PA Şurası Katibliyinin rəhbəri - Baş katib Dmitri Kobitskinin salamlama nitqlərini tədbir iştirakçılarına çatdırıb.

Müraciətlərdə Heydər Əliyevin liderlik keyfiyyətlərinin, uzaqgörən siyasətinin və böyük şəxsiyyətinin həm sovet dövründə, həm də Azərbaycanın ən taleyüklü məqamlarında özünü qabarıq şəkildə göstərdiyi qeyd olunur, Ulu Öndərin siyasi iradəsi nəticəsində Azərbaycanın tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrinin hüquqi və siyasi müstəvidə yenidən bərpa edilməsi vurğulanır.

Tədbirdə Milli Məclisin deputatları Nizami Səfərov, Əminə Ağazadə, Rauf Əliyev, Elşad Mirbəşiroğlu, MDB PA Şurası Katibliyi rəhbərinin müavini, MDB PA DİMBİ-nin direktoru İvan Muşket, Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatı Kazbek Taysayev, Özbəkistan Ali Məclisi Senatının üzvü Manzura Salimova, Qazaxıstan Parlamenti Məclisinin deputatı Oljas Kuspekov, Belarus Milli Məclisinin Respublika Şurasının üzvü Oleq Romanov, MDB PA DİMBİ Bişkek filialının direktoru İslambek Mursabekov, Tacikistan Ali Məclisindən Camşid Murtazozoda, Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov, Bakı Slavyan Universitetinin kafedra müdiri Naidə Məmmədxanova, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təhlilçisi Araz Qurbanov çıxış ediblər. Çıxış edənlər Heydər Əliyevin öz uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanın əsrlərboyu formalaşan çoxmədəniyyətlilik və tolerantlıq ənənəsini inkişaf etdirərək onun keyfiyyətcə yeni mərhələyə yüksəlməsindən söz açıblar, onun multikulturalizm və tolerantlıq siyasətindən, milli-mənəvi və əxlaqi dəyərlərin qorunmasına həssas münasibətindən bəhs ediblər, Ulu Öndərin həyatı, dövlət xadimi kimi fəaliyyəti haqqında fikirlərini bölüşüblər, Ulu Öndərin siyasi irsinin və təcrübəsinin MDB ölkələri və dünya üçün əhəmiyyətini vurğulayıblar.

Konfransın sonunda "Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyev - 100 il" mövzusunda məktəblilər arasında keçirilmiş inşa-yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Beynəlxalq konfransda Milli Məclisinin deputatları Anatoliy Rafailov, Arzu Nağıyev, Azərbaycan, Belarus, Qazaxıstan, Özbəkistan, Rusiya parlamentlərinin nümayəndələri, TÜRK-PA-nın, MDB PA-nın məsul şəxsləri, bir sıra səfirliklərin, müxtəlif nazirlik və qurumlarının təmsilçiləri, Azərbaycanın bir sıra ali təhsil müəssisələrinin professor-müəllim heyəti və digər şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

## Beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər







**Dünən Bakıda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, öncə Azərbaycan Respublikası Milli Məclisi, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyası (MDB PA) və MDB PA-nın Assambleya Şurasının Katibliyinin Demokratiyanın, Parlamentarizminin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun Bakı filialının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad ediblər, abidəsi önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər qoyulub.

***"Azərbaycan"***

# Yerli avtomobil istehsalı stimullaşdırılacaq

## Köhnəlmiş və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələri isə dövriyyədən çıxarılacaq

**İyunun 1-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən qəzetimizə verilən məlumata görə, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov iclası açaraq bildirib ki, gündəliyə 5 məsələ - "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (birinci oxunuş), Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi (birinci oxunuş), "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri daxil edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışında Azərbaycan Prezidentinin 2018-ci il 27 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edildiyini bildirib. O, bu sənədə uyğun olaraq ölkədə nəqliyyat vasitələrinin utilizasiyası proqramının da hazırlanması və tətbiqi ilə əlaqədar işlərin görüldüyünü qeyd edib, bu məsələnin sosial və iqtisadi baxımdan vacibliyindən bəhs edib, bu istiqamətdə ölkədə atılan addımlardan danışıb.

Sonra iclasda "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Layihə barədə məlumatı "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin eksperti Mirzə Lahıcov təqdim edib. O, ölkədə nəqliyyat vasitələrinin utilizasiyası proqramı ilə əlaqədar sənədlərin hazırlanması, bu istiqamətdə beynəlxalq təcrübənin araşdırılması ilə bağlı işlərin həyata keçirildiyini söyləyib. Qeyd edib ki, layihə hazırlanarkən müsbət nəticələrin əldə edilməsi üçün bu sahədə beynəlxalq ekoloji prinsiplər, habelə ətraf mühitin mühafizəsi, nəqliyyat parkının yenilənməsi ilə bağlı məsələlər, bəzi stimullaşdırıcı amillər nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, təklif olunan dəyişikliklərə əsasən, qanunun adında və bəzi maddələrində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilir.

Layihədə nəqliyyat vasitələrinin utilizasiyası ilə əlaqədar yeni fəslin əlavə olunması nəzərdə tutulub. Əlavəyə əsasən, Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 il keçən minik avtomobillərinin gömrük rəsmiləşdirilməsi, həmçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi zamanı nəqliyyat vasitələrinin utilizasiyası fonduna utilizasiya haqqı ödənilir. Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqının bəyannaməçilər tərəfindən ödənilməsi gömrük orqanları tərəfindən təmin edilir. Utilizasiya haqqının məbləği nəqliyyat vasitəsinin istehsal-buraxılış ili üzrə müəyyən edilir. Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri satın alındıqda nəqliyyat vasitələrinin satıcıları tərəfindən güzəşt tətbiq edilir.



Sənəddə qeyd olunur ki, nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitlərinin idarə olunması, utilizatorların reyestrinin aparılması, saxlanılması və nəzarəti, qanunun müvafiq maddələrində nəzərdə tutulan yazılı məlumatların alınması, təsdiqedici sənədlərin uçotunun aparılması ilə bağlı funksiyaların icrasını təmin etmək üçün nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator müəyyən edilir.

Bildirilib ki, güzəşt və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə nəqliyyat vasitələrinin utilizasiya fondu yaradılır. Fond utilizasiyası haqqı, kreditlər və qrantlar, hüquqi və fiziki şəxslərin könüllü ianələri, beynəlxalq təşkilatların və digər donorların ayırmaları, qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

Qanuna təklif olunan dəyişikliklərdə nəqliyyat vasitələrinin utilizasiyaya onların mülkiyyətçiləri tərəfindən könüllü şəkildə təqdim edilməsi nəzərdə tutulur. Qeyd olunur ki, utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi onun mülkiyyətçisinin müraciəti əsasında dövlət qeydiyyatından çıxarılır və utilizatora təhvil verildikdə utilizator nəqliyyat vasitəsinin mülkiyyətçisinə bu barədə təsdiqedici sənəd təqdim edir.

Bildirilib ki, sənəd yol hərəkətinin təhlükəsizlik səviyyəsinin artırılması, ekoloji vəziyyətin yaxşılaşması, mövcud nəqliyyat parkının yenilənməsi, toplanmış yararsız nəqliyyat vasitələrinin ekoloji tələblərə uyğun şəkildə utilizasiyası, yeni iş yerlərinin yaradılması işinə xidmət edəcək.

Tədbirdə iştirak edən ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Fikrət Şirinov, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Elvin Hüseynzadə məsələ ilə bağlı mülahizələrini səsləndiriblər. Qeyd olunub ki, təklif edilən dəyişikliklər yerli avtomobil istehsalının stimullaşdırılması məqsədilə köhnəlmiş, texniki-təhlükəsizlik baxımından və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasını təmin edəcək.

Sonra iclasda iştirak edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, sənəddə utilizator, nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxs və nəqliyyat vasitələrinin satıcısı tərəfindən "Tullantılar haqqında" qanunda nəzərdə tutulan tələblərin pozulmasına və ya vəzifələrin yerinə yetirilməməsinə görə inzibati məsuliyyət nəzərdə tutulur.

Təqdim olunan məsələlər ətrafında aparılan müzakirələrdə deputatlar Vahid Əhmədov, İltizam Yusifov, Vüqar Bayramov, Əli Məsimli, Asim Mollazadə, Razi Nurullayev, Mahir Abbaszadə, Məşhur Məmmədov, Məzahir Əfəndiyev, Elnur Allahverdiyev, Rüfət Quliyev çıxış edərək qanun layihəsinin günün tələblərinə cavab verdiyini bildiriblər, sənəddə öz əksini tapmış məsələlərin vacibliyi və aktuallığından bəhs ediblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin eksperti Mirzə Lahıcov, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Fikrət Şirinov, Ekologiya və Təbii Sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə deputatların suallarını cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasda iştirak edən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov qanun layihələri barədə öz fikirlərini açıqlayıblar.

Sonra komitə sədri Sadiq Qurbanov gündəlikdəki digər qanun layihələri ilə bağlı məlumat verərək bu sənədlərdə nəzərdə tutulan dəyişikliklərin uyğunlaşdırma xarakterli olduğunu söyləyib.

Tədbirin sonunda müzakirəyə çıxarılan 5 qanun layihəsinin hər biri Milli Məclisin iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

№ 172 Bakı şəhəri, 31 may 2023-cü il

## “Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı”nın və “Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı”nın və onların tətbiqi qaydalarının təsdiq edilməsi və “Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli Qərarının ləğv edilməsi barədə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli 1893 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın tətbiqi qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).

4."Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 604) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**1 nömrəli əlavə**

### Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin SİYAHISI

| Sıra №-si | İstehsalatların, peşələrin (vəzifələrin) adları (o cümlədən yeraltı işlərin) |
|---|---|
| **1** | **2** |
| **1. Metal emalı** | |
| 1.1. | Əritmə işləri |
| 1.1.1. | vaqrançı |
| 1.1.2. | qazçı |
| 1.1.3. | şixtanı vaqrankalara və sobalara əl ilə dolduran şixta tökücüsü |
| 1.1.4. | metalların qızdırılması ilə məşğul olan: |
| 1.1.4.1. | induksion qurğularda |
| 1.1.4.2. | sobaların əl ilə doldurulmasında və sobaların işləməsinə nəzarət edilməsində |
| 1.1.4.3. | metallar və xəlitələr üzrə əridici |
| 1.2. | Dəmirçi-presləmə və termik işləri |
| 1.2.1. | dövri və fasiləsiz fəaliyyətdə olan plazma və elektrik sobalarında metalın emalı ilə məşğul olan termist (avtomatlaşdırılmış proseslərdə məşğul olanlardan başqa) |
| 1.3. | Metalörtüyü və rəngləmə |
| 1.3.1. | kesson-çənlərin daxilində kipləşdirmə ilə məşğul olan kipləşdirici |
| 1.3.2. | nitrat boyalarla işləyən rəngsaz |
| 1.3.3. | daimi olaraq isti üsulla qurğuşunlaşdırma ilə məşğul olan qurğuşunlaşdırıcı |
| **1** | **2** |
| 1.3.4. | boya və lakların təmizləyici-yuyucusu |
| 1.4. | Çilingər və çilingər-quraşdırma işləri |
| 1.4.1. | titrəməni işləyənin əlinə ötürən pnevmatik alətlərdə iş görən dəlici-pnevmatçı |
| 1.4.2. | aşağıdakı işlərdə məşğul olan: |
| 1.4.2.1. | isti-prokat, aşındırma, minalama, üzvi silisium laklardan istifadə etməklə izolyasiya, kabel istehsalında qurğuşunlama sexlərində və bölmələrində avadanlığın sazlanması |
| 1.4.2.2. | selen və şoopirovka aparatlarında (avadanlıqlarında) isti təmirdə |
| 1.4.2.3. | üzvi silisium lakların və tərkibində 40 faiz və daha artıq toluol, ksilol olan lakların hazırlanması, istifadəsi sexlərində və bölmələrində avadanlıqların sazlayıcısı |
| 1.4.2.4. | qurğuşunlu akkumulyatorlar istehsalında bilavasitə üyütmə, yaxma, formalaşdırma, tökmə, trubka-doldurma, qarışdırma və yığma sexlərində |
| 1.4.2.5. | etilləşdirilmiş benzinlə işləyən və bokslarda yerləşdirilən motor sınağı stansiyalarında texnoloji avadanlığın təmiri üzrə çilingər-təmirçi |
| 1.5. | Qurğuşunla işlər |
| 1.5.1. | qurğuşun məmulatlarının əridilməsi, tökülməsi, prokatı, dartıb nazikləşdirilməsi, ştamplanması, habelə kabellərin qurğuşunlanması və qurğuşun akkumulyatorların lehimlənməsi ilə məşğul olan fəhlələr |
| **2. Tikinti, quraşdırma və təmir-tikinti işləri** | |
| 2.1. | Kanalizasiya sisteminin təmiri ilə məşğul olan sanitar-texniki sistemlərin və avadanlığın quraşdırıcısı |
| 2.2. | Qurğuşun lehimləyicisi |
| **3. Mədən işləri** | |
| 3.1. | Açıq mədən işləri, işləyən və tikilən şaxtaların və mədənlərin üz səthi, zənginləşdirmə, aqlomerasiya, briketləşdirmə, mədən və əsaslı-mədən işləri üzrə ümumi peşələr |
| 3.1.1. | zənginləşdirmə, aqlomerasiya və briketləşdirmənin ümumi peşələri |
| **1** | **2** |
| 3.1.1.1. | gil-torpaq istehsalında isti kəsəklərin parçalanması üzrə doğrayıcı |
| 3.1.1.2. | civə istehsalında xammalın və materialların yandırılması prosesinin aparılması ilə məşğul olan yandırıcı |
| 3.1.1.3. | qurğuşunun zənginləşdirilməsi sexlərində məşğul olan fəhlələr |
| 3.1.2. | metropolitenlərin, tunellərin və xüsusi təyinatlı yeraltı qurğuların tikintisi |
| 3.1.2.1. | mədən avadanlıqlarının quraşdırıcısı |
| 3.1.2.2. | yerüstü işlərdə qazmaçı |
| **4. Quyuların qazılması** | |
| 4.1. | Neft və qaz quyularının istismarı və kəşfiyyat qazmalarının qazmaçısı |
| 4.2. | Buruqquraşdırıcı, buruqquraşdırıcı-qaynaqçı |
| 4.3. | Buruqquraşdırıcı-elektrik montyoru |
| 4.4. | Buruq qurğusunun maşinisti |
| 4.5. | Quyuların sementlənməsi üzrə maşinist, sementləyici qurğunun motorçusu, sement-qum qarışdıran qurğunun motorçusu |
| 4.6. | Boruların məngənə ilə sıxıcısı |
| 4.7. | Neft və qaz quyularının istismarı və kəşfiyyatı quyularının qazılması üzrə qazmaçı köməkçisi (birinci), neft və qaz quyularının istismarı və kəşfiyyatı quyularının qazılması üzrə qazmaçı köməkçisi (ikinci) |
| 4.8. | Əl ilə məhlulun hazırlanması işi ilə məşğul olan qazma məhlulunun hazırlayıcısı |
| 4.9. | Bilavasitə mədəndə qazma avadanlığının təmiri ilə məşğul olan çilingər-təmirçi |
| 4.10. | Bilavasitə mədəndə məşğul olan mədənlərə xidmət üzrə çilingər |
| 4.11. | Buruq qıfıllarının quraşdırıcısı |
| 4.12. | Buruqlara xidmət üzrə elektromontyor |
| **5. Neft və qaz hasilatı** | |
| 5.1. | Dənizdə üzən qazma aqreqatının qazmaçısı, quyunun əsaslı təmir qazmaçısı |
| **1** | **2** |
| 5.2. | Qaldırıcı mexanizmin maşinisti, yuyucu aqreqatın maşinisti, parafinsizləşdirmə səyyar buxar qurğusunun maşinisti |
| 5.3. | Səyyar kompressor maşinisti |
| 5.4. | Layların hidravlik yarılması üzrə operator |
| 5.5. | Quyuların yeraltı təmiri üzrə operator |
| 5.6. | Qurğuların kimyəvi işlənməsi üzrə operator |
| 5.7. | Quyuların əsaslı və yeraltı təmirə hazırlanması üzrə operator |
| 5.8. | Dənizdə üzən qazma aqreqatı qazmaçının köməkçisi, quyunun əsaslı təmir qazmaçısının köməkçisi |
| 5.9. | Daima yeraltı neftçıxarma ilə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 5.10. | Estakadaların və dəniz qazma özüllərinin quraşdırılması və təmiri üzrə çilingər |
| 5.11. | Neft-mədən avadanlığının təmiri və texnoloji avadanlığın quraşdırılması və xidməti ilə məşğul olan təmirçi-çilingər |
| 5.12. | Texnoloji avadanlığa xidmət və onun təmiri ilə məşğul olan elektrik avadanlığına xidmət və təmir üzrə elektromontyor |
| **6.Qara metallurgiya** | |
| 6.1. | Qara metallurgiyada ümumi peşələr |
| 6.1.1. | boru və prokat istehsalının metodiki, kameralı sobalarında və quyularında işlə məşğul olan metal qızdırıcısı |
| 6.2. | Domna istehsalatı |
| 6.2.1. | domna sobalarının bunkerçisi |
| 6.2.2. | domna sobasının yuxarısında işləyən fəhlə |
| 6.2.3. | domna sobasının su kəməri işçisi |
| 6.2.4. | domna şlakının xırdalayıcısı |
| 6.2.5. | domna sobasının kürəçisi |
| 6.2.6. | tərəzi-vaqon maşinisti |
| 6.2.7. | şixta ötürən maşinist |
| 6.2.8. | skipçi |
| 6.3. | Poladəritmə istehsalatı |
| **1** | **2** |
| 6.3.1. | marten sobası poladəridəninin komplektçisi, elektrik sobası poladəridəninin köməkçisi, dəmirin düzgün bərpası sobası poladəridəninin köməkçisi, konverter poladəridəninin köməkçisi, elektrik şlak əridici qurğunun poladəridəninin köməkçisi |
| 6.3.2. | poladtökən |
| 6.3.3. | konverter poladəridəni, marten sobasının poladəridəni, dəmirin düzgün bərpası sobasının poladəridəni, elektrik şlak əridici qurğunun poladəridəni, elektrik sobasının poladəridəni |
| 6.3.4. | vanadium beş oksidli ərintilərinəridilməsi ilə məşğul olan əridici |
| 6.3.5. | alüminium termik üsulla metal xromun və xrom tərkibli ərintilərin alınması ilə məşğul olan fəhlə |
| 6.3.6. | bilavasitə poladəritmə ilə məşğul olan fəhlələr |
| 6.4. | Koks-kimya istehsalatı |
| 6.4.1. | barilyetçi |
| 6.4.2. | qapıçı |
| 6.4.3. | dozalaşdırıcı |
| 6.4.4. | naftalinin xırdalanması və qablaşdırılması ilə məşğul olan xırdalayıcı |
| 6.4.5. | lyukçu |
| 6.4.6. | benzolun istehsalı, onun hidravlik təmizlənməsi və rektifikasiyası ilə bilavasitə məşğul olan fəhlələr, rəhbərlər və mütəxəssislər |
| 6.4.7. | koks batareyalarının xidməti ilə məşğul olan çilingər-təmirçi |
| 6.4.8. | koks məhsullarının tutulması sexində fenol qurğularına xidmətlə məşğul olan skrubberçi-nasosçu |
| **7. Əlvan metallurgiya** | |
| 7.1. | Əlvan metallurgiyanın ümumi peşələri |
| 7.1.1. | alüminium, silisium və silumin istehsalında anodların dib hissələrinin təmiri ilə məşğul olan anod təmirçisi (yapışdırıcı) |
| **1** | **2** |
| 7.1.2. | alüminium, silumin və silisium istehsalında katod oxu altında dərinləşdirmənin qazılması ilə məşğul olan vannaların təmirində quraşdırıcı |
| 7.2. | Əlvan və nadir metalların istehsalı, əlvan metallardan tozların hazırlanması |
| 7.2.1. | alüminium istehsalında anodçu |
| 7.2.2. | civəpüskürdən |
| 7.2.3. | nikel tozunun bərpası üzrə sobaçı |
| 7.2.4. | əritmə sexlərində və civə istehsalında qalığın təkrar emalı ilə məşğul olan fəhlələr |
| 7.2.5. | zənginləşdirmə fabriklərinin reagent şöbələrində məşğul olan reagent məhlulçusu |
| 7.3. | Alüminiumun elektroliz üsulu ilə istehsalı |
| 7.3.1. | elektroliz üsulu ilə alüminium istehsalında məşğul olan fəhlələr və ustalar |
| **8. Elektrik stansiyaları avadanlıqlarının və şəbəkələrinin istismarı və təmiri** | |
| 8.1. | Qazanların üfürülməsi və şlakdan təmizlənməsi ilə məşğul olan qazan avadanlığı üzrə maşinist-baxıcı |
| 8.2. | Qazan və toz hazırlama sexlərinin avadanlıqlarının əl ilə təmiri üzrə çilingər |
| 8.3. | İsti qazanların təmiri ilə məşğul olan çilingər-təmirçi |
| 8.4. | Yanacaq ötürücü avadanlığın təmiri üzrə çilingər |
| 8.5. | qurğuşun oksidi tərkibli preparatla örtülmüş kabel keçidlərinin təmiri və qurğuşunlu kabel muftaları və örtüklərinin lehimlənməsi ilə məşğul olan kabel xətlərinin təmiri və quraşdırılması üzrə elektrik montyoru |
| **9. Abrazivlərin istehsalı** | |
| 9.1. | Abraziv məmulatların qurğuşunla doldurulması ilə məşğul olan abraziv dairələrin tarazlaşdırıcı-doldurucusu |
| **10. Elektrotexnika sahəsi** | |
| 10.1. | Elektrotexnika sahəsinin ümumi peşələri |
| **1** | **2** |
| 10.1.1. | civə distilləyicisi |
| 10.1.2. | açıq çivə ilə məşğul olan civə düzləndiriciləri qəlibçisi |
| 10.2. | Elektrik-kömür istehsalı |
| 10.2.1. | pek əridilməsi ilə məşğul olan fəhlələr |
| 10.3. | Kabel istehsalı |
| 10.3.1. | isti üsulla qurğuşunun preslənməsi ilə məşğul olan qurğuşun və ya alüminium kabellərinin presləyicisi |
| 10.3.2. | yalnız qurğuşun örtüklərin çıxarılması ilə məşğul olan kabel məmulatlarından örtüyü çıxaran |
| 10.4. | Qurğuşunlu akkumulyator istehsalı |
| 10.4.1. | qurğuşun ərintilərindən məmulatların tökücüsü |
| 10.4.2. | quru kütlənin (qurğuşunlu akkumulyatorlar üçün) qarışdırıcısı |
| 10.4.3. | qurğuşun ərintilərinin əridicisi |
| 10.4.4. | formaya salınmış qurğuşun lövhələrin ştamplanması-bölünməsi ilə məşğul olan akkumulyator lövhələrinin kəsicisi |
| 10.5. | Cərəyanın kimyəvi mənbələrinin hazırlanması |
| 10.5.1. | turşulu akkumulyatorların istehsalı ilə məşğul olan aktiv kütlənin hazırlayıcısı |
| **11. Radiotexnika və elektron sahəsi** | |
| 11.1. | Elektron texnikasının ümumi peşələri |
| 11.1.1. | soba-kristallizatorlarda maqnit ərintilərinin tökücüsü |
| 11.1.2. | şoopərintilərin və vismutun əridicisi |
| **12. Uçuş aparatlarının istehsalı və təmiri** | |
| 12.1. | Etilli benzinlə işləmiş motorların və aqreqatların təmiri ilə məşğul olan aviamühərriklərin və aqreqatların təmiri üzrə çilingər |
| **13. Gəmiqayırma və gəmi təmiri** | |
| 13.1. | Çənlərdə, ikinci dib sahələrdə, isti yeşiklərdə və gəminin digər çətin əlçatan sahələrində rəngləmə işləri, habelə həmin sahələrin köhnə rəngdən təmizlənməsi ilə məşğul olan rəngsaz, gəmi izolyasiyaçısı |
| **1** | **2** |
| **14. Kimya istehsalatı** | |
| 14.1. | Kimya istehsalatının ümumi peşələri |
| 14.1.1. | benzol, ksilol, toluol, selen və selen tərkibli maddələrin tətbiqi ilə əlaqədar işlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.1.2. | istehsalat binalarının flüor, hidrogen-flüorit və flüoritlər ayrılan işçi zonalarının istehsalat işçiləri |
| 14.2. | Qeyri-üzvi maddələrin istehsalı |
| 14.2.1. | kalsium-karbidin istehsalında növbəli iş vaxtı rejimində çalışan və sobalara xidmət və karbidin əl ilə xırdalanması ilə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.2. | flüorit turşusunun istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.3. | sianid turşusunun istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.4. | civə və civə birləşmələrinin istehsalında növbəli iş vaxtı rejimində çalışan və məsafədən idarəetmə istehsalatlarından başqa, texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.5. | xlorun civə üsulu ilə istehsalında texnoloji mərhələlərdə məşğul olan fəhlələr |
| 14.2.6. | alüminium xloridin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.7. | xlorlu kükürdün və stibium beş xloridin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.8. | mis iki xloridin, sink xloridin və qalay xloridin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.9. | işıqtərkiblilərin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.10. | kükürdlü karbonun (karbon dörd sulfidin) istehsalında retort və kondensasiya bölmələrində məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| **1** | **2** |
| 14.2.11. | arsenli və arsen birləşmələrinin istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.2.12. | texniki yodun istehsalında yodun sıxılmasında məşğul olan fəhlələr |
| 14.3. | Üzvi kimya məhsullarının istehsalı |
| 14.3.1. | karbon dörd xlorid, golovax, rematol və sovol istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.2. | tərkibində arsen olan katalizatorların istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.3. | sıramın, tərkibində civə və arsen olan pestisidlərin istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.4. | etil mayesinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.5. | benzolun, toluolun, ksilolun istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.6. | formalin istehsalında növbəli iş vaxtı rejimində çalışan və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.7. | metanolun istehsalında kükürdün təmizlənməsi, təbii qazın reforminqi və metalonun sintezi ilə bağlı texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.8. | etilenin və propilenin istehsalında növbəli iş vaxtı rejimində çalışan və benzolun, ksilolun (piroliz sexi, məhsul və xammal bazası) istifadəsi ilə bağlı texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.9. | benzolun xlorlu törəmələrinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| **1** | **2** |
| 14.3.10. | malein turşusu anhidridinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.11. | ftal turşusu anhidridinin istehsalında texnoloji əməliyyatlarda məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.12. | alftanaftilaminin, difenilaminin, tiodifenilaminin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.13. | fosgenləşdirilmiş boyaq maddələrinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.14. | ftalosianinli boyaq maddələrinin, piqmentlərin və lakların, mis ftalosianinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.15. | sianid duzlarının, bromun tətbiqi ilə boyaq maddələrin və yarımməhsullarının istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.16. | stirolun, metil və etilbenzolun, akroleinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.17. | güclü təsirə malik, yüksək və orta zəhərli bitki mühafizə vasitələrinin istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.3.18. | asetaldehidin civə üsulu ilə istehsalında texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.4. | Lak-boya istehsalı |
| 14.4.1. | qurğuşunlu qaletinin,qurğuşunlu boyaq və digər qurğuşun tərkibli maddələrin istehsalında növbəli iş vaxtı rejimində və texnoloji mərhələlərdə məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 14.4.2. | kimyəvi liflərin və sapların istehsalında kükürdlü karbonun (karbon 4-sülfidin) regenerasiyasında məşğul olan regenerasiya aparatçısı |
| **1** | **2** |
| 14.5. | Tibbi dərmanların, tibbi və bioloji preparatların və materialların istehsalı |
| 14.5.1. | antibiotiklərin istehsalında çərçivəsi 500 mm-dən artıq olan pres-süzgəclərin əl ilə yığılması və sökülməsi ilə məşğul olan filtrasiya aparatçısı |
| 14.5.2. | morfi və tiryək-xammalın istehsalında çərçivəsi 500 mm-dən artıq olan pres-süzgəclərin əl ilə yığılması və sökülməsi ilə məşğul olan filtrasiya aparatçısı |
| 14.5.3. | androgenlərin istehsalında tərkibində testosteron və onun törəmələri olan qarmonların sintez ilə məşğul olan aparatçı |

*Ardı 8-ci səh.*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmişdir

1 nömrəli əlavə

## Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin SİYAHISI

*Əvvəli 7-ci səh.*

| | |
|---|---|
| 14.6. | Ətriyyat-kosmetika istehsalı |
| 14.6.1. | civə çöküntülü kosmetik kütlənin qablaşdırılması ilə məşğul olan kosmetik vasitələrin hazırlanması aparatçısı |
| 14.6.2. | civə çöküntülü işlərlə məşğul olan kosmetik kütlə yayıcısı |
| 14.6.3. | civə çöküntülü işlərlə məşğul olan kosmetik kütlə bişiricisi |
| 14.6.4. | civə çöküntüsünün üyüdülməsi ilə məşğul olan fəhlələr |
| 14.6.5. | amidoxlor civənin üyüdülməsi ilə məşğul olan fəhlələr |
| **15. Neftin, qazın, şistlərin və kömürün emalı, sintetik neft məhsullarının, neft yağlarının və sürtkü yağlarının emalı** | |
| 15.1. | Koks boşaldıcısı |
| 15.2. | Koks təmizləyicisi |
| 15.3. | Çalışan və etilləşmiş benzinin texnoloji qurğularında məşğul olan rəhbərlər, mütəxəssislər və fəhlələr |
| 15.4. | Aromatik karbohidrogenlərin istehsalında növbəli iş vaxtı rejimində ekstraksiya sexlərində və şöbələrində məşğul olan fəhlələr |
| 15.5. | Eşmələrin kəsicisi |
| 15.6. | Tərkibində kükürd olan neft qazlarının təmizlən-məsində arsenat məhlullarının hazırlanması ilə məşğul olan fəhlələr |
| **1** | **2** |
| **16. Sement istehsalı** | |
| 16.1. | Şlam hovuzlarının və toxmaqların təmizlənməsi ilə məşğul olan fəhlələr |
| **17. Şüşə və şüşə məmulatlarının istehsalı** | |
| 17.1. | Qurğuşun tərkibli maddələr istifadə etməklə əl ilə görülən işlərdə məşğul olan şixtələrin tərtibçisi |
| **18. Toxuculuq və yüngül sənaye** | |
| 18.1. | Toxuma malları istehsalının ümumi peşələri |
| 18.1.1. | kanalizasiya qanovlarının təmizlənməsində məşğul olan sanitar-texniki sistemlərin və avadanlıqların quraşdırıcısı |
| 18.2. | Yun-keçə istehsalı |
| 18.2.1. | əl işlərində məşğul olan ayaqqabını qəlibə keçirən |
| 18.2.2. | əl işlərində məşğul olan ayaqqabını qəlibdən çıxaran |
| 18.3. | Xəz istehsalı |
| 18.3.1. | formalinlə işlənmiş qoyun dərisi xəzinin ütülənməsi ilə məşğul olan xəz dərilərinin termonaxışlayıcısı |
| **19. Tütün məmulatlarının istehsalı** | |
| 19.1. | Tütün-maxorka və fermentasiya istehsalı |
| 19.1.1. | tütünün əl ilə qablaşdırılması zamanı onun aromatlaşdırılması prosesi ilə məşğul olan aromatlaşdırıcı |
| 19.1.2. | fermentasiya kameralarını yükləyən-boşaldan |
| 19.1.3. | əl ilə yükləməklə məşğul olan tütün doğrayan maşının maşinisti |
| 19.1.4. | tütün taylarının daşınması ilə məşğul olan köməkçi fəhlə |
| 19.1.5. | maxorka tozunun presləyicisi |
| 19.1.6. | tütün gişinin presləyicisi |
| 19.1.7. | tütünün qatar partiyalarının tərtibatçısı |
| 19.1.8. | tütünün, maxorkanın, farmaturanın düzülməsi, taylara qablaşdırılması ilə məşğul olan düzücü-qablaşdırıcı |
| **20. Dənli bitki emalı və yem məhsullarının istehsalatları** | |
| 20.1. | Dəyirman-ding, müxtəlif yemlərdən hazırlanan yem qatışığı müəssisələri, hibrid və müxtəlif sort qarğıdalı toxumunun emalı üzrə zavodlar, elevatorlar, taxıl qəbulu müəssisələri (punktları), bazaları |
| 20.1.1. | anbarda, elevatorlarda müəssisələrdə və başqa obyektlərdə taxılın fumiqasiyası, deratizasiyası və dezinfeksiyası ilə məşğul olan fəhlələr |
| 20.1.2. | tərkibində antibiotiklər, fermentlər və mikroelementlər olan briketləşdirilmiş və xırdalanmış qarışıq yem istehsalında preslərə xidmət edən fəhlələr |
| 20.1.3. | dərmanlanmış qarğıdalı toxumunun yüklənməsi, boşaldılması və qablaşdırılması ilə məşğul olan fəhlələr |
| 20.1.4. | zəhərli kimyəvi preparatlar və dərmanlanmış qarğıdalı toxumu anbarlarında işin yerinə yetirilməsi ilə məşğul olan fəhlələr |
| **21. Dəmiryol nəqliyyatı və metropoliten** | |
| 21.1. | Taxta dirəklərə və altlıqlara antiseptiklərin hopdurulması ilə bilavasitə məşğul olan fəhlələr |
| 21.2. | Oduncaqlara yağlı antiseptiklərin hopdurulmasının texnoloji prosesində məşğul olan fəhlələr |
| 21.3. | Dəmiryol nəqliyyatı vasitələrinin təmiri üzrə aşağıdakı işləri yerinə yetirən çilingər |
| 21.3.1. | tüstü və od qutularının təmiri |
| 21.3.2. | elektrik hərəkət qatarının və elektrikötürücülü teplovozların navalçalarının və aşağı hissəsinin üfürülməsi |
| 21.3.3. | neft və kimyəvi məhsulları daşıyan sisternlərdə boşaltma cihazların və qoruyucu klapanların sökülməsi, təmiri və yığılması |
| 21.3.4. | boşaltma cihazlarının klapanlarının yoxlanılması və doldurulması |
| **22. Avtomobil nəqliyyatı** | |
| 22.1. | Turşulu və qələvili akkumulyatorların doldurulması və təmiri ilə məşğul olan akkumulyatorçu |
| **1** | **2** |
| 22.2. | Etilləşdirilmiş benzin ilə işləyən maşın mühərrikinin detallarının yuyulmasını əl ilə yerinə yetirən yuyucu maşının maşinisti |
| 22.3. | Etilləşdirilmiş benzinlə işləyən mühərrikin sınağı ilə məşğul olan avtomobil təmiri üzrə çilingər |
| 22.4. | Avtomobil təsərrüfatlarında etilləşdirilmiş benzinlə işləyən karbürator və injektorlu mühərriklərin yanacaq aqreqatlarının təmiri ilə məşğul olan çilingər |
| **23. Mülki aviasiyanın istismar, təlim-uçuş müəssisələri (təşkilatları və uçuş-sınaq stansiyaları)** | |
| 23.1. | Uçan aparatların etilli benzinlə doldurulması və eləcə də xüsusi maşınların etilli benzinlə doldurulması ilə məşğul olan benzindoldurma stansiyasının operatoru |
| **24. Rabitə** | |
| 24.1. | Rabitənin kanalları qurğularının elektrik montyoru |
| **25. Poliqrafiya istehsalatı** | |
| 25.1. | Qurğuşun ərintilərinin tətbiqi ilə bağlı işlər |
| 25.1.1. | stereotiplərin, şriftlərin, yığma və ağardıcı materialların tökülməsi sahəsində məşğul olan poliqrafiya avadanlığının sazlayıcısı |
| 25.1.2. | tökücü |
| 25.1.3. | stereotiplərin tökmə əməliyyatlarında və işlənməsində məşğul olan fəhlələr |
| 25.1.4. | stereotiperçi |
| **26. Kənd təsərrüfatı** | |
| 26.1. | Quyularda, peyin şirəsi quyularında və sisternlərdə, silos anbarlarında və senaj qüllələrində işləyən fəhlələr |
| 26.2. | Heyvan cəmdəklərinin müsadirə olunmuş və patoloji materialların yüklənməsi və boşaldılması ilə məşğul olan fəhlələr |
| 26.3. | İribuynuzlu mal-qara, at cəmdəklərindən dərilərin soyulması və cəmdəklərin doğranması ilə məşğul olan fəhlələr |
| **1** | **2** |
| 26.4. | Pestitlərin, işçi formalarının daşınması, yüklənməsi, boşaldılması, anbarlara yığılması, hazırlanması və tətbiqi ilə toxumların, bitkilərin, kənd təsərrüfatı sahələrinin, binaların, tutumların, nəqliyyat vasitələrinin işlənməsi, eləcə də bu iş növlərində istifadə edilən maşın, mexanizm və avadanlıqların təmiri, təmizlənməsi, yuyulması və onlara texniki xidmət ilə məşğul olan fəhlələr |
| 26.5. | Taxılın dərmanlanması ilə məşğul olan fəhlələr |
| 26.6. | Tütünün yığılması, daşınması və ilkin emalı ilə məşğul olan fəhlələr |
| **27. Bütün sahələr üçün ümumi olan fəhlə peşələri** | |
| 27.1. | Akkumulyatorçu |
| 27.2. | Antenaçı-dirkəçi |
| 27.3. | Dalğıc |
| 27.4. | Açıq civənin əl ilə dozalaşdırılması ilə məşğul olan civə dozalaşdırıcısı |
| 27.5. | Qazantəmizləyən |
| 27.6. | Qurğuşunlu boyaqların əl ilə hazırlanmasında məşğul olan boyaqəzən |
| 27.7. | Tutumların içində, tərkibində qurğuşun, ətirli və xlorlaşdırılmış karbohidrogenlər olan lak və boya materiallarının tətbiqi ilə rəngləmə ilə, həmçinin həmin lak və boya materiallarının tətbiqi ilə örtülü kameralarda irihəcmli məmulatların pulverizatorlarla rənglənməsi ilə məşğul olan rəngsaz |
| 27.8. | Üzvi həlledicilər rənglərin və qurğuşun tərkibli rənglərin pnevmatik səpələnməsi ilə rəngləmə işlərində məşğul olan rəngsaz |
| 27.9. | Oduncaqdan alınmış taxta-şalbanın və alınan məmulatların hopdurucusu |
| 27.10. | Açıq halda metal civə ilə işlə məşğul olan işçilər (effektli havadəyişməsi təmin olunan iş yerində qurğu və yarımavtomatlarda məşğul olanlardan başqa |
| 27.11. | Aşağıdakı işlərdə məşğul olan fəhlələr |
| **1** | **2** |
| 27.11.1. | kükürdlü neftin, onun emalında alınan və neft qazı tərkibli olan məhsullar saxlanılmış tutumların (rezervuarların, sisternlərin, barjaların və s.) təmizlənməsində |
| 27.11.2. | etil mayesi ilə benzin qarışığının hazırlanmasında |
| 27.11.3. | civəli düzləndiricilərin tənzimlənməsində |
| 27.11.4. | kanalizasiyaya şəbəkəsinin təmizlənməsi ilə məşğul olan qəza-bərpa işlərinin çilingəri |
| 27.11.5. | boruların təmizlənməsi ilə məşğul olan təmizləyici |
| 27.11.6. | bacaların və sobaların təmizlənməsi ilə məşğul olan təmizləyici |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmişdir

2 nömrəli əlavə

## Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin SİYAHISI

| Sıra №-si | Zərərli istehsalat amilləri |
|---|---|
| **1** | **2** |
| **1. Fiziki amillər** | |
| 1.1. | ionlaşdıran şüalanma |
| 1.2. | ionlaşdırmayan şüalanma |
| 1.2.1. | statik maqnitli sahə (0 Hz), məkan pik maqnitli axın sıxlığı |
| 1.2.2. | statik elektrik sahəsi (0 Hz) |
| 1.2.3. | LF (1hz - 100kHz) (elektromaqnit sahəsinin mənbəsi bilavasitə iş yerində olduqda) |
| 1.2.4. | RF (100khz - 300gHz) (elektromaqnit sahəsinin mənbəsi bilavasitə iş yerində olduqda) |
| 1.2.5. | infraqırmızı (780nm - 1mm) |
| 1.2.6. | görünən (380 - 780nm) |
| 1.2.7. | ultrabənövşəyi (100 - 400nm) |
| 1.3. | titrəmə (lokal, ümumi) |
| 1.4. | səs-küy (amplituda və (və ya) tezlik) |
| 1.5. | hiperbarik atmosferlər |
| 1.6. | hipobarik atmosferlər |
| 1.7. | iş yerində havanın temperaturu (istiyə və ya soyuğa məruz qalma) |
| **2. Kimyəvi amillər** | |
| 2.1. | anestezoloji qazlar |
| 2.2. | mərgümüş |
| 2.3. | asbest |
| 2.4. | asfalt buğu |
| **1** | **2** |
| 2.5. | benomil |
| 2.6. | benzol |
| 2.7. | berillium |
| 2.8. | 1,2-dibromo-3-xlorpropran |
| 2.9. | 1-bromopropan |
| 2.10. | 1,3-butadien |
| 2.11. | kadmium |
| 2.12. | karbon sulfid |
| 2.13. | karbon monoksid |
| 2.14. | xrom (heksavalentli) |
| 2.15. | diasetil |
| 2.16. | dieitilstilbestrol (DES) |
| 2.17. | dimetil formamid |
| 2.18. | dizel yanacağının işlənməsi nəticəsində yaranmış qazlar |
| 2.19. | etilen glikollar |
| 2.19.1. | 2-etooksietanol (2EE) |
| 2.19.2. | 2-metoksietanol (2ME) |
| 2.20. | etilen oksidi |
| 2.21. | formaldehid |
| 2.22. | glikol efirləri (və onların asetatları) |
| 2.23. | hidrogen sulfid |
| 2.24. | izosinatlar |
| 2.25. | qurğuşun |
| 2.26. | maneb |
| 2.27. | manqan |
| 2.28. | civə |
| 2.29. | metaltökmədə istifadə edilən mayelər |
| 2.30. | metilen xlorid |
| 2.31. | nikel |
| 2.32. | oksidləşmiş azot |
| 2.33. | silisium (kristalin) |
| 2.34. | həllediсilər |
| 2.35. | sintetik mineral liflər |
| 2.36. | tetraxloretilen |
| 2.37. | toluen |
| **3. Süni bioloji amillər (dərman maddələri)** | |
| 3.1. | antineoplastik maddələr (xərçəng əleyhinə) |
| **1** | **2** |
| 3.2. | antivirus maddələri |
| 3.2.1. | asiklovir |
| 3.2.2. | ganisiklovir |
| 3.2.3. | ribavirin |
| 3.2.4. | zidovudin |
| **4. Bioloji amillər** | |
| 4.1. | B və C hepatitləri |
| 4.2. | rubella virusu |
| 4.3. | listerioz |
| 4.4. | varisella zoster virusu |
| 4.5. | toksoplazmoz |
| 4.6. | kitomegalovirus |
| 4.7. | herpes |
| 4.8. | insan parvovirusu B19 |
| 4.9. | insan immunçatışmazlığı virusu (İİV) |
| **5. Əmək prosesi amilləri** | |
| 5.1. | peşə stresləri (psixi və fiziki stres) |
| 5.2. | görmə gərginlikli iş (Vizual displeylərlə (VD) iş) |
| 5.3. | təklikdə işləmə (bilavasitə iş yerində şəxslərin olmaması, iş yerinə video müşahidə aparılmaması və əmək funksiyasının təklikdə yerinə yetirilməsi) |
| 5.4. | hündürlükdə işləmə |
| 5.5. | iş vaxtının daimi yolda keçməsi, işin gediş-gəliş xarakteri daşıması və çöl şəraitində yerinə yetirilməsi |
| 5.6. | xidmət ilə əlaqədar əhali ilə birbaşa daimi təmas |
| 5.7. | iş yerində gərginlik (monoton iş,fiziki, emosional yüklənmə, əqli (zehni) gərginlik, iş yerini qısa müddətdə tərk etmək imkanının məhdud olması) |
| 5.8. | fərdi mühafizə vasitələrindən istifadə edilməsi zərurətinin olması |
| 5.9. | tibbi rəyə əsasən iş yerində verilən pulsuz müalicə-profilaktik yeməklərə əks-göstərişin olması |
| 5.10. | sanitar avadanlığı kanalizasiya sisteminə qoşulmuş isti və soyuq su ilə təchiz edilmiş sanitar qovşağı otağının olmaması |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 may tarixli 172 nömrəli Qərarı ilə təsdiq edilmişdir

3 nömrəli əlavə

## "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın tətbiqi QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın (bundan sonra - 1 nömrəli Siyahı) və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın (bundan sonra - 2 nömrəli Siyahı) tətbiqi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydalar mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün işəgötürənlərin iş yerlərində tətbiq edilir.

1.3. Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların 1 nömrəli Siyahı və ya 2 nömrəli Siyahı üzrə müəyyən olunmuş istehsalatlarda, vəzifələrdə (peşələrdə), yeraltı işlərdə və istehsalat amilləri olan iş yerlərində çalışdığı müəyyən edildikdə qadının hamiləliklə bağlı fizioloji vəziyyəti və uşağının bir yaşınadək olması ilə əlaqədar hallar aradan qalxdıqda işəgötürən tərəfindən işçinin Azərbaycan Respublikası Əmək Məcəlləsinin 243-cü maddəsinə əsasən əsas vəzifəsi (peşəsi) üzrə orta əməkhaqqı saxlanılmaqla yüngül işə keçirilməsi təmin edilməlidir. Bu halda hamilə və ya bir yaşına çatmamış uşağı olan qadın hamiləliyini təsdiq edən tibbi rəyi və ya uşağın doğum haqqında şəhadətnaməsini işəgötürənə təqdim edir.

### 2. Qaydaların tətbiq edilməsi şərtləri

2.1. İşəgötürən 1 nömrəli Siyahıya əsasən işçilərinin çalışdığı iş yerləri üzrə hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısını müəyyənləşdirməli və kollektiv müqaviləyə daxil etməlidir. Kollektiv müqavilənin bağlanılmadığı hallarında isə bu siyahı müəyyən edilərək işəgötürənin qərarı (əmri, sərəncamı) ilə rəsmiləşdirilir.

2.2. 2 nömrəli Siyahı ilə müəyyən edilmiş zərərli istehsalat amillərinin səviyyəsi iş yerlərinin attestasiyasının nəticələrinə əsasən buraxıla bilən həddi keçdikdə və yaxud əmək prosesi amilləri hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların sağlamlığına təhlükə yaratdıqda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "İş yerlərinin attestasiyasının keçirilməsi Qaydaları"nın 2.5-ci bəndi ilə müəyyən edilmiş "Əmək şəraiti üzrə iş yerinin attestasiya xəritəsi"ndə bu iş yerlərində hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqinin qadağan edilməsi barədə attestasiya komissiyası tərəfindən müvafiq qeyd aparılır.

2.3. Bu Qaydalar hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum səviyyəsini müəyyən edir və onların pisləşdirilməsinə yol verilmir.

2.4. Kollektiv müqavilələrlə, kollektiv müqavilənin bağlanıl-madığı hallarında isə əmək müqaviləsi ilə və ya işəgötürənlə həmkarlar ittifaqları arasında razılaşmalarla bu Qaydalar ilə müəyyən edilmiş təminatlardan daha yüksək təminatlar müəyyən edilə bilər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

## QƏRAR

№ 174

Bakı şəhəri, 31 may 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2014-cü il 24 yanvar tarixli 19 nömrəli, "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin və "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə"2020-ci il 6 iyul tarixli 238 nömrəli, "Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli, "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli, "Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli 479 nömrəli, "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" 2021-ci il 28 yanvar tarixli 18 nömrəli, "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin təsdiq edilməsi haqqında" 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli və "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" 2021-ci il 27 noyabr tarixli 371 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

"Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında"2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli1885 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-c? il 24 yanvar tarixli 19 nömrəliQərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 68; 2016, № 11, maddə 1945; 2018, № 5, maddə 1140) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 3-cü hissəsi ləğv edilsin.

2. "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin və "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 iyul tarixli 238 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 968) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin 6.1.9-cu və 6.1.10-cu yarım-bəndlərində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

3. "Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1289) 2-ci hissəsində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; 2022, № 4, maddə 381, № 6, maddə 685, № 11, maddə 1351, № 12, maddələr 1550, 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 70 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissənin ikinci abzasının üçüncü cümləsindən "və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

4.2. 5-ci hissənin üçüncü abzasının ikinci cümləsindən "(VXSİDA)" akronimi, dördüncü abzasının birinci cümləsindən "və VXSİDA-nın" sözləri və on birinci abzasından ", VXSİDA" akronimi çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1583) ilə təsdiq edilmiş "Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı"nın 1.3-cü və 2.2-ci bəndlərində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101,№ 6 (IV kitab), maddə 671, № 12, maddə 1536) 2-ci hissəsində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1177; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarxli 82 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin 5.1-ci bəndində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1293, № 12, maddə 1543, № 1, maddə 79; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli 82 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 5.7-ci bəndində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" təşkil olunub

**Uşaqların Beynəlxalq Müdafiəsi Günü - iyunun 1-də Heydər Əliyev Mərkəzinin parkında "Uşaq festivalı" keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə keçirilən festivalda müxtəlif yaş kateqoriyalarından olan uşaqların hər biri öz maraq dairəsinə uyğun əylənə bilib. Belə ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində təşkil edilən festival zamanı mərkəzin parkı uşaq şəhərciyini xatırladıb. Park müxtəlif mövzular və əyləncə növləri üzrə zonalara bölünüb. Burada balacalara bir-birindən maraqlı və fərqli əyləncələr, maarifləndirici proqramlar təqdim olunub. Hər bir uşağın asudə vaxtını səmərəli keçirməsinə, istedadını nümayiş etdirməsinə imkan yaradılıb.

Qeyd edək ki, "Uşaq festivalı"nda Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın övladları, Bakıdakı uşaq evlərinin sakinləri, Daun sindromlu uşaqlar da iştirak ediblər.

Mahnı oxuyub rəqs etməyi sevən uşaqlar üçün xüsusi ayrılan zonada səhnə qurulub, milli və müasir rəqslər üzrə ustad dərsləri keçirilib, uşaq-gənclər inkişaf mərkəzlərinin istedadlı uşaqlarının konsert proqramı təqdim edilib. Gənc astronomlar üçün ayrılan meydançada astronomiya elmi haqqında məlumatlar əldə etmək mümkün olub. Yüksək texnologiyaya maraq göstərən uşaqlar robotlar, dronlara baxıb və aviazonasındakı dərslərə qoşulub, idmansevərlər üçün isə miniturnirlər, yarışlar, interaktiv oyunlar, şahmat yarışları təşkil edilib. "Uşaq festivalı"nda balacaların ixtiyarına verilən meydançalardan biri də art meydançası olub. "Street art" məkanında asfalt üzərində rəsmlər çəkilib. Arxeoloji meydançada bu sahəyə maraq göstərən uşaqlar şərti axtarış apararaq qum altından müxtəlif arxeoloji tapıntı maketləri aşkarlamaq oyununa qoşulublar.

Festival çərçivəsində təhlükəsiz yollar zonasında Azərbaycan Avtomobil Federasiyası (AAF) uşaqlar üçün yol hərəkəti qaydalarına dair təlim təşkil edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi uşaqlara iqlim dəyişikliyi, su və enerjiyə qənaət, tullantıların çeşidlənməsi barədə məlumatlar verib, viktorinalar keçirib. İnteraktiv oyunlar zamanı ekoloqlar tərəfindən milli parklar, qoruqlar barədə məlumatlandırılan uşaqlar mini "Safari park"la tanış olublar. Qida Təhlükəsizliyi Agentliyi isə "Təhlükəsiz qida ilə sağlam gələcəyə" adlı rəsm müsabiqəsi sərgisi təşkil edib. Sərgidə müsabiqəyə təqdim edilən əsərlər arasından seçilmiş rəsmlər nümayiş olunub və qaliblər mükafatlandırılıb.

Heydər Əliyev Mərkəzinin parkında dünən maşın və fərqli idman növləri üzrə yarışlar da keçirilib. "Kulinariya", "Estafet" və digər əyləncə zonaları, attraksionlar, animatorlar uşaqlara gözəl xatirəyə dönəcək anlar yaşadıb. Keçirilən müsabiqələrdə qaliblərə və iştirakçılara müxtəlif hədiyyələr təqdim olunub.
















Mərkəzin parkında oxu meydançası da təşkil edilib. Burada uşaq ədəbiyyatı müəllifləri ilə görüş, eşitmə və nitq məhdudiyyətli uşaqlar üçün oxu saatı, müxtəlif bədii əsər qəhrəmanlarının obrazlarının rəsmləri üzrə müsabiqə və viktorina olub.

Konsert proqramında "Cücələrim" mahnı və rəqs ansamblı, "Təbəssüm" uşaq musiqili teatrı, "Azəri inciləri" vokal qrupunun üzvləri və digər istedadlı uşaqlar çıxış ediblər.

Beləliklə, Heydər Əliyev Mərkəzinin parkı gün ərzində həm əyləncə, həm də yaradıcılıq məkanı kimi uşaqların ixtiyarına verilərək onlara unudulmaz an yaşadılıb.

"Uşaq festivalı"na gələn uşaqların bəziləri təəssüratlarını AZƏRTAC ilə bölüşüblər.

Festivala gələnlərdən biri - 3 nömrəli uşaq evinin kiçik sakini Sara Mehdiyeva deyib: "Festival mənim çox xoşuma gəldi. Bizə vaxt ayırdıqları üçün "Uşaq festivalı"nın təşkilatçılarına təşəkkür edirəm. Burada uşaqlar üçün maraqlı proqramlar təşkil edilib".

Digər iştirakçı Şıxbaba Muxtarov Heydər Əliyev Mərkəzinin parkının rəngarəngliyini çox bəyəndiyini, buraya gəldiyi, dostları ilə gözəl vaxt keçirdiyi üçün çox sevindiyini deyib. O qeyd edib ki, "Uşaq festivalı"nda onlar üçün təşkil edilən bütün əyləncə və maarifləndirici proqramlar çox maraqlıdır.

Əli Əliyev isə bütün uşaqları Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib, festivala gəldiyi üçün çox xoşbəxt olduğunu bildirib: "Burada dostlarımla birgə əyləncəli vaxt keçirdim. Uşaq bayramı mənim ən çox sevdiyim günlərdən biridir. Bu bayram münasibətilə bütün uşaqları, şəhidlərimizin övladlarını da təbrik edirəm".

Ləman Şahbazova isə festivalı çox bəyəndiyini, burada çox əyləndiyini deyib: "Digər uşaqlarla söhbətləşmək, oynamaq, mahnılara qulaq asmaq mənim üçün unudulmaz oldu. Uşaq bayramı mənim ən sevdiyim günlərdən biridir. Festivalda keçirilən bütün yarışlarda dostlarımla birgə iştirak edəcəyəm və nəticələrimiz barədə sabah müəllimlərimə danışacağam".

# «Bakı Enerji Həftəsi»

# Ənənə davam edir

## Daha geniş, daha möhtəşəm

**1994-cü ilin may ayında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu tədbir əvvəllər "Xəzər Neft və Qaz " sərgisi adlanıb. Sonrakı illərdə sərginin əhatə dairəsi genişlənərək energetikanı, neft kimyasını və emalını özündə ehtiva edib. Daha sonra sərgi ilə yanaşı, eyniadlı konfrans da keçirilməyə başlanıb. Ötən ildən isə bir neçə sərgi və forumu birləşdirən tədbir Bakı Enerji Forumu adlanır.**



Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi hər il regionun əsas neft-qaz layihələrini müzakirə etmək və enerji təhlükəsizliyini təmin etmək üçün ən yüksəksəviyyəli şirkətləri bir araya gətirir. Beləliklə, 29 il əvvəl Azərbaycanın neft tarixində yeni dövrün əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində baş tutan birinci sərgi dünyanın neft-qaz şirkətlərinin bir-biri ilə əməkdaşlıq əlaqələri yaratması baxımından ən yaxşı platforma kimi tarixə düşüb.

O zamandan ənənəyə çevrilən bu tədbirin keçirildiyi məkan hər il qapılarını iştirakçıların və ziyarətçilərin üzünə açır. Həmin sərgilərdə nümayiş olunan eksponatlar, keçirilən konfranslar və görüşlər Xəzər dənizindəki neft-qaz yataqlarının istisması üçün atılan yeni addımlara təkan verib. Beləliklə də, Ulu Öndərin müəyyənləşdirdiyi yeni neft strategiyasının uğurlu nəticələri üç onillikdir keçirilən və adı dəyişsə də, mahiyyəti dəyişməyən neft-qaz sərgilərinin pavilyonlarında əks olunur.



Prezident İlham Əliyevin açılışında iştirak etdiyi sayca 28-ci sərgi Bakı Enerji Həftəsinin bir seqmenti olaraq Xəzər regionunun neft və qaz sənayesinin əsas tədbiri kimi "Bakı Ekspo" Mərkəzində işini davam etdirir. Həftə çərçivəsində keçirilən tədbirlərdə 37 ölkədən 326 şirkət təmsil olunub. Azərbaycanla yanaşı, Amerika Birləşmiş Ştatları, Almaniya, Avstriya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çin, Əlcəzair, Filippin, Finlandiya, Fransa, Gürcüstan, İspaniya, İsrail, İsveç, İsveçrə, İtaliya, Kanada, Küveyt, Qazaxıstan, Macarıstan, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya Federasiyası, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Tayland, Türkiyə, Vyetnam və Yaponiya iştirak edirlər. Bəri başdan onu da deyək ki, belə beynəlxalq tədbirin təşəbbüskarı olan Ulu Öndər Heydər Əliyevin şərəfinə "Bakı Ekspo" Mərkəzində xüsusi stend nümayiş olunur. Stend Ümummilli Liderin 100 illik yubileyinə həsr edilib.

"Bakı Enerji Həftəsi"ndə 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi və 28-ci Bakı Enerji Forumu keçirilir. Ənənəvi olaraq hər il keçirilən bu tədbir qlobal enerji təhlükəsizliyinin təmini, alternativ və bərpaolunan enerji potensialı, o cümlədən "yaşıl enerji" layihələrinin təşviqi sahəsində də əməkdaşlığın genişləndirilməsi, habelə enerji mənbələrinin şaxələndirilməsi istiqamətində müzakirələr üçün bir fürsətdir. Azərbaycanın həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən "Bakı Enerji Həftəsi"nin təşkilatçıları "Iteca Caspian" və "Caspian Event Oraganisers" və onların beynəlxalq tərəfdaşları - "İCA Events" və "CEM FZ LLC" şirkətləridir. Tədbirin baş sponsoru SOCAR, sponsorları isə AbuDhabi Port, ACWA Power, Ansaldo Energia, AZEL SYSTEMS, Azeri M-I Drilling Fluids, AZFEN, Baku Steel Company, bp, Caspian Drilling Company, Caspian Marine Services, Equinor, EP Absheron, Intertek, Global Energy Azerbaijan, GL, Inpex, KOLIN Construction, "Masdar", Tekfen, Total Energies, Turkish Petroleum, Uniper, Ural Steel şirkətləridir. Sponsorların geniş tərkibi də heç şübhəsiz, Bakı Enerji Həftəsinin nüfuzunu və yüksək statuslu olduğunu təsdiq edir. ABŞ Prezidenti Co Baydenin və Böyük Britaniyanın Baş naziri Sunakın təbrikləri isə bu tədbirin qlobal əhəmiyyətindən xəbər verir. Məhz bu baxımdan dünya ölkələrindən olan şirkətlərin, yüksəksəviyyəli qonaqların, dövlət xadimlərinin və beynəlxalq enerji ekspertlərinin Bakıya toplaşması təsadüfi deyil. Prezident İlham Əliyev sərginin açılışındakı çıxışında bu fakta diqqət çəkərək dedi: " Biz özümüzü enerji sahəsində nəhəng transformasiya prosesinin tərkib hissəsi hesab edirik. Azərbaycan çalışır ki, bu məsələdə geridə qalmasın, əslində, lider, aparıcı ölkə olsun. Burada söhbət yenilənən, bərpaolunan enerjidən gedir.



Mən çox şadam ki, yenilənən enerji ilə bağlı şirkətlər bu gün burada olduqca böyük çoxluq təşkil edir. Əminəm ki, illər keçdikcə bu şirkətlərin sayı artacaq. Yəni biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. "Cənub qaz dəhlizi" bizim birgə tarixi nailiyyətimizdir, 3500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və o, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır".

Sərginin pavilyonlarını gəzərkən diqqətimizi çəkən məqam Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR-ın ayrı-ayrı qurum və müəssisələrinin bugünkü uğurlarını və gələcək perspektivlərini geniş nümayiş etdirməsi oldu. Bundan əlavə, ölkəmizdə həyata keçirilən ən iri neft-qaz layihələrinin operatoru bp, qardaş Türkiyənin TPAO, Fransanın "Total", Azərbaycanda bərpaolunan enerji layihələrinin iştirakçısı Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Özbəkistanın "Uzbeknefteqaz" və dünyanın digər neft-qaz, nəqliyyat-logistika və təchizat sahələrində fəaliyyət göstərən onlarca firma və şirkətinin öz qabaqcıl təcrübə və nailiyyətlərini sərgidə nümayiş etdirməsi onlara verilmiş yüksək imkanın nəticəsidir.

Azərbaycanın uğurlu enerji siyasəti çox illərdir ki, ölkəmizin hüdudlarından kənara çıxıb. Sərgini beynəlxalq əməkdaşlıq meydanı kimi dəyərləndirən iştirakçılarla söhbətimizdə bunu aydın hiss etdik. Onlar belə bir mötəbər tədbirdə iştirak etdiklərindən məmnun olduqlarını söyləyərək xüsusi vurğuladılar ki, əməkdaşlığı genişləndirmək, yeni əlaqələr qurmaq gələcək uğurların qapısını açmağa kömək göstərəcək.

Bu baxımdan "Atilla" nəqliyyat xidmətləri şirkətinin kommersiya üzrə direktoru İbrahim İbrahimovun söylədikləri maraq kəsb edir:

- Bu sərgidə iştirak etməyimiz, əlbəttə, işimizin uğurlu nəticəsidir. Şirkətimiz ötən əsrin 90-cı illərinin sonlarında təsis edilib. 20 ildən çoxdur ki, neft-qaz sektorunda fəaliyyət göstərən şirkətlərə nəqliyyat xidmətləri göstəririk. 40-dan çox şirkət xidmətimizdən istifadə edir və bu günə kimi heç biri də narazı qalmayıb. Müştərilərimizə göstərdiyimiz nümunəvi xidmətlərə görə beş il əvvəl "İlin şirkəti" adına layiq görülmüşük. Bu mükafatın ən önəmli dəyəri onun doğma Azərbaycanımızda təsis olunmasıdır. 2015-ci ildə də Azərbaycanda həyata keçirilən iri neft-qaz layihələrinin operatoru bp şirkətinin elan etdiyi müsabiqənin qalibi olduq. Şirkətimiz hazırda sərnişindaşıma xidməti ilə yanaşı, avtomobil parklarının yenilənməsi, nəqliyyat vasitələrinin və ağır texnikaların icarəyə verilməsi, eləcə də sürücülərə təlim keçirilməsi sahələrində fəaliyyət göstərir. 2016-cı ildən bu mötəbər tədbirin iştirakçısıyıq. Yeddiillik təcrübəyə söykənərək deyə bilərəm ki, ötən dövrdə olduğu kimi, indi də təşkilatçılıq yüksək səviyyədədir. Burada öz uğurlarımızı nümayiş etdirməklə yanaşı, yeni şirkətlərlə də əməkdaşlıq imkanı qazanacağımıza ümidliyəm.

Növbəti həmsöhbətimiz Vladimir Şlimak "Caspian Drillinq Companu Ltd" şirkətinin baş direktorunun layihələr və mühəndislik işləri üzrə birinci müavinidir. O da sərgi ilə bağlı fikirlərini bizimlə bölüşdü:

- Qazma sahəsinin qabaqcıl şirkətlərindən olan "Caspian Drillinq Companu Ltd"nin 26 yaşı var. Şirkətimiz Xəzər dənizinin qazma sənayesində xüsusi uğurları ilə tanınır. Hazırda şirkətin əsas heyəti neft və qaz sənayesində 30-35 illik beynəlxalq təcrübəyə malik qazma, geologiya, mühəndislik, dənizçilik, elektrik və mexanika sahələri üzrə peşəkarlardan ibarətdir. Ötən müddətdə Xəzər dənizi regionunda qazma əməliyyatlarının yerinə yetrilməsi məqsədilə "Dədə Qorqud", "İstiqlal" və Heydər Əliyev adına qazma qurğuları şirkətimizin sərəncamına verilib. "Caspian Drillinq Companu Ltd"nin kəşfiyyat qazma əməliyyatları nəticəsində bir sıra yataqlar kəşf edilib. Onu da deyim ki, fəaliyyətimizi təkcə Xəzər dənizi ilə məhdudlaşdırmaq fikrində deyilik. Yaxın illərdə beynəlxalq neft və qaz layihələrində iştirak etməklə, özümüzü dünya miqyasında tanıtdırmağa çalışacağıq. Ötən müddətdə Türkiyə və İsraildə müəyyən kəşfiyyat qazması aparmışıq. Ona görə də bu sərgi bizim üçün çox gözəl fürsətdir. Burada öz uğurlarımızı sərgiləməklə yanaşı, digər iştirakçıların da işləri ilə tanış oluruq. Məhz bu yanaşma beynəlxalq əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb etməklə bərabər, həm də şirkətlərin bir-birini yaxından tanıması üçün yeni imkandır. Bir sözlə, sərgidə hər şey möhtəşəmdir. Onu da qeyd edim ki, bu gün Prezident İlham Əliyevin stendimizə yaxınlaşması, işimizlə maraqlanması və uğurlar arzulaması bizi daha da ruhlandırdı.



Diqqətimizi çəkən məqamlardan biri də sərgidə xeyli sayda ziyarətçinin olması idi. Sərgi ilə bağlı fikirlərini öyrəndiyimiz ziyarətçilər əsasən neft və qaz yataqlarının işlənməsi, quyularının qazılması, geofizika və geologiya, boruların çəkilməsi və boru kəmərinin təhlükəsizlik sistemlərinin təmir edilməsi, neft-qaz emalı və neft-kimya, karbohidrogenlərin daşınması, enerji sahəsində tikinti-quraşdırma işləri, neft və qaz anbar sistemlərinin təmin edilməsi ilə maraqlandıqlarını bildirdilər. "Azəriqaz" İB-nin əməkdaşı İlahə Eminova fikirlərini belə söylədi:

- Hər il təşkil olunan sərgiyə həvəslə gəlirəm. Bura mənim üçün çox maraqlıdır. Əsasən işimlə bağlı pavilyonlar diqqətimi cəlb edir. Mən təhlükəsizlik sahəsində baş mühəndisəm. Ekspozisiyalarda nümayiş olunan innovativ texnologiyalarla maraqlanıram. Daşıdığım vəzifə yeraltı anbarlara yığılan qazın təhlükəsizliyinin təmin olunması ilə birbaşa bağlıdır. Təhlükəsizliyin təmin olunması isə müasir texnikadan çox asılıdır. Mühafizə vasitələri olan əlcəkdən tutmuş dəbilqə və çəkmələrə qədər, eləcə də uniforma təhlükəsizlik qaydalarına uyğun olmalıdır. Hər dəfə ekspozisiyaları ziyarət edərkən məhz bu sahəyə aid kitabçalar götürüb təhlükəsizlik məsələlərində hansı yeniliklərin olduğunu öyrənməyə çalışıram.

Azərbaycan Milli Elmlər Akademiyasının akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun əməkdaşı, kimya elmləri doktoru İlqar Əyyubovla da söhbət etdik. Neft və qaz sərgilərinin hamısını ziyarət etdiyini dilə gətirən alim belə bir tədbirin Azərbaycan neftinə xidmət edən elmin inkişafında xeyli rol oynadığını xüsusi vurğuladı:

- SOCAR-la daimi əməkdaşlığımız imkan verir ki, perspektiv və alternativ yanacaq və yanacaq komponentlərinin alınmasında dünyada baş verən yenilikləri, ən müasir texnologiyaları öyrənək. Məhz bununla bağlı sərginin pavilyonlarında nümayiş etdirilən ekspozisiyalarda kimya elmindəki yenilikləri öyrənməyimiz gələcək uğurlara imza atmağımıza səbəb olacaq.

Sonda onu da öyrəndik ki, builki Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvan şəhərində də mühüm mövzuları əhatə edən sessiyalar keçiriləcək. Naxçıvandakı tədbirlər "Heydər Əliyev İli" kontekstində Ulu Öndərin 100 illik yubileyinə həsr olunacaq.

***Züleyxa ƏLİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# "Qarabağın və Şərqi Zəngəzurun bərpasında məhsullarımızın istifadəsindən qürur duyuruq"

## "Bakı Enerji Həftəsi"nin iştirakçısı olan Maqnitoqorsk metallurqları belə deyirlər

**"Azərbaycandakı dostlarımızla görüşdən çox məmnunuq. Bizi uzun illərdir sıx əməkdaşlıq əlaqələri birləşdirir. "Bakı Enerji Həftəsi" yeni layihələrimiz barədə məlumat vermək, fikir mübadiləsi aparmaq, növbəti planlar qurmaq üçün bir fürsət oldu." Bunu Maqnitoqorsk Metallurgiya Kombinatının (MMK) mütəxəssisləri söylədilər.**

MMK təkcə Çelyabinsk vilayətində və bütün Rusiya Federasiyasında deyil, Avropada da yaxşı tanınır. "Ömrünün" onuncu onilliyinə qədəm qoyan müəssisənin MDB ölkələrinə və uzaq xaricə göndərdiyi məhsullar hər yanda rəğbət qazanır. MMK uzun illərdir ölkəmizlə də səmərəli əməkdaşlıq edir.

Kombinatın satış üzrə aparıcı mütəxəssisi **Aleksandr Şaxtarin** bu barədə ürəkdolusu danışır:

- Hər ay Azərbaycana 10-20 min ton məhsul ixrac edirik. Məhsullarımız həm rulon, həm də təbəqə şəklində olur. Ölkənizdəki sifarişçilərimiz isə "Metak" şirkəti, Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Azərtexnolayn", mebel müəssisələridir. Azərbaycanla əlaqələrimizdə xüsusi qürur duyduğumuz bir məqam da var. Bu da odur ki, məhsullarımızdan Qarabağın və Şərqi Zəngəzurun tikinti-quruculuq və bərpa işlərində də istifadə olunur.



Kombinatın törəmə müəssisəsi olan "METİZ" də ölkəmizə xeyli adda məhsul ixrac edir, məsələn, dəmir-beton konstruksiyalar, pol kanatlar, armaturlar, pambıq kiplərini bağlamaq üçün məftil və s. "METİZ"in satış idarəsinin ixrac üzrə meneceri **Dilara Vlasenkova** deyir ki, hər ay zavodun Azərbaycana göndərdiyi məhsulun həcmi 500-1000 ton təşkil edir.

Dilara Azərbaycana ilk dəfədir gəldiyini, Bakıya, xüsusilə Dənizkənarı Milli Parka və şəhərin yeni tikililərinə heyran qaldığını da söylədi. Bir də yollarımızın çox rahat və gözəl, yəni keyfiyyətli olduğunu, ən müasir standartlara uyğun çəkildiyini qeyd etdi. "Bakı Enerji Həftəsi"nin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı və Prezident İlham Əliyevin bu tədbirə önəm verməsindən, açılışda şəxsən iştirak etməsindən bütün qonaqların məmnunluğunu bildirdi.

Aleksandr Şaxtarin də sərgilər və forum haqqında fikirlərini söylədi:

- Bütün stendlər mükəmməl tərtib olunub. Hər şirkət öz nailiyyətlərini və təkliflərini təqdim edir. Bu isə dərin tanışlığa imkan verir. Doğrudur, heç də hər tanışlıq müqavilə, sazişlə yekunlaşmır, lakin hansısa bir bəhrəni verir. Yeniliklərdən xəbər tutur, nəyi isə öyrənirik. Necə deyərlər, dünya gör-götür dünyasıdır. Ünsiyyətin, etimadın yaranması da kiçik məsələ deyil. Mən vəzifəmlə əlaqədar vaxtaşırı Bakıya gəlirəm. Hər dəfə də yeni gözəlliklərlə rastlaşıram. Dostlarla, həmkarlarla görüşürəm və bu, işimizin irəliləməsinə təkan verir.

Maqnitoqorsk Metallurgiya Kombinatı hazırda SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) əlaqələr qurmaq niyyətindədir. Deməli, əməkdaşlıq daha çox sahəni əhatə edərək getdikcə genişlənəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *Rövşən NƏCƏF:* "SOCAR neft və qaz hasilatına investisiyaları artırıb"



**"Enerji təhlükəsizliyi çox önəmlidir. Dayanıqlı enerji üçün proqramlarımızı nəzərə almalıyıq. SOCAR son zamanlar neft və qaz hasilatına investisiyaları artırıb". AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Bakı Enerji Forumunda deyib.**

Onun sözlərinə görə, yaxın onilliklərdə neft və qaz hasilatını dayandırmaq olmaz: "Biz neft ehtiyatlarının ekoloji təmiz çıxarılmasını, təmiz enerji istehsalı ideyasını dəstəkləyirik. Enerji qiymətlərinin artmasını, tərəfdaşlarımızın qaz və neft anbarlarının boşalmasını görməzdən gələ bilmərik. Keçid olaraq enerji şirkətləri ilə bunun üzərində işləməliyik. Şuşada da biz bp və "Masdar"la birlikdə bərpaolunan enerji mənbələri üzrə müqavilələr imzalamışıq. Biz kifayət qədər tərəfdaşlarla işləməkdə və layihələrin sayını artırmaqda qətiyyətliyik. Çalışıb iqlimimizi mühafizə etməli, sıfır emissiyaya nail olmalıyıq. Bunun üçün konstruktiv şəkildə və dataya əsaslanaraq analizlər aparmalıyıq. SOCAR enerji keçidi və dayanıqlı istehsal sahəsində beynəlxalq əməkdaşlığa açıqdır. Bu, Avropa İttifaqının və bütövlükdə regionun enerji təhlükəsizliyinin təmin edilməsi baxımından önəmlidir".

**Dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan əksər dövlətlərlə əlaqələrini inkişaf etdirməkdədir.**



# Azərbaycan və İsrail davamlı tərəqqi yolu ilə irəliləyirlər

## Prezident İsxak Hersoqun ölkəmizə səfəri münasibətlərin daha da gücləndirilməsinə müsbət impuls verdi

Tam müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan həmin dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşı hesab olunur. Azərbaycanın bir çox dövlətlə strateji tərəfdaşlq, səmimi dostluq-qardaşlıq münasibətləri mövcuddur.

Belə ölkələrdən biri də İsraildir. Bu ölkə ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. İsrail Prezidenti İsxak Hersoqun ölkəmizə səfəri isə İsrail-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verərək gələcək yaxın əməkdaşlıq üçün çox əlverişli imkanlar yaratmış oldu.

Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Elə prezidentlər arasında keçirilən görüşlərdə müzakirə edilən məsələlərə, dövlət başçılarının mətbuata verdikləri bəyanatlara istinadən deyə bilərik ki, bu səfər münasibətlərin daha da gücləndirilməsinə müsbət impuls verdi.

### Yəhudilər üçün Azərbaycan təhlükəsiz məkandır

Ümumiyyətlə, Azərbaycan və İsrail arasında qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri yalnız iqtisadi-strateji faydaya deyil, həm də ənənəvi tarixi, mədəni köklərə əsaslanır. İki ölkənin xalqları arasındakı əlaqələrin qədim tarixi var.

Azərbaycanda yəhudilərə həmişə yaxşı münasibət bəslənib və burada heç zaman antisemitizm halları olmayıb. Hər iki ölkəni yaxınlaşdıran daha bir amil isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş yüz minə yaxın yəhudinin yaşamasıdır. Buna görə də İsrail dövlətinin Azərbaycanla əməkdaşlıqda maraqlı olmasını təkcə bu ölkənin zəngin enerji resursları, strateji geosiyasi vəziyyəti, sırf iqtisadi-siyasi amillər ilə səciyyələndirmək düzgün deyil. İki ölkə arasında əməkdaşlıq tarixən mövcud olmuş, bu əlaqələrin kökündə insani dəyərlər, tolerantlıq, qarşılıqlı anlaşma olub.

İsrail Prezidenti İsxak Hersoqun söylədiyi kimi, yəhudilər üçün Azərbaycan təhlükəsiz məkandır, onlar burada inkişaf edib, öz mədəniyyətlərini qoruyub saxlayıblar. Yəhudilər yalnız öz icmaları çərçivəsində deyil, Azərbaycanın zəngin siyasi və mədəni mühitində də tərəqqi tapıblar. Əlbəttə ki, bu, kiçik məsələ deyil, çünki dinlərarası əməkdaşlıq və xalqlararası tolerantlıq, qarşılıqlı hörmət hər iki ölkənin üstünlük verdiyi dəyərdir. Ölkələrimiz arasındakı sıx əlaqələr yalnız qarşılıqlı marağa deyil, həm də ortaq dəyərlərə əsaslanır.

### 31 illik uğurlu diplomatik münasibətlər

25 dekabr 1991-ci il tarixdə İsrail Azərbaycanın müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik əlaqə isə 6 aprel 1992-ci ildə qurulub. 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir.

Bu il martın 29-da İsraildə Azərbaycan səfirliyi açılıb. Tədbirdə Azərbaycan və İsrailin xarici işlər nazirləri Ceyhun Bayramov və Eli Kohen, həmçinin hər iki ölkənin parlament, ictimaiyyət və incəsənət nümayəndələri iştirak ediblər. Nazir Ceyhun Bayramov səfirliyin açılışını iki ölkənin münasibətlərinin inkişafına yeni təkan verəcəyini bildirib. Diplomat Azərbaycan-İsrail əməkdaşlığının müxtəlif istiqamətlərindən danışıb və perspektiv imkanları qeyd edərək bildirib ki, Azərbaycanın yəhudi icması cəmiyyətimizin inkişafına öz töhfəsini verir. Nazir səfirliyin açılışından sonra İsraildəki Azərbaycan diasporunun fəaliyyətinin də aktivləşəcəyinə əmin olduğunu söyləyib.

Mərasimi tarixi hadisə adlandıran nazir Eli Kohen 30 illik əməkdaşlıq müddətində səfirliyin açılışının strateji əlaqələrin dərinliyindən xəbər verdiyini vurğulayıb. Azərbaycanı İsrailin strateji tərəfdaşı adlandıran nazir iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib. O, münasibətlərimizin bundan sonra daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

Prezident İsxak Hersoq isə mayın 30-da Bakıda Heydər Əliyev Mərkəzində İsrail Dövlətinin Müstəqillik Günü münasibətilə təşkil olunan rəsmi qəbulda bildirib ki, Azərbaycanın Təl-Əvivdə səfirliyinin açılması əlaqələrimizin yeni müstəvidə inkişafına kömək edəcək.

İlham Əliyev isə deyib ki, bu il İsraildə Azərbaycan səfirliyinin açılması əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Son illər İsrail-Azərbaycan münasibətlərinin daha da möhkəmlənməsi təsadüfi deyil. İsrail Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Hazırda bu ölkə neftə tələbatının 40 faizini Azərbaycandan idxal etməklə ödəyir. Bununla yanaşı, hərbi sahədə də sıx əməkdaşlıq əlaqələri var. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsində qələbənin qazanılmasına Azərbaycanın İsraildən aldığı hərbi məhsullar da öz töhfəsini verib. Hazırda Azərbaycan ilə İsrail arasında hərbi, kənd təsərrüfatı, energetika və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq inkişaf edir.

Təbii ki, İsrail Prezidentinin ölkəmizə rəsmi səfəri bu münasibətlərin daha da dərinləşməsinə kömək edəcək. Azərbaycana səfərə gələrkən bu ölkənin KİV-inə verdiyi qısa açıqlamasında Prezident İsxak Hersoq Cənubi Qafqazın lider dövləti ilə mövcud münasibətləri belə dəyərləndirib: "Azərbaycan regionun çox əhəmiyyətli ölkəsidir. Azərbaycan ilə qarşılıqlı əlaqələrin genişlənməsi tərəflər üçün olduqca faydalıdır. Azərbaycan eyni zamanda bizim üçün dost ölkədir və onunla əlaqələr xarici siyasətimizdə prioritet istiqamətdir. İsrail Azərbaycan ilə bir çox sahədə sıx əməkdaşlıq əlaqələrini davam etdirməkdə maraqlıdır".

Prezidentin fikrincə, İsrail və Azərbaycan rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında dostluq münasibətləri inkişaf edir, ikitərəfli strateji tərəfdaşlıq daha da dərinləşir.

### Prezident İsxak Hersoq: "Elə bir heyrətamiz ölkə yaratmısınız ki..."

Dövlət başçıları arasında keçirilən görüşdə isə İlham Əliyev bu səfərin iki ölkə arasındakı dostluq münasibətlərinin inkişafına böyük təkan verəcəyini söyləyərək, bu səfərdən sonra mövcud əlaqələrdə müsbət dinamikanın reallaşacağını vurğulayıb: "Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir". İlham Əliyev İsrail Prezidentinin Azərbaycana səfərini tarixi səfər adlandırıb.

Prezident İsxak Hersoq isə Azərbaycanın kənardan görünüşünü, sərgilədiyi mövqeyi və mövcud potensialını dəyərləndirib. Onun fikrincə, Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən İlham Əliyev elə bir heyrətamiz ölkə yaradıb ki, Azərbaycan həm də bir çox məsələnin mərkəzinə çevrilib. İsxak Hersoqun sözlərinə görə, İsraillə Azərbaycan arasında tərəfdaşlıq bir çox sahənin də təməl nöqtəsidir.

İsxak Hersoq həmçinin Azərbaycanın davamlı tərəqqi və inkişaf yolu ilə irəlilədiyini vurğulayıb.

Mayın 30-da prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı"nın imzalanması isə bu sahədəki əlaqələrin daha da dərinləşməsinə böyük töhfə vermiş olacaq.

### Azərbaycan dünyada və regionda böyük təsirə malik olan ölkədir

"Bəzi iqtisadi rəqəmlərə nəzər salarkən gördüm ki, ticarət dövriyyəmiz 1,7 milyard ABŞ dollarından çoxdur, bu da böyük məbləğdir. Lakin hesab edirəm ki, növbəti illərdə biz ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq və ümid edirəm ki, həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq".

Bu fikirləri isə İlham Əliyev prezidentlərin mətbuata bəyanatlarla çıxışı zamanı söyləyib. Dövlət başçısı deyib ki, buna baxmayaraq, uzun illərdir Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da, əslində, enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir.

Əlbəttə ki, iki ölkə arasında qarşılıqlı əlaqələrdən danışarkən müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı unutmaq olmaz. Azərbaycanın bu sahədə uzun illərdir ki, İsrailin müasir avadanlığına çıxışı var. Prezidentin dediyi kimi, bu da ölkəmizin müdafiə qabiliyyətini müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.

"Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır".

Bunu isə Prezident İsxak Hersoq mətbuata bəyanatında vurğulayıb ki, hər iki ölkənin ortaq baxışı var. O, Azərbaycanı dünyada və regionda böyük təsirə malik olan ölkə kimi dəyərləndirir.

İki dost ölkənin liderlərinin apardığı müzakirələr, imzalanan sənədlər onu deməyə əsas verir ki, ölkələrimiz arasında bir çox sahədə əməkdaşlıq yeni inkişaf mərhələsinə yüksəlir. Bu səfər münasibətlərin tərəqqisinə müsbət impuls verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-İsrail əməkdaşlığı yeni inkişaf mərhələsindədir

## Münasibətlərin dərinləşməsi regionda təhlükəsizliyin təmin olunmasına da mühüm töhfə verəcək

**İsrail Prezidenti İsxak Hersoqun ölkəmizə tarixi səfəri çərçivəsində keçirilən görüşlərdə iki ölkə arasında tərəfdaşlığın və əməkdaşlığın genişləndirilməsi kimi vacib məsələlər müzakirə edildi, mühüm sənədlər imzalandı. Bu, Azərbaycan-İsrail münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bir daha sübut etdi. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, İsrail ölkəmizin əsas tərəfdaşlarından biridir.**





### Müzakirələr əməkdaşlığımızı gücləndirir

Milli Məclisin deputatı, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Ceyhun Məmmədov bildirdi ki, İsrail Prezidentinin ölkəmizə səfəri mühüm əhəmiyyət kəsb edir: "Azərbaycan-İsrail münasibətləri, bu iki ölkə arasındakı əlaqələr hər zaman yüksək səviyyədə olub. Bu gün isə mövcud əlaqələr sürətlə inkişaf edir. Hesab edirəm, bu səfərdən sonra əməkdaşlığımız daha da genişlənəcək, dostluq münasibətimiz dərinləşəcək".

Deputat dedi ki, İsrail keçmiş Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini də hər zaman dəstəkləyib, Vətən müharibəsi dövründə Azərbaycanın yanında olub: "İsraildən alınan silahlar qələbəmizin təmin edilməsində mühüm rol oynayıb. Səfər çərçivəsində bir sıra vacib məsələlər ətrafında geniş müzakirələr aparılıb. Bu, tərəfdaşlığımızın gücləndirilməsinə, maraqlarımızın qarşılıqlı qorunmasına xidmət edir".

Ceyhun Məmmədov bildirdi ki, həm İsrail, həm də Azərbaycan regionun lider dövlətləridir. Odur ki, Azərbaycan-İsrail əməkdaşlığı regionumuzda təhlükəsizliyin təmin olunmasına xüsusi töhfə verə bilər.

### İsxak Hersoqun Bakıya rəsmi səfəri faydalılıq əmsalına görə qlobal xarakter daşıyır

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirdi ki, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycana rəsmi səfəri iki ölkənin münasibətlərində yeni mərhələdir: "Cənab Hersoq Bakıya səfər edən ilk yəhudi prezident olmasa da, münasibətlərin mövcud səviyyəsi və hazırkı geosiyasi situasiya bu səfərin önəmini artırır. Mətbuat üçün birgə bəyanatda Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, "Azərbaycanla İsrail arasında çox fəal siyasi dialoq var və bu səfər də ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir". Azərbaycanla İsrail arasında siyasi tərəfdaşlığın xarakterik xüsusiyyəti onda ehtiva olunur ki, bu müttəfiqlik yalnız qarşılıqlı hörmət və ehtiram ifadə edən mövqedən ibarət deyil".

Deputatın sözlərinə görə, bu tərəfdaşlıq konkret istiqamətlərdə ciddi geosiyasi nəticələrə yol açan dövriyyə ilə müşahidə olunur. Məsələn, Azərbaycanın da, İsrailin də məmnun qaldığı müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlıq bütövlükdə regionun təhlükəsizliyində ciddi rol oynayır. Cənab İlham Əliyev açıq formada bəyan etdi ki, "Azərbaycanın İsrailin müasir avadanlığına çıxışı bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır".

Bəhruz Məhərrəmov dedi ki, Vətən müharibəsinə qədər 30 il işğal və təcavüzə məruz qalan bir dövlət kimi, bu tərəfdaşlıq bizim üçün çox qiymətli idi. İsrail dövlətinə isti münasibət və qardaşlıq duyğularının kökündə dayanan elementlərdən biri də məhz dar günün dostluğudur.

Deputatın dediyinə görə, Azərbaycan-İsrail qardaşlığının kökündə yalnız hərbi-siyasi əməkdaşlıq dayanmır. Ölkəmizdə yaşayan yəhudilər yüz illərdir ki, cəmiyyətimizin ayrılmaz və qiymətli hissəsidirlər. Cənab İlham Əliyevin dediyi kimi, "yəhudi icmasının üzvləri - Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar". İsrail Prezidenti isə Bakıdan bəyan etdi ki, millətlərimiz arasındakı sevgi və bağlılıq dünyanı necə dəyişdirə və irəli gedə biləcəyimizin nümunəsidir.

Belə siyasi ritorika bütün sferalarda əməkdaşlıq üçün yaşıl işıqdır. Ölkələrimiz arasında əlaqələr isə yalnız müdafiə sənayesi ilə kifayətlənmir. Cənab Hersoqun bu səfəri məhz ikitərəfli gündəlikdə duran vacib məsələlərin daha geniş dairəsini müzakirə etmək üçün önəmli imkan oldu. Eyni zamanda İsraildə Azərbaycan səfirliyinin fəaliyyət göstərməsi əlaqələri daha yüksək səviyyəyə qaldıracaq. Əlbəttə ki, bu, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Deputat bildirdi ki, müzakirələrin konturları bəllidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, enerji sahəsində əməkdaşlığın genişləndirilməsi, investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri, habelə irriqasiya və kənd təsərrüfatı sahəsində əməkdaşlıq, təhsil, səhiyyə, ən nəhayət, müasir dövrün əsas çağırışı olan kibertəhlükəsizlik sahəsində əməkdaşlıq əsas istiqamətlərdir. Bakıda hər iki liderin ifadə etdiyi ali iradə bu sahədə əməkdaşlığın uğurunu öncədən təmin edir.

Bəhruz Məhərrəmov vurğuladı ki, Bakı ilə təmaslar İsraillə əməkdaşlığın birtərəfli xarakter daşıdığı qənaətini yaratmamalıdır: "İsrail Azərbaycanı qlobal oyunçu kimi qəbul edir. Cənab Hersoq Azərbaycan Prezidentinə xitabən açıq mətnlə ifadə etdi ki, "Siz atanızın yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib". Bu bərabərhüquqlu əməkdaşlıq ölkələrimizlə yanaşı, bütövlükdə Qafqaz və Yaxın Şərq üçün yeni imkanlar açır".

Deputatın dediyinə görə, Azərbaycan-İsrail əməkdaşlığı bu gün regionda terror və təcavüz təhdidinin qarşısında əsas əngəllərdən biridir. Bu mənada İsrail Prezidentinin Bakıya səfəri və təmasları, tərəflər arasında imzalanan sənədlər iki ölkənin siyasi iradəsini ifadə etsə də, faydalılıq əmsalı dəfələrlə geniş arealı əhatələdiyinə görə qlobal xarakterə malikdir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İsrail Prezidentinin Azərbaycana səfəri ikitərəfli münasibətləri yeni müstəviyə daşıyacaq

"Ulu Öndər Heydər Əliyevin banisi olduğu müasir müstəqil Azərbaycan dünya dövlətləri ilə münasibətlərini bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında qurur. Bu prinsiplər üzərində dövlətimizin xarici siyasəti uğurla inkişaf edir, beynəlxalq nüfuzu gündən-günə artır, mövqeləri möhkəmlənir. Azərbaycan balanslaşdırılmış xarici siyasət yürütməklə həm də dünyada sülhə və təhlükəsizliyə mühüm töhfələr verir. Bu istiqamətdə Azərbaycanın təcrübəsi nadir nümunə hesab olunur. Bu gün dünyada Azərbaycanla səmimi münasibətlər quran, səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə üstünlük verən dövlətlərdən biri də İsraildir. Əminliklə deyə bilərik ki, iki ölkə arasında münasibətlər hər zaman müsbət istiqamətdə inkişaf edib. İsrail daim Azərbaycanla həmrəy olub, istər 44 günlük Vətən müharibəsi dövründə, istərsə də Şərqi Zəngəzurun və Qarabağın bərpasında öz dəstəyini əsirgəməyib".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

"Vətən müharibəsindən sonra qazilərimizin müalicəsində israilli həkimlərin fədakarlığını xüsusi qeyd etmək lazımdır. İsraildən gələn həkimlər bütün əməliyyatları və sonrakı müalicələri təmənnasız həyata keçirdilər, 150-dən çox azərbaycanlı qaziyə şəfa verdilər. İqtisadi münasibətlərə gəldikdə bu sahədə də iki ölkə arasında dinamizm müşahidə olunur. Statistikaya əsasən, təkcə bu ilin ilk dörd ayı ərzində ticarət dövriyyəsi yarım milyard dolları keçib. Bu isə 2022-ci ilin eyni dövrü ilə müqayisədə 33,5 faiz artım deməkdir. Həmçinin İsrailin əsas neft tədarükçüsü olan Azərbaycan bu ölkənin neftə olan tələbatının 40 faizini ödəyir. Bu da, təbii ki, yüksək göstəricidir. Aqrar, enerji, turizm və sair sahələrdə də əməkdaşlıq xeyli yüksəkdir", - deyə AHİK sədri bildirib.

Onun sözlərinə görə, son illər Azərbaycanla İsrail arasında təşkil olunan qarşılıqlı səfərlər, ikitərəfli əlaqələrin bütün sahələrdə daha da genişləndirilməsi istiqamətində görülən işlər və həyata keçirilən layihələr, eləcə də ölkəmizin Təl-Əvivdə səfirliyinin açılması münasibətlərimizi yeni müstəviyə daşıyıb, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırıb. Mayın 30-da İsrail Prezidenti İsxak Hersoqun ölkəmizə rəsmi səfəri, Prezident İlham Əliyevlə keçirdiyi təkbətək və geniş tərkibdə görüşləri, səhiyyə sahəsində imzalanan sənəd iki ölkə arasında əməkdaşlığın yeni perspektivlərinin müəyyən edilməsi baxımdan son dərəcə önəmlidir. Dövlət başçıları mətbuata bəyanatla çıxışları zamanı da bu məsələyə toxundular. Xüsusən ticarət dövriyyəsinin şaxələndirilməsi, enerji sahəsinin genişləndirilməsi, kibertəhlükəsizlik sahəsində təcrübənin öyrənilməsi əməkdaşlığın gələcək inkişafında aktual olan mövzulardır. Həmçinin dövlətimizin başçısı müdafiə sənayesi sahəsində əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. Bildiyimiz kimi, Azərbaycan özü müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal edir. Bununla yanaşı, silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair bir sıra ölkələrlə, o cümlədən İsraillə əməkdaşlıq əlaqələri mövcuddur. Təbii ki, bu, ordumuzun zəruri silah, sursat və texnika ilə təchizi, müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması üçün əlavə imkanlar yaradır.

"Prezident İlham Əliyev çıxışında ölkəmizdə yaşayan yəhudi icmasının üzvlərinin dövlətimizin inkişafına verdiyi töhfələrdən də bəhs etdi. Uzun illərdir bu xalqın nümayəndələri Azərbaycanda sülh və dostluq şəraitində yaşayırlar, buranı özlərinə vətən bilirlər. Həm Birinci Qarabağ, həm də 44 günlük Vətən müharibəsində onlar öz qəhrəmanlıqları ilə yadda qaldılar. Həmçinin ölkəmizin hərtərəfli inkişafında yəhudi icması üzvlərinin xidmətləri danılmazdır. Yeri gəlmişkən, Azərbaycan-İsrail münasibətlərinin bu səviyyəyə yüksəlməsində həm ölkəmizdə olan yəhudi icmasının, həm də dost ölkədə yaşayan azərbaycanlıların böyük əməyi olub", - deyə Səttar Möhbalıyev vurğulayıb.

Milli Məclisin deputatı əlavə edib ki, İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana bu səfəri əlaqələrimizin dinamik inkişafına yeni təkan verəcək, iki ölkə arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək.

# "Görülən işdən gül qoxusu gəlir"

## Bu deyimi tərəddüd etmədən Laçında aparılan bərpa-quruculuq işlərinə aid etmək olar



**"Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".**

Mayın 28-da Prezident İlham Əliyevin Laçına səfəri zamanı səsləndirdiyi bu fikirlər Azərbaycan dövlətinin öz qətiyyətli mövqeyindən bir addım da geri çəkilmədiyini, bütün strateji hədəflərə doğru inamla irəlilədiyini göstərir.

1992-ci ildə işğal edilən Laçın faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında körpü rolunu oynayaraq coğrafi bağlantı yaratmışdı. Düşmən qüvvələr sonralar "Laçın dəhlizi" adlanacaq bu ərazi vasitəsilə öz məkrli planlarını yerinə yetirirdilər. Bu günsə Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş Laçında genişmiqyaslı tikinti, quruculuq və abadlıq işləri aparılır. Belə bir deyim var: "Görülən işdən gül qoxusu gələr". Bu gün həmin "qoxu"nu Laçında hər addımda hiss etmək mümkündür.

Ötən qısa müddətdə şəhərin böyük bir hissəsi tamamilə yenidən qurularaq laçınlıların ixtiyarına verilib. İlkin olaraq 20 ailə doğma yurdlarına dönüb. Bu köç birinci mərhələ adlanır ki, o da iyun ayının sonuna qədər davam edəcək. 4 minə yaxın insanın yaşayacağı Laçında indiyə kimi 700 bina inşa edilib. Onlardan 620-si fərdi yaşayış, 9-u çoxmənzilli binadır ki, orada da 764 ailə yaşaya biləcək. Amma bu da hələ tam proqram deyil. Şəhərin hazırlanmış baş planına əsasən, ikinci mərhələdə, yəni ilin sonunda Laçında daha çox insan yaşayacaq.

Məhz mayın 28-də - Müstəqillik Günündə keçmiş məcburi köçkünlərin yenidən qurulub bərpa olunmuş Laçına qayıdışı şəhərin perspektivlərinə hesablanmış addımdır. Laçın camaatı illərlə yurd-yuva həsrəti ilə yaşasalar da, dövlət öz diqqətini və hər cür dəstəyini heç vaxt onlardan əsirgəməyib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən davam etdirilib.

Bugünkü könüllü və təhlükəsiz şəraitdə doğma yurda dönüş dövlətin iqtisadi siyasətinin çox mühüm prioritetidir. Bu da o deməkdir ki, Böyük qayıdış icra olunur. Bunu Prezident laçınlılarla görüşündə də dilə gətirdi: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək".

Laçındakı quruculuq işlərinə daxil olan obyektlərdən biri də tibb məntəqəsidir. Yeni tibb ocağının inşası yekunlaşandan sonra müasir avadanlıqlarla təchiz ediləcək. Həmçinin yeni dərs ilində hazır olacaq orta məktəb binasının qapıları şagirdlərin üzünə açılacaq. Laçındakı məktəbin sinif otaqlarında yenidən məktəblilərin şən səsləri, şaqraq gülüşləri eşidiləcək. İstehsalat müəssisələri, deməli, potensial iş yerləri də unudulmur. Şəhərin bərpa-quruculuq işləri sırasında onlarca müəssisənin, o cümlədən aqro və sənaye parklarının yaradılması bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Parklarda 1100-dən çox iş yeri açılacaq və bu, kifayət edəcək ki, rayonda işsizlik problemi olmasın.

Prezidentin təbirincə desək, Laçın şəhəri yaxın zamanda dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Dövlət başçısı laçınlılarla görüşündə təsadüfən deməmişdir: "Azad edilmiş torpaqlarda yaradılmaqda olan bütün şəhər və kəndlərimiz təxminən bax, bu səviyyədədir. Dünən Kəlbəcər və Laçın rayonlarında yeni yaradılan və yaxın gələcəkdə istifadəyə veriləcək kəndlərin təməlqoyma mərasimlərində iştirak etmişəm. Yəni azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır. Bu, bir daha onu göstərir ki, biz - o torpaqların sahibləri - gəlmişik qurmaq üçün, yaratmaq üçün".

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*



# "İlham Əliyev yenə çox açıq mesajlar verdi, çox qorxulu vəziyyətdir"

## Azərbaycan Prezidentinin son bəyanatları Hayastanda təşvişi daha da artırdı

**Prezident İlham Əliyevin Laçında Hayastanla bağlı səsləndirdiyi fikirlər İrəvanda da xüsusi diqqət mərkəzindədir. Dövlət başçısının "... Uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlamenti" buraxmaq" mesajları erməni sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmadı.**

Xəbər portallarının rusdilli versiyalarında yayılan müsahibədən hissə-hissə açıqlamaların, videoçarxların təqdim olunaraq müzakirəyə çıxarılması məğlub ölkədə ictimai çaşqınlığın artıq xaosa çevrildiyini göstərir.

Siyasi ekspert Qraçiya Akopyan feysbuk sosial şəbəkəsində maraqlı paylaşımı ilə diqqət çəkib: "İlham Əliyevin Laçına səfərini, verdiyi mesajları internetdən izlədim. Bir daha əmin oldum ki, biz biabırcasına uduzmuşuq. Əgər erməni olmasaydım, Əliyevin hər dediyinə inanardım. O, həmişə olduğu kimi, bu dəfə də Laçından verdiyi mesajlara yaxşı hazırlaşmışdı, jestlərin dili savadlı seçilmişdi. Müharibədən sonra diplomatiya sahəsində də bizə yenə əks-zərbələr vurdu. Əliyev növbəti dəfə Laçından bəyan etdi ki, Qarabağ Azərbaycandır! Bizim rəhbərlik isə bu sahədə lazımlı biliklərə malik deyil və yarımçıq cavabları ilə özlərini gülməli vəziyyətə salır. Amma reallıq birdir: qələbə artıq Əliyevin tərəfindədir".

İnstaqram sosial şəbəkəsində Razmik Balasanyan adlı biri dörd yüz minlik bəyənməsi olan səhifədə Azərbaycan Prezidentinin Laçında çıxışının yer aldığı xəbərə rəy bildirib: "Fikir verin, Laçında İlham Əliyev tikilən evlərin açarlarını təqdim etdi. Yenə çox açıq mesajlar verdi, çox qorxulu vəziyyətdir. Paşinyan ancaq evdə lovğalanır, hakimiyyətini qorumaq üçün daxili etirazları yatırtmaqla məşğuldur. Əliyev sonuncu dəfə Moskvada Paşinyanı biabır etdi. Bugünkü Ermənistan ağlar durumdadır". (Qəzəb işarəsi)

Georgi Arustamyan adlı feysbuk istifadəçisi isə məkan olaraq Laçın şəhərini qeyd edərək vahimə dolu status paylaşıb: "Nə vaxta qədər belə davam edəcək? İlham Əliyevin Laçına qayıdışı yuxularımızı qaçırdıb, psixologiyamızı pozub. Müharibədə Azərbaycana uduzduğumuzu görmüşdük, indi isə daha betər günlərə düşmüşük. 15 ildən artıq yaşadığımız Laçını bir ildi tərk etmişik. Belə qorxu nəyə lazımdır?"

Poqos Avenesyan "VKontakte" sosial şəbəkəsində Prezident İlham Əliyevin açıqlamalarının yer aldığı xəbərin rəy bölümündə Paşinyanın şəklini paylaşaraq "Ermənistanı sizinlə daha parlaq gələcək gözləyir" şərhini verməsi çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Karen Melikyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: "İlham Əliyev bizim Paşinyanı informasiya müharibəsində də məğlub etməkdə davam edir. Müxtəlif sosial qruplarda "klaviatura qəhrəmanları" çoxsaylı statuslar və şərhlərlə bildirirlər ki, belə çıxış etməklə Nikolu Əliyev qarşısında çox aşağı səviyyəyə salırsınız. Vətənə xəyanət edirsiniz. Vətənə biz yox, Paşinyan və onu burada müdafiə edənlər xəyanət edirlər. Neyləməliyik? Ermənistan məhv olur, susmalıyıq?"

Levon İşxanyan adlı istifadəçi "Telegram" kanallarından birində Azərbaycan Prezidentinin Laçından paylaşılan videolarına yazdığı rəylə diqqət çəkib: "Ermənistan dağılır, Azərbaycan qarşısında hər gün daha çox məğlub duruma düşür, bəs bizim media orqanları niyə susur? İlham Əliyevin Laçına səfəri, verdiyi mesajlar bir erməni kimi məni çox üzdü. Heyf, hər il yay aylarında İrəvandan Laçına istirahətə gedirdik. Paşinyan isə öz kefindədir".

Baqrat Allahverdyan adlı daha bir feysbuk istifadəçisi İlham Əliyevin səsləndirdiyi fikirlərin yer aldığı xəbərə münasibət bildirib. İrəvan Dövlət Tibb Universitetinin tələbəsi olduğunu qeyd edən istifadəçi rəyində yazır: "Ötən zaman göstərir ki, təəssüflər olsun Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır. Düşmən ölkənin rəhbərinin açıqlamaları bir erməni gənci olaraq məni çox narahat etdi. Görəsən bundan sonra Paşinyan Əliyevə hansı üzlə cavab verəcək? Yəqin ki, bundan sonra da cavab verə bilməyəcək".

Bu statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Laçına sonuncu səfərindən, orada səsləndirdiyi fikirlərdən şok yaşayan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Laçınlıların cənnətməkan yurdlarına qayıdışına start verildi

31 illik ayrılıqdan sonra nəhayət ki, laçınlıların bir qrupu doğma yurdlarına, isti ocaqlarına döndülər. Ölümün pəncəsindən canlarını zorla götürüb qaçanlar, təlaş, qorxu, gözyaşlarında boğularaq Laçını tərk edənlər sevinərək, gülərək, arzuların qanadında uça-uça Laçına qayıtdılar. İllər idi ki, Laçın yuvasında vandallar məskən salmışdılar. İndi isə xilaskarını görüb qürurlanan, doğma övladlarının ətrini alıb ana məhəbbəti ilə qarşılayan Laçında Müstəqillik Günü ikiqat bayram yaşanırdı.

Həmin gün Laçın cənnət qoxuyurdu. Həmin gün yer də, göy də, Laçının gurultu ilə axan çayları da, yaşıl ormanları da xilaskarına baxıb "Qarabağ Azərbaycandır!" hayqırırdı. Bundan sonra başı buludlara söykənən Laçın dağlarında erməni dığaları yox, doğma sakinləri, Şərqi Qafqaz turları gəzəcək, zirvələrə şahin quşları qonacaq. Elə Prezident İlham Əliyevin iştirakı ilə Qətərdən xüsusi olaraq gətirilmiş adı "Qırmızı kitab"a düşən şahin quşlarının, turların canlı təbiətə buraxılmasının da rəmzi mənası var idi. Təkcə şəhərlərimizi, kəndlərimizi, dağılan evlərimizi yox, təbiətimizin bioloji müxtəlifliyini də bərpa edirik. Laçında həyata keçirilən layihələr, görülən işlər Azərbaycan dövlətinin gücünün, qüdrətinin rəmzidir.

Ötən ilin avqust ayında Müzəffər Ali Baş Komandan ilk dəfə Laçın şəhərində Azərbaycan bayrağını ucaldanda biz başqa mənzərənin şahidi olmuşduq. Gözlərimiz önündə ermənilər tərəfindən dağıdılıb viran qoyulmuş, həsrətdən yanıb külə dönmüş bir Laçın vardı. Bu gün isə böyük hissəsi tamamilə yenidən qurulmuş bir cənnətməkana tamaşa etməkdəyik. Artıq 20 ailə öz doğma ocağının başındadır. İyunun sonuna qədər də köç davam edəcək. Tezliklə təkcə Laçın şəhərində yox, Zabux və Sus kəndlərində də vətəndaşlarımız onların yolunu gözləyən evlərin işıqlarını yandıracaqlar. Xatırladaq ki, bütövlükdə qısa müddət ərzində Laçında 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9-u çoxmənzilli binadır. Yeni inşa olunan binalarda artıq 144 mənzil hazırdır ki, onlar da öz sakinlərini gözləyir. Yaxın zamanlarda təkcə Laçın şəhərində 764 ailə rahatlıqla yaşaya biləcək. Eyni zamanda şəhərdə infrastruktur sürətlə bərpa olunur. Hazırda tibb məntəqəsində son tamamlama işləri gedir. Yeni dərs ilində laçınlı şagirdlər dərslərini hər cür şəraiti olan məktəblərində keçəcəklər. Doğma torpaqlarına qayıdan vətəndaşların iş ilə təmin olunması üçün də ciddi işlər görülməkdədir. Bir sözlə, Laçında laçınlıların rahat yaşamaları və işləmələri üçün hər cür şərait yaradılır. 1100-dən çox laçınlının əmək məşğulluğunu təmin edəcək aqro və sənaye parkları yaradılmaqdadır. Təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərin tikintisinə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi nəzərdə tutulub. Eyni zamanda şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin



yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Mayın 28-də Laçında səfərdə olan dövlət başçısı Laçına qayıdan ailələrin evlərinin açarlarını təqdim edərkən demişdir: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün, bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Laçının gözəl, xoşbəxt günləri hələ qabaqdadır. Xatırladaq ki, şəhərin baş planı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb.

Şirkətin həmtəsisçisi və tərəfdaşı Dunya Kovari-Binggeli şəhərin baş planını dövlətimizin başçısına təqdim edərkən bildirdi ki, Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir ki, buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, "yaşıl enerji" mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

İndi Laçında ulduz kimi parlayan işıqlar yanır. Laçınlılar onları öz yurdlarına əbədi olaraq qaytaran xilaskar Prezidentə əbədi olaraq minnətdar olacaqlarını bildirirlər.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# Azərbaycan Ordusunda keçirilən təlim-metodiki toplanış başa çatıb

**Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Əməliyyat (Komando), motoatıcı, mexanikləşdirilmiş bölmələrinin komandirləri və onların müavinləri ilə Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlim-metodiki toplanış başa çatıb.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti iyunun 1-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə gələrək təlim-metodiki toplanış ilə bağlı rəhbər heyətin məruzələrini dinləyiblər.

Bildirilib ki, komandir heyəti ilə müasir döyüşdə taktiki fəaliyyətlərin hazırlanması və aparılması, hərtərəfli təminatın təşkili, müxtəlif ərazi və hava şəraitində bölmələrin və atəşin idarə edilməsi, eləcə də digər mövzularda yeni biliklərin aşılanması məqsədilə metodiki məşğələlər keçirilib.

Təlim metodiki toplanışın gedişatını müsbət qiymətləndirən general-polkovnik Z.Həsənov toplanışın yekununda şəxsi heyət qarşısında çıxış edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə çıxışında Qarabağ iqtisadi rayonunda qeyri-qanuni fəaliyyət göstərən, özlərini "parlament", "prezident", "nazir", "deputat" adlandıran ünsürlər barədə səsləndirdiyi fikirləri və onlara tətbiq oluna biləcək amnistiya şərtlərini bir daha toplanış iştirakçılarının diqqətinə çatdırıb.

Müzəffər Ali Baş Komandanın Qarabağ iqtisadi zonasında təhlükəsizliyin təmin olunması ilə bağlı çıxışlarından irəli gələn, Azərbaycan Ordusunun qarşısında duran tapşırıqların qısa zamanda yerinə yetirilməsinin zəruriliyi qeyd edilib.

Dövlət başçısının Azərbaycan Ordusuna yüksək diqqət və qayğı göstərdiyini vurğulayan müdafiə naziri bildirib ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizlik tədbirlərinin daha da artırılması üçün 1 milyard 105 milyon manat, o cümlədən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər üçün 1 milyard manat əlavə edilməsi orduda aparılan islahatlar çərçivəsində yeni müasir silah və hərbi texnikanın alınmasına imkan verəcək.

Sonra Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti təhlil edilib.

Son vaxtlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi daşımaları həyata keçirməsi, bölmələrimizin mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərməsi, eləcə də Ağdam, Tərtər və digər rayon istiqamətlərində ordumuzun mövqelərini atəşə tutması nəticəsində yarana biləcək gərginlik xüsusi vurğulanıb.

Müdafiə naziri qeyri-qanuni erməni silahlı birləşmələrinin fəaliyyətlərinin fasiləsiz müşahidəsinin bundan sonra da davam etdirilməsi, eləcə də törədilə biləcək istənilən təxribatın qarşısının dərhal və qətiyyətlə alınmasına daim hazır olmaq barədə konkret tapşırıqlar verib.

Nazir həmçinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən döyüş hazırlığı tədbirlərində müasir döyüş üsulları, arsenala yeni daxil edilən silah və hərbi texnikanın effektiv tətbiqi qaydalarının şəxsi heyətə öyrədilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z.Həsənov xidməti-döyüş fəaliyyəti zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməsini, bu qaydaların müntəzəm olaraq şəxsi heyətə çatdırılmasını, həmçinin onlara riayət olunmasına daim nəzarət edilməsini tapşırıb.

Sonda qoşun xidmətinin təşkili, xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, həmçinin mühəndis və tibbi təminat üzrə zəruri tədbirlərin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Ordumuzun mövqeləri atəşə tutulub

**İyunun 1-i saat 09:10-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Əsrik Cırdaxan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, saat 10:00 radələrində isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında mühəndis texnikası cəlb etməklə Şuşa və Xocavənd rayonları istiqamətində döyüş mövqelərinə təminat yolunun çəkilməsi məqsədilə torpaq yolda genişləndirmə və təmir-bərpa işləri görməyə cəhd ediblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# May ayı ərzində dövlət sərhədini pozduqlarına görə 48 nəfər saxlanılıb





**Dövlət Sərhəd Xidməti (DSX) bu ilin may ayında dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirib.**

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 48 nəfər saxlanılıb, onlardan 21 nəfəri Azərbaycan, 8-i Nepal, 7-si Hindistan, 4-ü Pakistan, 2-si Türkiyə, 1-i Əfqanıstan, 1-i Əlcəzair, 1-i Qana, 1-i Özbəkistan və 2-si Ermənistan vətəndaşları olub. Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 24 nəfər saxta tarix möhürləri və saxtalaşdırılmış pasportla dövlət sərhədini keçməyə cəhd göstərib.

Sərhəd rejim qaydalarını pozduqlarına görə, 920 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 286 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olunan 449 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olunan 19 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində 118 kiloqram 383 qram narkotik vasitə və 1180 psixotrop həb aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri 612 min 36 manat olan qaçaq mal, o cümlədən narkotik vasitə, mobil telefonlar və tütün məmulatları saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

Jurnalist araşdırması

# Sərnişin də narazıdır, sürücü də...

## Taksi fəaliyyətinə nəzarətin olmaması bu sahədə problemləri getdikcə artırır

**Son zamanlar Bakıda taksi fəaliyyəti ilə bağlı narazılıqların sayı-hesabı yoxdur. Məsələ burasındadır ki, iki tərəf də narazı olduğundan kimin haqlı, kimin haqsız olduğu da mübahisələr yaradır. Sürücülər gediş haqqının azlığından, sərnişinlər isə sürücülərin həm davranışlarından, həm nağdsız ödəmələrlə bağlı üzləşdikləri problemlərdən, həm də şirkətlər tərəfindən gedişin təxirə salındığı zaman onlardan tutulan 18 faiz məbləğdən şikayətlənirlər.**




Bu iki tərəfdən başqa son vaxtlar üçüncü narazı qüvvə də ortaya çıxıb. Onlar digər avtomobil istifadəçiləri, xüsusilə də Toyota "Prius" markalı maşınlarla taksi fəaliyyəti ilə məşğul olanlardan gileylənirlər. Bu sürücülər qəza vəziyyəti yaratdığından, yollarda sıxlığa səbəb olduqlarından onlara qarşı narazılıqlar yaranıb.

Bundan başqa, paytaxtda taksilərin sayının həddən artıq çox olması ilə bağlı da fikirlər mövcuddur. Dəqiq rəqəm bilinməsə də, şəhərdə 30 mindən çox taksinin fəaliyyət göstərdiyi deyilir ki, bunlara da nəzarət edən konkret qurum yoxdur, həmçinin taksi fəaliyyətlərini tənzimləyəcək mexanizm də mövcud deyil. Son illər Bakıda tıxacların artmasını taksilərin sayının çoxluğu ilə əlaqələndirənlər də var.

Təəssüf doğuran isə taksi şirkətləri ilə bağlı hər hansı problemlə üzləşəndə dərdini deyəcək ünvanın da olmamasıdır. Çünki ölkəmizdə fəaliyyət göstərən müxtəlif aqreqator şirkətlərin bununla bağlı hər hansı xidməti mövcud deyil.

Digər tərəfdən də yaşından, fiziki, psixoloji durumundan asılı olmayaraq, hər kəsin taksi fəaliyyəti ilə məşğul olması da problemlərin ortaya çıxmasına gətirib çıxarır. Bu, inkaredilməzdir ki, sürücülər insan həyatı üçün məsuliyyət daşıyırlar. Amma görünən odur ki, əksər sürücülər nəinki bunu anlamır, hətta bütün problemlərin səbəbkarı kimi sərnişinləri görürlər.

Xidmətdən istifadə üçün nağdsız ödənişlər zamanı əksəriyyətin rastlaşdığı qeyri-etik davranışların isə sayı-hesabı yoxdur. Bu baxımdan sürücülərin işə qəbulu zamanı onların psixoloji durumunun öyrənilməsi, sağlamlıq prosedurundan keçməsi vacib şərt olmalıdır. Amma işə qəbul etdiyi işçinin üzünü belə görməyən şirkətlərin təmsilçiləri onların psixoloji vəziyyətindən necə xəbərdar ola bilər...

Bəs problemlərin həlli yolları nələrdir? Bunun üçün hansı mexanizmlər tətbiq olunmalıdır ki, həm sürücülər, həm də sərnişinlər xidmətin qiymətindən və keyfiyyətindən məmnun olsunlar?

### Taksi şirkətlərinin fəaliyyətinə nəzarət olmalıdır

Nəqliyyat eksperti Ərşad Hüseynov bu mövzu ilə bağlı qəzetimizə açıqlamasında deyib ki, taksi fəaliyyəti ilə bağlı yaranan problemlərin çox ciddi səbəbləri var. Birinci səbəb qüvvədə olan qanunvericiliklə bağlıdır. Belə ki, mövcud nəqliyyat qanunvericiliyimiz yalnız ənənəvi taksilərin fəaliyyətini tənzimləyir. Yeni yaranan, xüsusi proqram təminatı üzərindən xidmət göstərən, "SMS"-lə sifariş olunan taksi xidmətləri qanunla tənzimlənmir.

Ekspertin sözlərinə görə, qanunvericilikdə aqreqator anlayışı, onların hansı tələblərə uyğunluğu, iş prinsipləri barədə heç bir müddəa yoxdur: "Aqreqatorların statusu, onların iş prinsipləri, qaydaları, sürücülərin işə cəlb edilmə tələbləri, taksi fəaliyyətinə nəzarət, şirkətlərin hüquqi məsuliyyəti qanunvericilikdə təsbitini tapmalıdır. Ən ciddi problem budur. İlk növbədə bu istiqamətdə işlər görülməlidir".

Ə.Hüseynov bildirdi ki, Azərbaycanda aqreqatorların, ümumiyyətlə, taksi fəaliyyəti ilə məşğul olan şəxslərin fəaliyyətinə nəzarət yoxdur. Bunun vacibliyini qeyd edən ekspert əlavə edib ki, taksi şirkətləri çox olmalı, bazarda şəffaf, açıq rəqabət yaranmalıdır ki, keyfiyyətli xidmət göstərilsin. Taksi fəaliyyəti sahəsində Dövlət Vergi Xidmətinin xüsusi nəzarət sisteminin tətbiqi də vacib məsələlərdəndir.

Ekspertin fikrincə, taksi şirkətlərinin fəaliyyəti üzərində qanunvericiliyin tələblərinə uyğun nəzarət qurulmalı və bunu Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) həyata keçirməlidir. "Bunun üçün xüsusi proqram işləyib hazırlanmalıdır. Həmin təcrübə dünya ölkələrində var, maraqlı və faydalı sistem mövcuddur. Bu platforma üzərindən fəaliyyət göstərən bütün aqreqatorlar sistemə inteqrasiya olunurlar. Burada işə cəlb olunan sürücülərin tələblərə cavab veribvermədiyi, tibbi yoxlamadan keçməsi, avtomobilinin uyğunluğu, sığortası, neçə saat müddətində xidmətdə qaldığı hamısı görünür", - deyə o əlavə edib.

Ə.Hüseynov deyib ki, taksi fəaliyyətindəki problemlərdən biri də xidmətdə məsuliyyət məsələsidir. Onun sözlərinə görə, yalnız sürücülərin deyil, şirkətlərin də məsuliyyəti olmalıdır: "Tələblərə uyğun olmayan sürücülər işə götürüldükdə isə dövlət orqanı tərəfindən həmin şirkətlərə sanksiyalar tətbiq olunmalıdır. Məsuliyyət tədbirləri görülərsə, taksi fəaliyyəti bazarı qaydasına düşər".

Taksi fəaliyyətində köklü islahatlar aparmaq üçün ona paralel olaraq ictimai nəqliyyatın da inkişaf etdirilməsinin vacibliyini vurğulayan ekspert Bakıdakı taksilərin demək olar ki, 90 faizinin ictimai nəqliyyatın işini gördüyünü qeyd edib.

Onun fikrincə, taksi sürücülərinin yalnız 10 faizi dünyanın hər yerində olduğu kimi, mədəni, kifayət qədər komfortlu xidmət göstərənlərdir. Mükəmməl ictimai nəqliyyatı olan ölkələrdə məhz belə taksi xidmətinin mövcud olduğunu deyən Ə.Hüseynov ictimai nəqliyyatda vəziyyət yaxşı olduğu halda taksi fəaliyyəti ilə peşəkarların məşğul olacağını deyib. "Taksi fəaliyyəti ilə bağlı problemləri həll etmək asan məsələ deyil. Bunun üçün ictimai nəqliyyatdan başlamaq lazımdır", - deyə ekspert əlavə edib.

### İşlək mexanizmin yaradılması vacibdir

İqtisadçı ekspert Eldəniz Əmirov bildirib ki, ölkədə taksi xidmətləri rəqabətin ən çox olduğu sahələrdən birincisidir. Onun sözlərinə görə, iqtisadiyyatın istənilən sahəsinin inkişaf etməsi üçün ən vacib şərt rəqabətdir. Rəqabət olmayan yerdə inkişaf da yoxdur. Taksi fəaliyyətində hər hansı qadağanın, məhdudlaşma tədbirinin tətbiqinin tərəfdarı olmayan ekspert deyir: "Taksi fəaliyyəti sahəsində problemlər var. Bu, keyfiyyətlə bağlı məsələdir. Keyfiyyəti həm təhlükəsizlikdə, həm müştərilərlə davranışda, həm də xidmətin digər parametrlərində görürük. Təbii ki, bunu da bazar tənzimləyir. Qiymət bu qədər aşağı olduğu halda yüksək keyfiyyətdən danışmaq mümkün deyil".

E.Əmirov deyir ki, minimal qiymətlərlə sərnişin daşımağa və bir reys üçün bir manat, bəzən 50 qəpik qazanca razı olan sürücüdən hər hansı yüksək xidmət gözləməyə dəyməz. O hesab edir ki, daha ucuz və ya bahalı taksi xidmətindən istifadə seçimi sərnişinlərə məxsusdur. "Müəyyən özbaşınalıqlar var. Əsasən də son vaxtlar taksi sürücülərinin xanımlara qarşı artan qeyri-etik davranışlarını birmənalı olaraq pisləyirəm. Onlara qarşı ən sərt cəzanın görülməsinin tərəfdarıyam. Problemlərin aradan qaldırılması istiqamətində konkret addımlar atılmalı, işlək mexanizm olmalı və nəzarət ciddiləşdirilməlidir".

### Taksi fəaliyyəti ilə bağlı qanunvericilikdə dəyişiklik ediləcək

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev taksi fəaliyyətindəki problemlərlə bağlı mətbuata açıqlamasında qeyd edib ki, bu xidmət sahəsində çatışmazlıqlar mövcuddur və tənzimləmədə boşluqlar var. Statistikaya əsasən, ölkəmizdə xidmət göstərən taksilərin 40 faizindən çoxunun yaşı 15-dən yuxarı, 20 faizindən çoxunun yaşı isə 20-dən çoxdur. Bu, ölkəmiz üçün istər ekoloji tələblərin pozulması, istərsə də təhlükəsizlik baxımından qəbulolunmaz risklərdir.

Rəşad Nəbiyev qeyd edib ki, nazirlik tərəfindən şəhər mobilliyi planı hazırlanır və bu planda bütün məsələlər öz əksini tapacaq. Plan çərçivəsində şəhər mobilliyi, yəni nəqliyyat infrastrukturunun tikintisi, nəqliyyat vasitələrinin istismara verilməsi, eləcə də yol hərəkətinin təşkili haqqında qərarların böyük təhlil və elmi əsaslandırma əsasında verilməsi nəzərdə tutulub. Belə ki, müxtəlif mənbələrdən əldə edilən məlumatlar əsasında özündə Bakı şəhərinin bütün yollarını, ictimai iaşə obyektlərini, təhsil, səhiyyə ocaqlarını əks etdirən şəhərin "rəqəmsal əkiz"i yaradılır. Bu proqram təminatı əhalinin gündəlik axınını müşahidə etməyə, nəqliyyata olan tələbin hesablanmasına imkan yaradacaq. Beləliklə, bu alət nəqliyyatla bağlı veriləcək istənilən qərarın təsirini öncədən proqnozlaşdırmağa kömək edəcək.

Taksi xidmətində keyfiyyətin yüksəldilməsi və mövcud qanunvericilik bazasının günümüzün tələbinə uyğunlaşdırılması məqsədilə artıq bir müddətdir ki, mühüm islahatların planlaşdırılmasının aparıldığını deyən nazir əlavə edib ki, yaxın zamanda qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi gözlənilir. Dəyişikliklər bu sahəyə dövlət nəzarətini həyata keçirməyə imkan verəcək, vətəndaşlarımız üçün keyfiyyətli taksi xidmətlərinin təqdim olunmasına, sürücülərin isə layiqli iş şəraiti ilə təmin olunmasına gətirib çıxaracaq. Bu dəyişikliklər qəbul edildikdən sonra qlobal şirkətlərin ölkə qanunlarına riayət etməsini təmin etmək üçün müvafiq alətlər formalaşacaq.

Nazirin sözlərinə görə, Azərbaycan bu şirkətlərin tənzimlənməsini həyata keçirən ilk ölkə deyil. Sifarişli taksi xidmətləri və ya "raydşeyrinq" xidməti yeni biznes modeli olduğundan heç bir ölkənin qanunvericiliyində öz əksini tapmamışdır: "Zaman keçdikcə tənzimləyici qurumlar biznesi öyrənməyə və müvafiq tənzimləmə alətlərini qanunvericiliyə daxil etməyə başladılar. Bəzi ölkələr tənzimləmədə yumşaq yanaşma tətbiq etsə də, digərləri sərt yanaşmaya üstünlük verdi. Hətta beynəlxalq praktikada, o cümlədən qabaqcıl ölkələrdə, yerli qanunları pozan şirkətlərin lisenziyasının məhdudlaşdırılmasının da dəfələrlə şahidi olmuşuq.

Deyilənlər də göstərir ki, taksi fəaliyyəti sahəsində nəzarətin, işlək mexanizmin olmaması keyfiyyətsiz xidmətlə nəticələnir. Eyni zamanda boşluqlardan istifadə edən xarici şirkətlər bazara girərək istədikləri kimi davranır, vergi ödəmir, heç bir tələb qoymadan kimi gəldi sürücü kimi işə götürür və az pul qarşılığında işçiləri bir növ istismar edirlər. Qazancı az olan taksi sürücüsü də xidmətin keyfiyyətinin, müştəri məmnuniyyətinin marağında olmur. Amma bu da sürücülərin heç bir halda qeyri-etik davranışlar sərgiləmələrinə əsas vermir.

Beləliklə, həm sürücü, həm də sərnişinlərin razı qalacağı xidmətin təşkili üçün bu sahəyə vahid nəzarətin olması qaçılmazdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 15 dekabr (Bazar günü) tarixli 65-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 10 rəbiüləvvəl sənə 1337.
15 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Azərbaycan Məclisi-Məbusanı (Parlaman) Heyətirəyasəsi [Rəyasət heyəti] tərəfindən Məclisi-Məbusan iclasının bazar günü, 15 kanunıəvvəl (dekabr) gündüz saat 12-də olacağı elan olunur.

*b/25*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Hökuməti qətnaməsinin 3-cü maddəsinə əməl etmək düsturüləməli [təlimatnaməsi]**

**7 kanuniəvvəl 1334**

§1. Azərbaycan Kazyonnı Palatası dairəsində[n] kənarda olan hamı səhmdar müəssisə idarələri hesab verməyə borclu olmayan müəssisələrdən ötrü qoyulmuş olan vergi qərarı ilə 1918-ci ildə əlavə vergi verəcəkdirlər.

§2. Keçən maddədə göstərilən müəssisələrdən hər biri öz olduğu yerində 1919-cu il yanvarın 1-dən gec olmamaq şərti ilə 1914-cü ildə verilmiş olan vergi qanunlarının 543-cü maddəsi mövcibincə [əsasında] uçastok mədən vergi idarələrinə bəyanat verməlidirlər.

Qeyd 1. 2-ci maddədə göstərilən blankaları, Azərbaycan Kazyonnı Palatasından, xəzinələrdən və vergi müdirlərindən məccani [pulsuz] almaq olar.

Qeyd 2. Müəssisələrinin vəsati [orta hesabla] olmayıb haqiqi mənfəətinə görə vergi qoyulmasını xahiş edənlər, bəyanat verdikləri zaman, uçastok vergi idarələrinə öz ticarət kitablarını və ya mənfəətləri, zərərləri notarius tərəfindən təsdiq edilmiş bir halda təqdim etməlidir. Ticarət kitabları təqdim etmək zamanı göstərilməlidir.

§3. Bir vergi idarəsi dairəsində bir neçə müəssisəyə malik olanların istidasına [xahişinə] görə, uçastok vergi idarələrinə hamı müəssisələrdən bir vergi alınması vagüzar edilir [tapşırılır]. Ayrı-ayrı vergi uçastokları dairəsində lakin bir şəhərdə və ya uyezddə bir neçə müəssisəyə malik olanlar 1919-cu il yanvarın 1-inə qədər müəssisənin hesab və kitabına baxılan vergi uçastokuna haqiqi mənfəəti üzərinə faiz vergisi qoyulmasını xəbər verməlidirlər.

Qeyd: Bu istidalar uçastok vergi idarələri tərəfindən baxılıb müzakirə edildikdən sonra nəticəsilə bərabər bilataxir [təxirə salınmadan] icazə almaqdan ötrü Azərbaycan Kazyonnı Palatasına təqdim edilməlidir.

§4. 2-ci maddədə göstərilən tələbatı təqdim etməyən müəssisələr haqqındakı məlumat, vergi nəzarətində olan məmurlar tərəfindən cəm edilir.

§5. Uçastok mədən vergisi idarəsi, müəssisə sahibləri tərəfindən verilən bəyanata baxana qədər həmin idarə sədri tərəfindən təftiş edilir. Buna görə də idarə sədri 1914-cü ildə nəşr edilən vergi qanunlarının 547-ci maddəsindən istifadə edir.

Qeyd: Faiz vergisi alınmaq üçün haqiqi mənfəəti müəyyən etməkdən ötrü ticarət kitablarını və ya notarius tərəfindən təsdiq edilən vərəqələri təqdim edən müəssisələrin lazımi təqdiqatı uçastok mədən vergisi idarə sədrinin təhqiq edilməsi ilə haqiqi mənfəəti məlum olur.

§6. Hər bir müəssisənin 1917-ci ilinin bəyanatı təftiş və müamilatı [əməliyyatları] təhqiq edildikdə, vergi idarəsi faiz vergisi alınmaq üçün həmin müəssisənin mənfəətini müəyyən edib, 1919-cu il şubat (fevral) ayının 15-dən gec olmamaq şərti ilə müəssisə sahiblərinə vergi vərəqələri (oklodnoy list) göndərir.

§7. Mənfəətləri və müamilə məbləğləri və həmçinin vergiləri əleyhinə etiraz edən müəssisə sahibləri 1919-cu il mart ayının 15-dən gec olmamaq şərti ilə öz etirazlarını uçastok mədən vergi idarələrinə bildirməlidirlər.

§8. Faiz vergisi 1919-cu il aprel ayının 30-dan gec olmamaq şərti ilə xəzinəyə verilməlidir.

§9. Birinci maddəyə müvafiq, mənfəətindən faiz vergisi verməyə borclu olub və 1919-cu il fevral ayının 15-nə qədər vergi verməyə cəlb olunmayan müəssisələr, göstərilən vaxtdan sonra məlum olduqca vergi verməyə cəlb ediləcəklərdir. Vergi vərəqəsi vüsul olan [gəlib çatan] gündən bir ayın müddətinə qədər müəssisə sahibləri öz etirazlarını bildirə bilərlər. Vergi vərəqəsi vüsul olan gündən bir ayın müddətinə qədər vergi verməyə cəlb edilən müəssisələr öz vergilərini xəzinəyə verməlidirlər.

§10. 7-ci və 9-cu maddələrdə göstərildiyi kimi uçastok vergi idarələrinə verilən etirazları həmin idarələr vasitəsilə bir ayın müddətinə qədər quberniya mədən vergi idarələrinə göndərmək olar. Bu etirazların göndərilməsi, vergi verməyi dayandıra bilməz.

§11. Birinci maddəyə görə mənfəətindən faiz vergisi verən müəssisə sahibləri Kazyonnı Palataya bəyanat verdiyi təqdirdə, 1914-cü ildə nəşr edilən vergi qanunlarının 509-531-ci maddələri üzrə mənfəətlərindən faiz vergisi və sərmayə vergisi verməlidirlər. Bu müəssisələr 1917-ci ildə Azərbaycan dairəsində əməliyyatda bulunan əsas sərmayələrinin miqdarını isbat edib aşkarən hesab verməyə borclu olan müəssisələr haqqında qoyulan qanuna müvafiq 1917-ci il doğru hesabını 1919-cu il yanvarın 1-nə qədər təqdim etməlidirlər. Əsas sərmayə, nizamnamə üzərinə və ya keçmiş illər üçün ayrılmış məbləğ hesab olunur. Bundan əlavə, əsas məbləği müəyyən etməkdən ötrü başqa vəsilələr [vasitələr] dəxi ittixaz [tətbiq] edilə bilər. O cümlədən, xüsusi bank şöbələrində və başqa istiqraz müəssisələrində məlum ola bilər. Əsas sərmayə, müamilədən ötrü idarənin imtiyazlı faizindən buraxdığı 1-ci məbləğ miqdarı və ya şöbə müamilatının bütün müəssisə müamiləsi münasibətindən hesab oluna bilər.

Belə ki, hərgah müəssisənin bütün əsas sərmayəsi yarım milyon və şöbə müamilatı 10 min və bütün müəssisə müamilatı 100 min rublə etsə, şöbə əsas sərmayəsi 100 min hesab ediləcəkdir. (50000-10000)=20000. Bu da həmin şöbənin dövri sərmayəsi hesab olur. Mübahisəli təqdirdə sərmayə miqdarı Kazyonnı Palatada müzakirə edilir. Bu sərmayəni müəyyən etmək üçün idarə mühasibatı nəzərə alınır.

Qeyd 1: İdarələri Azərbaycan Kazyonnı Palatası dairəsində[n] xaricdə olan 11-ci maddə üzərinə 1918-ci il yanvarın 1-nə qədər hesab və bəyannamə verməyən hamı səhmdar müəssisələr, hesab verməyən müəssisələr misalı əlavə mədən vergisi verməyə cəlb olunmalıdırlar.

Qeyd 2: 11-ci maddədə göstərilən və Azərbaycan Kazyonnı Palatasının qətnaməsi üzərinə hesab verən müəssisələr cümləsinə daxil edilən müəssisələr 1917-ci il əməliyyatına görə 1918-ci ildə sərmayədən və mənfəətindən faiz vergisi verməyə cəlb olunmalıdırlar.

§12. Keçən maddədə göstərilən müəssisələrin 1917-ci əməliyyat ilinin illik hesabı və balansı təhqiq və təftiş olunmaq üçün müəssisə sahibləri vəkilləri və ya müdirləri tərəfindən Kazyonnı Palataya təqdim edilməlidir. Bu hesabların əvvəlcədən heç bir kəs tərəfindən təsdiq edilməsi tələb olunmayır.

§13. Bu düsturüləməlin ikinci maddəsində göstərilən qərar üzrə 1919-cu il yanvarın 10-na qədər uçastok vergi idarələrinə bəyanat verməyən və bəyanat verdikdə dövri sərmayəni və mənfəəti müəyyən etməkdən ötrü lazımi məlumatı daxil etməyən səhmdar müəssisələri 100 manata qədər para verməli olarlar.

Qeyd: 13-cü maddədə göstərilən cərimədən o müəssisələr azad edilir ki, onlar ikinci maddə üzərinə tələb edilən bəyanat əvəzinə bu düsturüləməlin 11-ci maddəsində göstərilən doğru hesabı təqdim edələr. Tainki bu qərar üzrə hesab verən müəssisələrdən ötrü qoyulan qanunla vergi verməyə cəlb edilsinlər.

§14. 1-ci və 2-ci maddədə göstərilən müəssisələr, mənfəətdən faiz vergisi və həmçinin 1917-ci il oktyabr qanununa müvafiq dövləti mədən vergisi qərarı ilə sərmayə vergisi verməlidirlər. Hərgah 1918-ci il 17 oktyabrda Azərbaycan Hökuməti qətnaməsi üzərinə bu qanunun maddələri və mədən vergiləri haqqında qoyulan düsturüləməl maddələri tağyir və təbdil edilməmiş [dəyişdirilməmiş] olsalar.

## ANDRANİK MƏSƏLƏSİ

İngilis komandasının və qismən bizim Hökumətimizin "təhriri [yazılı] və şifahi" tədabirinə [tədbirlərinə] rəğmən Qarabağ əhalisinin dadü fəryadını genə də eşitməkdəyik. Aşkardır ki, Bakıdan deyilən sözlər, nəsihətlər və xəbərdarlıqlar, hətta general Tomsonun təhdidi belə Andranikə heç də əsər eyləməyir. O, öz işindədir, müsəlman kəndlərini dağıdır, əhalisini öldürür, ya qaçırdır. Arvadların irz və namusuna sataşır, əsir edir, qərəz, qüvvətcə zəif yerlərimizə soxulub bildiyini edir və Bakıdan gedən sifarişlərə, aşkardır ki, məhəlgüzar olmayır [məhəl qoymur, etina etmir].

Zənni-acizanəmcə, Andranik məsələsinə ciddi surətdə əhəmiyyət verənlər, Azərbaycan müsəlmanlarının cinayətkar ünsürlər zülmü və sitəmi altında məhv edilmələrinə razı olmayanlar və Azərbaycanın qoparılmaz bir qismi olan ümum Qarabağ müsəlmanlarının daim qorxu altında yaşayıb da yedikləri, içdikləri, güzəran və məişətləri haram olmağına soyuq nəzərlə baxmayanlar və bilaxirə [nəhayət] münasibatı qeyrimüəyyən qonşu millətdən olan müsəlləh [silahlı] bir qüvvənin hüdudumuz sahilində xudsəranə [özbaşına] hərəkatda bulunmasının aqibətini nəzəridiqqətə alanlar, bu məsələni tezliklə bu tövr ya o tövr həll və fəsl etmək [sonlandırmaq] üçün Andranikin kim olduğunu, yəni simayisiyasisini [siyasi simasını], məmuriyyətini, kimin tərəfindən bu əmrə [işə] məmur olduğunu bilib, bu cürə vəhşi hərəkətlər vasitəsilə təqib edilən məqsədin mənayi-həqiqisindən lazımınca xəbərdar olmalıdırlar.

Məsələn, deyirlər ki, Andranik türklərlə ermənilər arasında vaqe olmuş müsalihədən [sülhdən] dolayı, erməni hökumətindən küsüb "özbaşına" olubdur və məsuliyyəti öz öhdəsinə olmaq üzrə cürbəcür işləri də özbaşına görür.

Ola bilər, kim bilir, bəlkə Andranik erməni hökumətindən küsüb də erməni camaatı içində şöhrət qazanmaq istəyir. Və bu şöhrətə malik olmaq yolunun ən rastını [asanını] tapıb, müsəlmanların əlsiz-ayaqsız qisminin üzərinə top və tüfənglə hücumlar edib "rəşadət" göstərir. Yəni istəyir ki, "igid" Andranikin adı ermənilər arasında dillərdə zikr olunub hər kəsin məhbubülqülubu [qəlbinin sevimlisi] olsun. Nə deməli, bəlkə "qəhrəman" Andranikin günlərin bir günü erməni padşahı olmaq fikri də vardır. Zatən hal və övza [vəziyyət] öylə bir surət peyda etməkdədir ki, "avantürist"in başından cürbəcür xəyallar keçir.

Vaqiən [həqiqətən] əgər iş böylə isə, yəni Andranikin qonşu erməni hökumətinə heç bir dəxli yoxsa və gördükləri vəhşiliklərin cavabdehən-dəliyi dəxi məhz öz boynuna isə, o halda bu Andranik erməni camaatının gözündə "igid" olsun, "qəhrəman" olsun, nə olur-olsun, bizim gözümüzdə adi bir quldurdur. Çünki bir şəxs ki, başına adam yığıb kənd-kəsək üstə tökülüb qətlü qarətə məşğul ola, o şəxsə quldur deyirlər.

Böylə olan surətdə bir quldurun yanına "delaqat" göndərmək, onu kağız vasitəsilə quldurluqdan mən' qılmaq və ya həddini bildirmək üçün teleqram vasitəsilə təhdid etmək, nə Hökumətimizin şanına layiqdir, nə ingilis komandasının... Və bir də məşhur məsəldir ki, "Quran oxumaqla donquz darıdan çıxmaz." Quldurların qabağına lazım olan qədər güc göndərmək istər ki, dəstəsini də, özünü də dəstgir [əli-qolu bağlı] edib məhkəmə qarşısına gətirsin və cəzayi-səzasına [layiqli cəzasına] çatmaq üçün təhti-mühakiməyə [mühakimə altına, məhkəməyə] verilsin.

Bu bir.

Bu da ola bilər ki, Andranik erməni hökumətindən heç də küsməyibdir. Özü də həmin hökumətin məxfi və ya ələni [açıq] bir ajanı, bir məmurudur və ya daha açığı təhti-komandasında [komandanlığı altında] hökumətin rəsmi qoşunu olan bir nəfər erməni generalıdır. Sərhəd məsələsini Tiflis Konfransında sülh və sazişlə həll etmək istəməyən erməni hökuməti həmin bu məsələni qılınc zoru ilə qurtarmağa qərar verib, general Andraniki də göndəribdir ki, hüdudumuzu keçib müsəlmanları tədhiş [terror] ilə pərakəndə qılmaqla arzu etdikləri yerləri təhti-təsəllüt və təsərrüfə [hakimiyyəti və əmri altına] keçirib Ermənistan torpağına qatışdırsınlar. Deməli, bu surətdə Andranikin hərəkati-vəhşiyanəsindən [vəhşicə hərəkətlərindən] məsul tutulacaq adamlar, ən əvvəlcə erməni hökumətinin başında duran şəxslər olur. O halda, Andranikin yanına mürəxxəslər [nümayəndələr] göndərmək və ya kağızla sifarişlər etmək [kimi] vecə gəlməz tədbirlərin heç bir mənası yoxdur. Bu sifarişlərin, bu teleqramların məhəlli-aidinə [aidiyyətli yerə], yəni erməni hökuməti başında duranlarına göndərilməsi icab edir [lazım gəlir]. Bilək, görək ki, erməni hökuməti bizə qarşı müharibə meydanımı açır? Ya bu vəhşiliklərin mənası nədir? Bəlkə Ermənistan Cümhuriyyətini müstəqil bir surətdə yaşatmaq üçün özlərində qabiliyyət və istedad olduğuna inanmayan və bu təqdirdə qonşularının da müstəqil yaşamalarını istəməyən daşnaklar Qafqazın orasında-burasında andraniklər vasitəsilə qəsdən şuluqluq salıb ölkəmizin təkrar qəyyumlar əlinə keçməsini təqib edirlər. Qərəz, bu işgillərin [şübhələrin] bizim üçün aydın və aşkar edilməsi dəxi xaricən vacibi olan işlərimiz cümləsindəndir.

Bu iki.

Bir də o mümkündür ki, Andranik nə quldurdur, nə də erməni hökumətinin rəsmi məmuru... Bəlkə məhz müsəlman qanı tökməkdən xüsusi bir ləzzət hiss etmək mərəzinə mübtəla olan bir nəfər erməni mütəəssibidir [fanatikidir] ki, bunun bu vəhşi hərəkətinə Ararat Hökuməti də razı deyil. Lakin ipini çəkməyə qolunda güc yoxdur.

Bu da üç.

Şübhəsiz, bu üç zəndən başqa Andranik məsələsinin qaranlıq yerlərinə işıq salan dördüncü və beşinci və doqquzuncu zənlər iradı dəxi mümkündür. Fəqət, bizcə, zənni-qalib [doğru olma ehtimalı ən güclü olanlar] bu üçdədir. Ondan əlavə bizdən ötrü vacib olan dəxi budur ki, görək Andranik quldurmu, rəsmi məmurmu və ya təkrar qırğın salmağa bais olan bir nəfər mütəəssib ermənimi? Çünki ciddi tədabirin ittixaz [tədbirlərin görülməsi] və tətbiqi bu üçdən birinin təyininə bağlıdır.

Lakin bunu təyin etmək işinin, öz yolu ilə icrasına məşğul olmaqla bərabər, bir tərəfdən zülm və sitəmə məruz qalan müsəlmanları tezliklə xilas etmək və digər tərəfdən bu vəq'ənin getdikcə böyüyüb başımıza əngəl olmağına imkan verməmək üçün səri [tez] və müəssir [təsirli] tədbirlərlə Andranik hərəkətini nə tövr olsa dayandırmaq lazımdır. Fəqət bu yoldakı tədbirlər yalnız ingilis komandasını təkrar-təkrar müraciətlərlə təciz [narahat] etməkdən ibarət olmamalıdır. Zatən bu müraciətlərin nəticəsi o ola bilər ki, öz-özümüzü qorumaq qabiliyyət və qüvvətimizə şübhə edənlər olar. İngilisləri əhvalatdan vaqif etmək əlbəttə borcumuzdur. Qafqazda nizam və asayişin bərqərar edilməsi işlərinin icrası da ingilislərin borclarıdır. Bunu özləri elan edibdirlər. Və ola bilər ki, ingilislər andraniklər hərəkatını böyük nüfuzları sayəsində mənəvi bir qüvvə ilə də dayandırmağa müqtədirdilər. Lakin biz dəxi bu cürə hərəkətləri cismani qüvvələrimizlə durdurmağa müqtədir olmağımızı lazım olan dərəcəyə qədər bildirməliyik. Andraniklər dəxi türklər gedəndən sonra baş qalxızıb zənn etməsinlər ki, biz qoşunsuz və əsgərsiz qalmışıq. Lazım olan yerdə, hamımızın – arvadlarımıza qədər – əsgər olduğumuzu andraniklər içində bilməyənlər yox deyil zənn edirəm. Fəqət bir bu qədər tökülən qanlardan sonra bəşəriyyət artıq zara gəlib sülh-sülh deyə sevindiyi halda, bu sülh axşamı bir də təkrar qan tökmək igidlik deyil, rəzalətdir və o qana səbəb olanlar bəşəriyyət lənətinə gəlməkdən başqa özgə bir mənfəət qazana bilməzlər. Bu cürə vəhşi hərəkətlər icrası ilə erməni millətinə xoş gəlməyi qəsd edən andraniklər, zənn edirəm ki, səhvdədirlər. Onlara "afərin" deyib əl çalanlar, bu gün erməni millətinin içində də çox az tapılar. Bir ay bundan əvvəl qonşuluq təriqinə [üsuluna] müvafiq sülh və sazişlə yaşamaq naminə xanımlarımıza müraciət edən erməni xanımları, fəhlələrimizi çağıran erməni fəhlələri, əminəm ki, andraniklərin bu yollu haqqşikənanə [haqqı tapdalayan] hərəkətlərindən son dərəcə dilgir [narazı] olmaqla bərabər, müraciət etdikləri və çağırdıqları qonşuları qabağında "qəhrəman" andraniklərin xəcalətini çəkirlər.

Burasını da yaddan çıxartmasınlar ki, Andranik məsləkli başçılarının bu qədər mənhus politikası nəticəsindən cürbəcür fəlakətlər çəkmiş olan erməni milləti, bir kərə qalxıb da bu yalançı pəhləvanları öz əllərilə üstlərindən dəf və rəf edər [aradan qaldırar] ehtimalı da meydanda yox deyildir.

Biz hər halda özümüzü qorumalıyıq və hüdudumuzu elə möhkəm bir vəziyyətə salmalıyıq ki, hər dəli, qudurmuş soxulub bildiyini, istədiyini yapa bilməsin. Ümum əhalimizin, baxüsus [xüsusilə] hüdud yaxınlığında olanların müdafiə və mühafizəsi üçün əlimizdə vasitələr lazımdır ki, hərəkətcə sürətə və fəaliyyətcə də qüvvətə malik olmaqla xalqımızı mütməinülqəlb [xatircəm] etsin.

Zənn edirik ki, möhtərəm Parlaman əzaları, baxüsus Qarabağ məbusları, Andranik məsələsi haqqında Hökumətdən izahat istəməsə də, Hökumət özü bu işdə nə növ tədbirlər görüldüyünü və görüləcəyini və bununla bərabər bu işə nə nəzərlə baxdığını da Parlaman hüzurunda bəyan və elan edəcəkdir.

*Hacıbəyli Üzeyir*

## HADİSƏLƏRİN MƏNASI

Dünya müharibəsində üz-üzə gələn böyük dövlətlərdən İngiltərə, Fransa və Amerika zümrəsi nəhayət qalib gəldi; Rusiya, Avstriya, Almaniya zümrəsi isə məğlub oldu. Yalnız məğlubiyyətlə qalmadı, bu dövlətlər daxilində inqilablar zühur etdi. Bu hadisələrin mənasını anlamaq lazım. Çoxları deyirlər ki, inqilab çıxdı, çünki məğlub oldular. Bəziləri də deyirlər ki, məğlubluqlarına bais olan səbəb inqilablarına bais olan səbəbin eynidir. Əcəba bunların hangisidir, nədir bu ağılları heyran buraxan hadisələrin səbəbi?

Dövlət, insanların müxtəlif şəkillərdə bulunan cəmiyyətlərindən birisidir. Cəmiyyətin tərəqqisi vardır, bu tərəqqi müəyyən qaydalara və qanunlara tabedir. Müəyyən bir şəkli-siyasiyə [siyasi formaya] girincəyə qədər cəmiyyət müxtəlif hallar keçirir; fəqət hər hangi halda olursa-olsun, cəmiyyətin özünəməxsus daxili təzadları vardır. Təzadlar ictimai olduğu kimi, siyasi də ola bilər. Siyasi təzadların da ənvası [növləri] vardır. Bu təzad, sinfi də olur, milli də.

Hərbi-ümumiyə iştirak edən böyük dövlətlərin bünyələrində müxtəlif təzadlar vardı. Bunların həpsində müştərək bir təzad vardı: ictimai müsavatsızlıq. Məmləkətin məhsulatı, Yevropa dövlətlərindən heç birisində daha müsavat üzrə təqsim edilməyir [bərabər paylanmayır]. Sosializm heç yanda tətbiq olunmamışdır. Dövlətli-kasıb, tox-ac davası hələ hökmündə baqidir [qalır]. Bu təzad İngiltərədə də, Fransada da, Almaniya, Avstriya və Rusiyada da mövcud idi və hələ dəxi mövcuddur.

Bundan keçdikdən sonra, bir də siyasi təzad vardır. Siyasi təzad, millətin tərəqqiyati-ictimaiyyəsi [ictimai inkişafı] ilə malik olduğu şəkli-hökumət [idarə üsulu] arasında hasil olur. Əhalinin müstəhsil [istehsalçı] qismi, demokrasi sinfi idrak sahibi olar; tərəqqi edər, gözü açılar, sinfi ehtiyaclarını dərk edər. Buna müqabil, siyasi şərait və hürriyyətlər istər; istədiyi siyasi şəraiti hasil etməyincə əfkari-ümumiyyə [ictimai rəy] ilə hökumət və tərzi-hökumət arasında bir ixtilaf çıxar ki, bu da siyasi bir təzada bais və fürsət hasil olunca böyük bir böhrana səbəb olar.

Rusiyada yeni həyata girmiş, fəal, münəvvər [ziyalı] bir burjua sinfi vardı. Rusiya demokratiyası [xalqı] inqilab-pərvəranə fikirlərlə pərvəriş tapırdı [bəslənirdi]. Qüvvətli, parlaq bir ədəbiyyat, mütəfəkkir və münəvvər bir ürəfa vücuda gəlmişdi. Əfkari-ümumiyyə başqa bir məcrada axırdı. Məmləkət dərəbəyliyindən [feodalizmdən] qalma qəliblərə sığmayır, hürriyyəti-siyasiyyə [siyasi azadlıqlar] tələb edirdi. Halbuki çarizm həman əski üsul ilə dururdu. Hökumət, məmləkətin münəvvər və fəal əsnafına deyil, köhnəpərəst, mürtəce dvoryanstvaya [zadəganlığa] istinad edirdi, ruhla qəlib arasında bir təzad vardı; ruh qəlibə sığmayırdı.

Almaniya da öylə idi. Almaniyada olduqca qüvvətli, mütəşəkkil bilikli, becərikli bir xalq dünyanın müəzzəm [böyük, əzəmətli] və müntəzəm bir təşkilata malik mücərrəb [təcrübəli] əmələ [işçi] firqəsi var ikən hökumət aparatı feodal halı ilə yaşayan əsgəri bir firqənin əlində, iqtidar yarım dərəbəyi hökmündə bulunan xanədanlarda idi; intixabi-ümumi [ümumi seçki] yox, məsuliyyəti-vüzəra [nazirlərdə məsuliyyət] yox idi. Deməк ki, burada da ruhla qəlib arasında siyasi bir təzad var idi. Yalnız alman sisteminin intizamı, bu təzadın Rusiyada olduğu qədər məhsus [həssas] olmadığına səbəb olurdu.

Avstriya kəza [eynən] bu dərdə mübtəla idi. Şu qədər var ki, Avstriyanın Almaniyadakı demokrasi cərəyanından daha şiddətli bir böhranisiyasidən başqa digər bir bəlası dəxi vardı: milli təzad. Avstriya müxtəlif millətlərdən təşəkkül etmişdi. Bu millətlər kəndi haqlarını tələb edirlərdi; hissi-milli, haqqi-millini arayırdı. Halbuki Avstriya-Macarıstan sultası bu hisslərin fövqündə mətbu [tabe edən] və nazim [tənzimləyən] rolunu oynayırdı. Demək ki, millətlə dövlət arasında bir təzad, bir mübarizə vardı.

Bu dərdlə Avstriya yalnız deyildi. Rusiya da bu dərddə idi. Rusiya da onun kimi qurama bir hökumət idi. Rusiyada dövlət milləti əzir, millətlə dövlət arasında qatı mübarizələr davam edirdi.

Dövlət və millət kəlmələrini mütəzad [bir-birinə zidd] və mütəbariz [açıq, bariz] mənada işlədiriz; halbuki, əksərən, dövlətlə milləti bir bilirlər; çünki dövlət də millətin bir şəkli-digəridir [başqa bir halıdır]. Millət özək, dövlət qabıqdır; fəqət bu tərif, şümullu bir millətə aid olan dövlətlər haqqında səhihdir. Digər təbirlə demək olar ki, bu tərif təbii təşkilata malik olan dövlətlər haqqındadır; çünki ən təbii dövlət, milli olan dövlətdir; fəqət təhtiidarəsində bir çox millətlər olan dövlətdə, məlumdur ki, dövlət mənası ilə millət mənası bir olammaz. Nasıl ki, Avstriya-Macarıstan dövləti daxilində çex, slovak, macar, alman, polyak, rusin, italyan, rumın millətləri olduğu kimi, Rusiya dövləti daxilində də rus, fin, türk, erməni, gürcü, ukrayna və s. millətlər vardır. Halbuki İngiltərə, Fransa, sonra işə müdaxilə edən Amerika dövlətləri ictimai bir təzada, yəni sinif müsavatsızlıqlarına malik idisələr də, şəkli-hökumətləri bu biri məmləkətlərdə olduğu qədər dərin bir təzadla azarlı deyildi. Bu hökumətlər binnisbə [nisbətən] demokratik və o dərcədə də milli hökumətlər idi. İngiltərədə bir irland məsələsi var idisə də, Avstriya, Rusiya dərəcəsində deyildi. Fransa bu məsələyə tamamilə yabançı idi. Amerikada kəza milli ziddiyyət yoxdu. (Bu məmləkətlərin daxili təşkilatı nəzərə alınaraq hökm verilir. Qanuni siyasəti başqa bir məsələdir.)

Yuxarıda söylədik ki, müharibə mövcud təzadları şiddətləndirmək xasiyyətinə malikdir. Təbiidir ki, təzadları müxtəlif və çox olan dövlətlərin müharibəyə təhəmmülləri [dözümləri] də o nisbətdə az olacaqdı. Əvvəl təhəm-mülsüzlük göstərən, əcaib [təəccüblü] deyildir ki, Rusiya oldu. Çünki Rusiya şəkil və qəlib etibarı ilə Yevropa ölkələrindən ən gerisi, ictimai, siyasi və milli böhran nöqteyi-nəzərindən ən illətlisi [problemlisi] idi. Sonra sıra Avstriyaya gəldi. Nəhayət, qüvayi-istehsaliyyə [istehsal gücü] və iqtisadiyyəcə də kəndisindən daha qüvvətli olan Amerika ilə də toqquşmağa məcbur qalan Almaniya bitab düşdü.

Almaniya böhranı, milli Almaniya dövləti daxilində qalaraq, siyasi bir şəkildə cərəyan edir. Yarım feodal bir şəkli-hökumət, demokratik cümhuriyyətə dəyişdirilir. Rusiya ilə Avstriya isə bununla qalmayır, parça-parça olaraq mürəkkəb [ibarət] olduğu parçalarına ayrılır. Hər ayrılan parçada, eyni zamanda birər cümhuriyyət elan edirlər. Demək, demokratik və milli olmayan dövlətlər, xaric bir zərbə təhtində [altında] təhəmmül göstərməyərək birər millidemokrat şəkli alırlar.

Daha Hərbi-ümuminin [Birinci Dünya müharibəsinin] ibtidasında [başlanğıcında] ikən bu böyük badirə [təhlükə; fəlakət] üzərinə yazılan siyasi təhlillərdə deyirlərdi ki, Hərbi-ümumi nəticəsində millətlərin haqqı təslim olunacaqdır. Qərib idi ki, İngiltərə zümrəsi də, alman zümrəsi də millətlərin hüququ üçün davaçı olduqlarını iddia edib dururlardı. Əlbəttə imperialistlərin məqsədi-əsliləri [əsl məqsədləri] bu deyildi; fəqət məqsəd bu deyil ikən hər iki tərəfin bundan bəhs eyləməsi, bu həqiqətin nə dərəcədə qüvvətli olmasını göstərirdi.

Azərbaycan məbuslarından Sxakaya pək doğru deyirdi ki, Böyük Fransa inqilabı insanın hüququnu təşxis [təyin] eylədi isə, Hərbi-ümumi də millətin hüququnu elan etdi.

Milli hərəkətlər eyni zamanda da demokratik bir rəng alır. Milliyyət və demokratizm haqqında yanlış məlumat sahibi olanlara bu iki kəlmənin yanaşı gəlməsi bəlkə də bəid [qəribə] görünür; çünki demokratizm, adətən milliyyətpərvərliyə zidd ədd [hesab] olunmaq bidəti [səhvi] bizcə məşhurdur. Bu bidətə vaxtilə çox etina olunurdu. Hətta bizim Qafqaziya sosial-demokrat şeyxləri belə bu xüsusda az inad və israr göstərməmişlərdi.

Fəqət bu gün onlar da mötərifdirlər [etiraf edirlər] ki, milliyyətlə demokratlıq qətiyyən düşmən məfhumlar deyildir. Sabiq Qafqaziya və lahiq [indiki] gürcü demokratiyasının pişvalarından [liderlərindən] Jordaniya cənabları, baxınız bu xüsusda nə kimi etirafda bulunurlar. Son günlərdə söyləmiş olduğu bir nitqində Jordanya deyir ki:

"Millətin kəndi iradeyi-müstəqiləsini kəndi hüdudu daxilində və kəndi dili və mədəniyyəti vasitəsilə ibraz edəmmədiyi [nümayiş etdirə bilmədiyi] bir yerdə demokratizm təsəvvür eyləmək qeyri-mümkündür. Milliyyət və demokratlıq cərəyanları əksərən ittifaq edirlər. Böyük Rusiya inqilabı çıxdığı zaman, biz milliyyətlərə ayrılmanın əleyhində olduq. Halbuki bizim istədiyimizə rəğmən həyat bu əsası üstə çıxardı."

Əvət, Avropanın qərbini təşkil edən İngiltərə ilə Fransa, şərqini təşkil edən Almaniya-Avstriyaya qarşı çıxdıqda, şərqin qərbə qarşı bir nöqsanı vardı ki, burası demokratik və milli deyildi. Şimdi Avropanın şərqi də qərbi kimi milli və demokratik bir şəkil alır. Bu şəkil, yalnız Avropa dövlətlərində deyil, Türkiyədə də hakimiyyət qazanır. Orası da həm milliləşməkdə, həm də demokratlaşmaqdadır.

Demək ki, aləm keşməkeşlərinin nəticəsində milliyyət və demokratizm prinsipləri qalib çıxır. Dünya hadisələrinin bugünkü mənası iştə bundan ibarət.

*M. Ə. Rəsulzadə*

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 15 dekabr (Bazar günü) tarixli 65-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**Alişan [şanı uca] Fətəli xan Xoyski hüzuri-alilərinə [uca hüzuruna]**

Parlaman Rəisinin Sədri-vükəlaya [Nazirlər Şurasının Sədrinə] göndərdiyi məktub:

*"Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanının 10 kanuni-əvvəl [dekabr] tarixli iclasında yeni Kabinə təşkili üçün Baş vəkili [Baş naziri] intixab [seçmə] və dəvəti mənə mühəvvəl edilmişdi [tapşırılmışdı]. Parlaman fraksiyalarının rəyini nəzərə alaraq və zati-alilərinin məharəti-siyasiyyələri və bu anadək vətən və millət uğrunda göstərdikləri hüsni-xidmət və fədakarlıq böylə mühüm və müşkül bir məsələ üçün zati-alilərini dəvət etməyə məni məcbur etməsinə məbni [istinad edərək], Baş vəkaləti qəbul və müştərək bir Kabinə təşkil etmənizi arzu edirəm, əfəndim.*

*Zati-alilələrinə olan səmimiyyət və iradətimin [diləyimin] qəbul buyurulması mərcudur [rica olunur].*

*Parlaman Rəisi naminə doktor*
*Həsən bəy Ağayev"*

**Müsəlman sosialistləri fraksiyasının bəyannaməsi (Məruzəçi Əhməd Cövdət Pepinov cənabları)**

Əfəndilər! Müsəlman sosialistlər ittifaqı və müsəlman sosial-demokrat "Hümmət" firqəsi tərəfindən yoldaşlarımız Səfikürdiski və Şeyxülislamov tərəfindən müfəssələn bəyan edilən nöqteyi-nəzərimizi aşağıdakı deklarasyon şəklində nəzərinizə yetirmək niyyətindəyəm.

Biz müsəlman sosialistlərinin Parlamana girməkdən məqsədimiz, Parlaman ideyasını, hökumətin məsul olmasını, yeridilən siyasətin açıq və aşkar tutulmasını, cümlə hürriyyətlərin bərpa edilməsini və Məclisi-Müəssisanın tezliklə çağırılmasını bu kürsüdən müdafiə etməkdir. Bu məqsədlə, biz Hökumətin yeridəcəyi siyasət haqqında şu surətlə bəyan ediriz. Firqə və fraksiya nümayəndələrindən mürəkkəb, müştərək bir Hökuməti qəbul edir və onun proqramı[nın] demokratik əsaslara müvafiq olmasını arzu ediriz.

Gələcək hökumətin əvvəlinci vəzifəsi, Azərbaycan Cümhuriyyətinin istiqlalını bütün qüvvəsilə müdafiə etmək, Azərbaycan demokratiyasının qazandığı bu müqəddəs haqqı var qüvvəsilə mühafizə etməkdədir. Biz inanırız ki, azəri türklərinin istiqlalı təyin və təsdiq olduqdan sonra "yalançı milliyyətçilik" ortadan qalxar və şimdiki əsrin məhsulu olan sinif ayrılığı və sinif mübarizəsi qolaylıqla bizim də camaatın içinə girər ki, bu da ümumi demokratiyanın xeyrinədir. Fəqət istiqlaliyyəti mühafizə etmək öz kabinetinə girib də qapanmaq deyil. Bir çox tarixi, mədəni və ən ziyadə ekonomik əsaslar, Zaqafqaz millətləri və cümhuriyyətləri və əski Rusiya torpağı üzərində əmələ gəlmiş hökumətlərini biri-biri ilə sıxı münasibatda bulunmağa məcbur edir. Buna binaən [əsasən] biz əvvəla Zaqafqaz cümhuriyyətlərinin biri-biri ilə həm siyasi və həm də iqtisadi cəhətdən sıxı bir rabitədə bulunmalarını arzu ediriz. Bundan maəda [başqa] Rusiyada əmələ gəlmiş müstəqil parçaların bir-biri ilə yaxınlaşıb da hər tərəf üçün mənfəətli ittifaq yapmağın da tərəfdarıyız.

Xarici siyasətimizi gözdən keçirdikdə, qonşularımızla olan münasibatımızın [münasibətlərimizin] heç də yaxşı olmadığını və Avropa millət və dövlətləri ilə lazım olan münasibata girilmədiyini görürüz. Şimali Qafqaz Cümhuriyyəti ilə ən sıxı münasibatın saxlanmasını arzu ediriz. Bizə dost və mehriban olan demokratik Gürcüstan Cümhuriyyəti ilə siyasi və iqtisadi ixtilafların bərtərəf edilməsini [aradan qaldırılmasını], ixtilaflı məsələlərin ədalət üzrə həll edilməsini və tez bir zamanda ən səmimi münasibatın qurulmasını arzu ediriz.

Yaxın qonşumuz olan Ermənistan Cümhuriyyəti ilə indiyə qədər heç bir münasibata girilməmiş və mövcud olan münasibat isə pək gərgin; heç də dostanə deyil. Halbuki hal və vəziyyət bizimlə Ermənistan arasında həqiqi bir dostluğun bərpa edilməsini tələb edir. Bu iki cümhuriyyətdə yaşayan millətlər, ən ziyadə erməni və türklərdir. Əgər bu hökumətlər arasında hüsni-münasibət olmazsa, orada yaşayan millətlərin arasında da dostluq olammaz və əksinə, arada həll edilməmiş ərazi məsələsi vardır. Böylə ixtilaflı məsələlər, silah gücü ilə həll olunmayacaq. Dünyanın ən qüvvətli dövlətləri milyonlarca qurban verdikdən sonra böylə ixtilaflı məsələlərin silah gücü ilə həll olunmayacağını dərk etdilər. Kiçik millətlər üçün bu bir dərsi-ibrətdir. Buna binaən, böylə ixtilaflı məsələlərin silah gücü ilə həll olunmayacağını qət edib anlaşma və uzlaşma ilə həll etməyə çalışmalıdır. Buna görə biz Hökumətdən Ermənistanla sıxı münasibata girişməsini və bu cümhuriyyətlə ən dostanə münasibatın vəz edilməsinə [qurulmasına] çalışmasını tələb ediriz.

Başqa hökumətlərlə də dostanə münasibata girmək hökumətin vəzifələrindən olmalıdır; fəqət Avropa millətləri ilə münasibat peyda etmək üçün oraya bir Parlaman heyətinin göndərilməsini münasib görürüz.

Daxili işlərimizə keçdikdə, biz ən əvvəl bütün böyük və əhəmiyyətli işlərimizi həll etməyə haqq və səlahiyyəti olan Məclisi-Müəssisanı dörd əsaslı üsul üzrə tez bir zamanda çağırılmasını tələb ediriz. Bu işi Parlaman kəndi əlinə almasını istəriz.

Şimdiyə qədər məmləkətdə qanuni bir həyatın olmadığını, keyf və təzyiqin xüsusən ayrı-ayrı cərəyanlara və millətlərə qarşı hökm sürdüyünü etirafla, gələcək hökumətdən daxildə qanun dövrünün qurulmasını və inqilabın rəhmətlərindən olan cümlə hürriyyətlərin iadə edilməsini tələb ediriz. Mart və sentyabr hadisatını istintaq etmək üçün xüsusi bir Parlaman istintaq komisyonunun seçilməsini və qeyri siyasi firqə ilə bu yolda işləməsini lazım biliriz.

Qəvi [güclü] bir hökumətin olmasını arzu ediriz; fəqət biz bunu inqilabdan əvvəl mövcud olan müəssisələrin yenidən qurulması ilə köhnə adları dirildib köhnə formaları iadə etməkdə [qaytarmaqda] görməyiriz. Köhnə idarə bütün puçluğunu göstərdi. Onun dalınca qaçmaq həyatı anlamamaqdır. Biz idarələrin camaata yaxın olmasını, camaata etimad etməsini istəriz. İdarələrdə bulunan bir çox yaramaz üzvlərin kənar edilməsini və sağlam bir idarə qurulmasını tələb ediriz.

Bu axır illərin bütün ağırlığı, ən ziyadə [ən çox] fəhlə və kəndlilərin boynuna düşmüşdür. Bunların halı pək ağır və pərişandır. Buna görə də, bu siniflərə yardım etmək, gələcək hökumətin borcudur.

Bütün Azərbaycanda səkkiz saatlıq iş müddəti qəbul olunmalıdır. Şimdiyə qədər inqilab əsnasında fəhlələrlə yapılan müahidələr [müqavilələr] kəndi qüvvətini saxlamalı və fəhlə müəssisələri və təşkilatları yapılmaq üçün heç bir mümaniət [maneçilik] olmamalı, maddi və qeyri yardımlarda bulunmalıdır.

Torpaq qanunu daha Zaqafqaz Seymində, bütün müsəlman fraksiyalarının iştirakı ilə qəbul edilmişdir; fəqət şimdiyə qədər hökumət onu tətbiq etməmişdir. Biz təklif ediriz ki, torpaq komitələri təşkil olunsun və qəbul olunmuş torpaq qanunu tətbiq olunmağa başlasın. Camaat təşkilatlarının artması üçün bütün qüvvətimizi sərf etməliyiz və bunun üçün köhnə qəbul olunmuş "zemstvo" qanununu tezliklə tətbiq etməli və "zemstvo" təşkilatlarının tezliklə vücuda gəlməsinə çalışmalıdır. Mövcud olan hökumət müəssisələri pək çox, pək böyük, pək də ağırdırlar. Bu müəssisələrin bəzilərini qaldırmaq, bir çoxlarının da şüubatlarını [şöbələrini] azaltmaq lazımdır. Camaat bu ağır və bahalı idarələrə tab gətirə bilməz. İdarələri yüngülləşdirmək və ucuzlaşdırmaq lazımdır.

Maliyyə işlərimiz pək qarışıq və dolaşıqdır. Gələcək hökumət bu işləri düzəltmək və sistemə qoymaq məcburiyyətindədir. Daxildə ticarəti canlandırmaq üçün iqtisadi müahidələr [müqavilələr] yapmalı və hüdudlarımızı açmalıyız.

Müdafiə edəcəyimiz məsələlərdən biri də qadınlarımızın haqq və səlahiyyəti kişilərimizlə bərabər olmaqdır. Bizim qənaətimiz bunadır ki, iştə bu əsasların qəbul və tətbiqi cümhuriyyətimizi bu ağır günlərdə aydınlığa çıxara bilər. Bu yolda Azərbaycanın zəhmetkeş kəndli və fəhlələrinin bizə yardımçı olacaqlarına inanırız.

Yaşasın Azərbaycan Demokratik Cümhuriyyəti!

Yaşasın Qafqaz millətlərinin dostluğu!

Yaşasın Cəmiyyəti-Əqvam!

## TELEQRAF XƏBƏRLƏRİ

* Lloyd Corc Bristolda söylədiyi nitqində demişdir ki, İngiltərədə elan edilmiş məcburi mükəlləfiyyəti-əsgəriyyə [hərbi mükəlləfiyyət] vaxt iqtizasınca [dövrün tələbi ilə] olmuşdur və ləğv ediləcəkdir. Əlavə, Sülh Konfransında da bütün Avropada mükəlləfiyyəti-əsgəriyyəni ləğv etməyə çalışmalıdır ki, bir daha müharibə olmasın.

* Bukovina Milli Şurası Bukovinanı Romaniyaya mülhəq edilmiş [birləşdirilmiş] elan etmişdir.

* Stokholmda müntəşir "D. N." qəzetəsi xəbər verir ki, Stokholmdan bolşeviklər getdikdən sonra Rusiyada hökumət təşkili məsələsi müzakirə edilir.

* 32 min nəfərlik İngiltərə ordusu Kölnə gəlmişdir.

* Berlindən verilən xəbərlərə görə, Müttəfiqlər istəyirlər ki, hökumətə bir ultimatum təqdim edərək bütün şuraların ləğvini tələb etsinlər. Bu vaxt zərfində Almaniyaya ərzaq buraxmayıb Müttəfiqlər qoşunları içəri doğru gedəcəklər.

## AZƏRBAYCANDA

**Gəncədə**

Gəncə Bələdiyyə Məclisi, dəmiryolu mövqifinə [stansiyasına] gedən yolların təmiri üçün aparılan-gətirilən mallara put vergisi təyin etmək istəyir. Qubernator bu barədə Daxiliyyə Nəzarətinə məlumat vermişdir. Daxiliyyə naziri həzrətləri Şurayi-Vükəlaya [Nazirlər Şurasına] təqdim üçün məruzə hazırlayır.

**Qarabağ hadisatı**

Hökumət, Gəncədən böylə bir teleqram almışdır:

*"İngiltərə-Fransa heyəti müsəlman qoşunları və Andranik dəstələrini müharibəni bitirməyə dəvət etdikdən sonra müsəlmanlar müdafiə xətlərini buraxıb getdilər. Quldur Andranik bundan istifadə edərək Türkiyə və Qafqaziya ermənilərindən mürəkkəb dəstələrinə, köylü ermənilərlə bərabər, müsəlman kəndlərinə hücum etmək əmrini verir. İşarəyə görə bütün ermənilər qalxıb yaxın müsəlman kəndləri üzərinə düşərək vəhşiyanə bir surətdə müsəlmanları kəsməyə başlamışlar. Bunlar qadınların döşlərini kəsib səbilərin [uşaqların] ağzına qoyurlar. İki nəfər qadını soyundurub buraxmışlar.*

*Kanuni-əvvəlin [dekabrın] 9-da 12-dən ziyadə müsəlman kəndlərini xaraba etmişlər. Hal-hazırda 10 nəfər müsəlman qadını ermənilərin əlində əsirdir. Rica edirəm ki, qoşun göndərəsiniz.*

*Zəngəzur qəza qaimməqamı: Məliknamazəliyev*
*11 kanuni-əvvəl saat 21:55 dəqiqə"*

**Qarabağa heyət əziməti [gedişi]**

Daxiliyyə naziri Qarabağa doktor Mehmandarov cənabları naminə bu məzmunda bir teleqram göndərmişdir:

*"Bu gün Qarabağ və Gorusa mühəndis Rüstəm bəy Sultanovun məiyyəti [müşayiəti] ilə İngiltərə heyəti azim olmuşdur [yola düşmüşdür]. Bunlarla bərabər, iki dənə də zirehli avtomobil göndərilir. İngilislərin bir hissəsi mühafizədən ötrü Şuşada qalacaqdır.*

*Daxiliyyə naziri: Cavanşir"*

**Gürcü və erməni toqquşması**

* Sanain mövqif [stansiya] naçalniki, Dəmiryol nazirinə teleqraf etmişdir ki, dəmiryol mövqifi, quldur dəstələri tərəfindən atəşə tutulmaqdadır. Mövqifdə dayanan türk dəstələrini əzməkdən ötrü dağlardan böyük daşlar yuvarladırlar. Mövqif naçalniki türk əsgəri dəstələrini mövqifdən çıxarmaqdan ötrü paravozla iki konduktor dəstəsi göndərilməyi xahiş etmişdir.

* Dəmiryolu Nəzarətindən alınan məlumata görə, kanuni-əvvəlin 9-da Sanaində vaqe olan toqquşmada gürcülər tərfindən üç nəfər qətl, bir nəfər ağır və üç nəfər yüngül surətdə yaralanmışdır. İki nəfər dəxi xəbərsiz itmişdir. 5600 patron atılmışdır.

* Birinci nömrə zirehli qatar naçalniki Xunçiya zirehli qatarlar ərkani-hərbinə [qərargahına] xəbər verir ki, kanuni-əvvəlin 9-da, səhər saat 8-də gürcü dəstələri Uzunlar kəndinə getmişdir. Yolda həmin dəstə, dağda olan ermənilər tərəfindən atəşə tutulmuşdur. Gürcülər zirehli qatardan top və pulemyot atəşi ilə cavab vermişlərdir. Gürcü piyada dəstəsi dağa çıxa bilməyib, pulemyotçu yaralandığına görə bir pulemyot buraxıb geri çəkilmişdir. Gürcü piyada qoşunu şiddətli surətdə xəsarətə və tələfata düçar olmuşdur. Ermənilər dağdan böyük daşlar yuvarlatmaqla top gülləsi ilə dolu olan üç dənə Türkiyə vaqonlarını partlatmışlardır. Mövqif uçub dağılmışdır. Ayrum ilə Sanain arasında bilaaram [aramsız] zirehli qatar hərəkatı lazımdır.

## MÖVLUDİ-NƏBİ MÜNASİBƏTİLƏ

**"Və mən yüəzzim şəairə-llahi**
**fəinnəha min təqval-qülub"**

Cənabi-Rəsuli-Əkrəm Məhəmmədül-Mustafa həzrətlərinin yövmi-məs-udi-mövludu [xoşbəxt mövlud günü] rəbiüləvvəl ayının 12-sində vaqe olmaq münasibətilə, ümum müsəlmanlara fərz və lazım görülür ki, o zaticəlilüs-sıfatın [ali rütbəli zatın] şərəfinə həmin gündə kəsb və ticarəti tərk qılıb, kamali-meyl və rəğbət və nəhayət şövq və məhəbbətlə ictima edib [yığışıb], vücudi-mübarəkin mənaqibi-həyatiyyəsinə [tərifəlayiq həyatına] dair müzakiratda bulunmaqla şüari-islam təzim olunsun [islamın qaydalarına hörmət edilsin].

Fəlihaza [buna görə], müsəlman qardaşlardan rica və təmənni edirəm ki, yövmi-mövludda saat 12-də Tağıyevin Ünas [qız] məktəbində cəm olub, eydi-millini [milli bayramı] təntənə və cəlal ilə icra qılaraq, vəzifeyi-diniyyələrini [dini vəzifələrini] əmələ gətirirb, Həzrəti-xətmi-mərtəbətin [ən uca mərtəbəli həzrətin] xəsaisi-aliyyəsindən [ali xislətlərindən] camaata məlumat verməklə, cəşni-möhtərəmi [möhtərəm bayramı] xitama yetirələr.

*Şeyxülislam: Axund Ağa Ağaəlizadə*

**Eydi-mövlud [mövlud bayramı]**

Bakı müsəlman ruhani "Səadət" idarəsi Həzrəti Məhəmməd səlləllahü əleyhin eydi-mövludu münasibətilə düşənbə [bazar ertəsi] günü kanuni-əvvəlin [dekabrın] 16-da (rəbiüləvvəl ayının 12-si) saat 12 radələrində Azərbaycan Parlamanının salonunda (Nikolayevski soqaq, sabiq Aleksandriya müsəlman ünas [qız] məktəbində) cəşn bərpa edəcəkdir [məclis tərtib edəcək]. Möhtərəm zəvatdan [şəxslərdən], "Səadət" mədrəsəsi nəfinə [xeyrinə] ianələr qəbul olunacaqdır. Xüsusi dəvətnamələr olmadığından, ümum camaatın təşrif gətirməsi rica olunur.

**İttihad məktəbində**

Rəbiüləvvəl ayının 12-də, düşənbə günü saat 10-da, eydi-mövlud münasibətilə məzkur [adı çəkilən] məktəbin şagirdləri tərəfindən "Sənduqçeyi-mütəallimini-İttihad" ["İttihad tələbələri sandıqçası"] nəfinə [xeyrinə] olaraq Mirzə Rzaqulu xan cənablarının 6 pərdəli "İntiqami-həqiqi" nam drama[sı] mövqeyi-tamaşaya qoyulacaqdır.

Qeyd: Bu tamaşaya ancaq məktəblilər gələ bilər.

## BAKI XƏBƏRLƏRİ

**Türkcə kitabxana**

Bakı şəhəri azəri türklərinin mədəniyyət mərkəzi olduğu halda, bu vaxtadək bir dənə də olsun layiqli türk kitabxanası və qiraətxanası yoxdur. Bunu nəzəri-etibara almış Xəzər müstəhlikin [istehlakçılar] ittifaqı "Kooperatsiya"nın kitabxana şöbəsi Bakıda türkcə daha bir kitabxana açmağı təhti-qərara almışdır. Bu məqsədlə "Kooperatsiya"nın kitabxana şöbəsi, türk və Azərbaycan şivələrində ədəbiyyat, tarix, sənaye, kooperasiyaya dair, çocuqlara məxsus, həmçinin dərs kitabları almağa şüru etmişdir [başlamışdır]. Hər kəsdə müfid [faydalı] türk kitabları olarsa, kitabxanaya verilmək təklif edilir. Xahiş və müavinət etmək istəyənlər "Azərbaycan" qəzetəsi kantorasında Əliəkbər Heydərzadə cənablarına müraciətən məlumat ala bilərlər. (Telefon nömrə 6-19)

**Bakı Sənaye məktəbində**

Bakı Sənaye məktəbinin "Türk mütəallimləri [tələbələri] cəmiyyəti", birinci siniflərdə oxuyan zəif arxadaşları üçün xüsusi sənaye kursları açmağı və mümkün olarsa, yavuq gələcəkdə o kursları "türkcə ümumi kurslarına" çevirməyi qərara almışdır. Bundan başqa, həftə günləri türkcə ədəbi, tarixi və fənni mühazirələr verəcəkdir. İlk mühazirəni Məhəmmədzadə Mirzəbala, "Azərbaycan tarixi və ədəbiyyatı" mövzusunda oxuyacaqdır.

**Bəşarəti-ədəbiyyə [ədəbi muştuluq]**

Qafqaziyamızın şairi-şəhiri [tanınmış şairi] Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah" nam əsərinin birinci cüzü təb'dən [çapdan] çıxaraq saheyi-intişara [yayıma] qonulmuşdur. Mütaliəsini qariat və qareini-kirama [möhtərəm qadın və kişi oxuculara] tövsiyə ediriz.

Əsərin füruxt məhəlləri [satış yerləri]: 1) Spasski caddədə "Turan" mətbəəsində; 2) Parapetdə "Məktəb" mağazasında; 3) Bazarnı küçədə komisyonçu Paşa Qasımzadənin dükanı.

**Müttəfiqlər qoşunlarının vürudu [gəlişi]**

* Kanuni-əvvəlin [dekabrın] 12-də Ənzəlidən "Kazbek" nam [adlı] vapor Bakıya varid olmuşdur [gəlmişdir]. Vaporda ingilis qoşunu və ləvazimati-hərbiyyə gətirilmişdir.

* Cümə günü kanuni-əvvəlin 13-də Tazəşəhərdən "Prezident Kruqer" vaporu İngiltərə qoşunu gətirmişdir.

**Hərbi məhkəmə**

Kanuni-əvvəlin 9-da hərbi məhkəmədə aşağıda əsamisi mündəric əşxasın [adları yazılan şəxslərin] işlərinə baxılmışdır.

1. Qriqorov: müsəlləh [silahlı] soyğun yapdığı üçün bir sənə həbsxanaya alınır.
2. Martirosov: müsəlləh soyğun yapdığı üçün altı ay həbsə məhkum edilir.
3. Yegnazarov: müsəlləh soyğun yapdığı üçün edama məhkum olunur.
4. Avakov: müsəlləh soyğun yapdığı üçün edam edilir.
5. Vaxlamov: küçələrdə güllə atdığı üçün və iki adam yaralandığı üçün güllələbaran ediləcək.

Edam cəzasına məhkum edilmiş üç nəfər Bayıl xəstəxanasında kanuni-əvvəlin 13-də ikisi asılıb, birisi güllələnmiş.

## HADİSAT [HADİSƏLƏR]

**Postanın qarət edilməsi**

Bakıdan Şəkiyə təyin edilmiş postada, məktubatdan əlavə 400000 rublə pul da aparılırmış. Bir dəstə müsəlləh [silahlı] cani Merkuryevski və Budaqov küçələrinin küncündə postanı əhatə edib təhdidlə pulun yerini göstərməyi tələb etmişlər. Pullar, taxta posta qutusunda olduğu halda posta qulluqçusu məktubat torbasını göstərir. Canilər bununla iktifa edərək [kifayətlənərək], məktubat torbasını götürüb gizlənmişlər. Pul yerində qalmışdır. Canilər tövqif [həbs] edilməmişlərsə də, planları və hansı millətdən olduqları kəşf edilmişdir.

**Meyit tapılması**

Kanuni-əvvəlin [dekabrın] 10-da, saat 4 radələrində, Musa Nağıyev mədəni ilə "Rapid" zavodları miyanında [arasında] 25 yaşında naməlum bir şəxsin meyiti tapılmışdır. Meyitin qarnında 8 xəncər yarası vardır. Məqtulun kim olduğu naməlum qalmışdır.

## ƏRZAQ İŞLƏRİ

* Azərbaycan Hökumətinin qərardadına görə, Ərzaq nazirinin baş vəkili, Şəhər Ərzaq İdarəsinin hesab dəftərlərini, kassasını, ərzaq anbarlarını və anbarlarda olan malı və hamı haqq-hesabı Ərzaq Nəzarəti ixtiyarına tezliklə təhvil verməsi barəsində və Ərzaq nazirindən icazəsiz anbarlardan mal və ərzaq buraxılmaması xüsusunda yazıb Şəhər Ərzaq İdarəsinə məlum etmişdir.

* Şamaxı və Cavad uyezdlərində türk komandası [ordusu] hazır etdiyi ərzaq yüklərini onlardan təhvil alıb Gəncəyə aparmaq üçün Ərzaq Nəzarətinin Gəncə quberniyası vəkili Hacıbababəyova Nəzarətdən vəsiqələr verilmişdir. Odur ki, Nəzarətin baş vəkili bu barədə Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə yazıb xahiş edir ki, həmin vəkil ixtiyarına ərzağı aparmağa lazım olan qədər vaqon verilməsi barəsində dəmiryol naçalniklərinə cənab nazir sərəncam etsin.

* Dördüncü Rus-Müsəlman şəhər məktəbi füqərası arasında paylamaq üçün həmin məktəbin nazirəsi Sübhanqulovaya Tağıyev fabrikasında 400 arşın bez almaq üçün Ərzaq Nəzarəti icazənamə verdi.

* Hökumətin qəradadına görə, Azərbaycan Cümhuriyyətində qoşuna lazım olacaq yetmiş beş min arşın bezdən həlalik on min arşın verilməsini Ərzaq Nəzarətinin baş vəkili yazıb Tağıyev kantoruna məlum etmişdir.

* Ərzaq Nəzarətinin baş vəkili Gəncə Bələdiyyəsinin Ərzaq şöbəsi sədri Cahangir bəy Əliyevə yazıb xəbər verir ki, şəhər və ətraf kəndlərə kağız arşın malı göndərilməsi barəsində Nəzarət əncam etmişdir.

* Kanuni-əvvəlin [dekabrın] 12-də dəmiryolu ilə Bakıya varid olan [gələn] ərzağın miqdarı:

Buğda 6566 pud;
Un 275 pud;
Kartof 733 pud;
Arpa 7182 pud;
Saman 600 pud;
Odun 750 pud.
Kanuni-əvvəlin 13-də:
Buğda 5556 pud;
Un 1138 pud;
Kartof 750 pud;
Arpa 3517 pud;
Saman 405 pud.

* Mərkəzi Ev Komitəsindən əhaliyə təqsim [paylamaq] üçün alınan düyü, kanuni-əvvəlin 16-dan etibarən saat 9-dan 2-dək ikinci dairə ev komitəsi cənbindəki [nəzdindəki] dükandan veriləcəkdir (Böyük Krepostnaya, nömrə 47). Birinci və ikinci günlərdə fəqət 4-lə 5 podrayonlara veriləcəkdir.

## DEMOKRATLAR MÜŞAVİRƏSİNDƏ

Kanuni-əvvəlin [dekabrın] 12-də Demokratlar müşavirəsi iniqad etmişdir [baş tutmuşdur].

Müsəlmanlardan "Hümmət" firqəsi nümayəndəsi, "Müsavat" və "Sosialistlər bloku" nümayəndələri iştirak edirdilər. Kadetlər, "Yedinstva" və Erməni Xalq Azadlığı firqəsi iştirak etməmişlərdir.

"Znamya truda" qəzetəsinin cərimə edilməsinə görə etiraz qətnaməsi qəbul edilmişdir. Sonra aşkarən edam cəzasını ləğv üçün iqdimatda [təşəbbüsdə] bulunmuşdur.

Axirüləmr [axırda] qətnamələr oxunur. Birinci qətnaməni İctimaiyyuni-İnqilabiyun [Sosialist İnqilabçılar] firqəsi namindən [Sako] Saakyan təklif edir:

"Rusiyanı məskun edən millətlərin mədəni, tarixi, iqtisadi mənafeyi Rusiya daxilində federasiya üzərində öz müqəddaratlarını həll etmək lazım gəlir. Rusiyada işbu əsaslar üzərində hökumət təşkil edilənədək bütün millətlər, bütün hökumət ixtiyaratını öz əllərində saxlamalıdırlar."

"Müsavat" firqəsinin qətnaməsini Şəfi bəy Rüstəmbəyov elan edir. "Müsavat" firqəsi Rusiyanın tamamiyyəti əsasını qəbul edir, fəqət Rusiyanın əhvali-siyasiyyəsini qorxulu və irticanın qalib gəlməsini nəzəri-etibara alaraq Rusiyada mütləqiyyət və cahangirlik [imperializm] təcdidi [bərpası] ehtimalı ilə işbu qətnaməni təklif edir:

1) Rusiyada demokrat əsasları üzərində hökumət təşkilinədək müstəqil Azərbaycanın Rusiyaya olacaq əlaqəsi məsələsini açıq buraxır. Ümumi demokratik əsas üzrə Azərbaycan xalqının ixtiyarı ilə əmələ gəlmiş Azərbaycan istiqlaliyyətini müdafiə edəcəkdir. Firqə, bütün demokratiyanı Parlaman və hökumət iştirakı ilə işbu istiqlaliyyətə yardım etməyə dəvət edir.

2) Firqə, Azərbaycan məsələsinin beynəlmiləl əhəmiyyəti haiz olduğunu [daşıdığını] etirafla, Ümumi Sülh Konfransında həll edilməsini qəbul edir.

3) Qafqaziyanı məskun edən millətlər miyanında [arasında] dostluq bərpa etmək və ixtilaflı məsələləri sülh təriqi [yolu] ilə həll etmək üçün firqə, Qafqaziya dövlətlərinin konqresi dəvətini lazım bilir.

Qətnamələr oxunduqdan sonra, qətnamələrə baxmaq üçün beynəl-firəq [partiyalararası] bir komisyon təşkil edilmək təhti-qərara alınır. Bu komisyonda firqələrdən birər nümayəndə olacaqdır. Komisyon bütün qətnamələrə baxdıqdan sonra bir ümumi əsas qəbul edəcəkdir ki, bərabər çalışmaq mümkün olsun. İşbu komisyonun birinci iclası kanuni-əvvəlin 14-də, saat 5-də "Metropol"da iniqad edəcəkdir. Əlavə, Bakıdakı mart hadisatını təhqiq edib müqəssirləri cəzalandırmaq qəsdilə də bir beynəlfirəq komisyonu təşkil etmək təhti-qərara alınmışdır.

Qət edilmişdir ki, bütün Qafqaziya millətləri və Qafqaziya hökumətlərinə müraciətən, ixtilaflı məsələlərin sülh və ya həkəm [arbitr] təriqi ilə həll edilməsi təklif edilsin.

## TEATRO VƏ MUSİQİ

Düşənbə [bazar ertəsi] günü rəbiül-əvvəl ayının 12-də (dekabrın 16-da) mövludinəbi münasibətilə Azərbaycan Hökuməti Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır Zülfiqar bəy Hacıbəyli yazmış olduğu məşhur "Evliykən subay" operettası. Hacı bəy rolunu ifa edəcəkdir məşhur komik Hacıağa Abbasov.

Biletlər satılmaqdadır.

**Ayaqqabı**

M. Rafayeviçin gön və ayaqqabı satan komisyon ticarətxanası (Starı poçtovı küçə nömrə 20, telefon 31-11) elan edir ki, ticarətxanada külli miqdarda zənanə və mərdanə [qadınlara və kişilərə məxsus] lakirovannı və şevro çəkmələr və tuflilər və uşaq çəkmələri mövcuddur. Qiymətlər münasibdir.

*2604*

**Xəzər müstəhlikin ittifaqı**
**"Kooperasiya"nın kitabxana şöbəsi**

Türkcə ədəbiyyat, tarix, coğrafiya, sənaye və kooperatsiyaya dair və həmçinin çocuqlara məxsus kitablar, məktəb kitabları, jurnal alır. Arzu edənlər Parapetdə "Azərbaycan" qəzetəsi kantorunda Əliəkbər Heydərzadəyə müraciət etməlidirlər. Telefon: 6-91.

*b/24 3 – 1*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

"7 kanuni-əvvəl 1334": Burada il, rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 7 dekabr 1918-ci ilə uyğundur.

***Azərbaycan Məclisi-Məbusanında***

"…və inqilabın rəhmətlərindən olan cümlə hürriyyətlərin iadə edilməsini tələb ediriz.": qəzetdə "rəhmətlərindən" yerinə "zəhmətlərindən" getmişdir.

"…mümaniət olmamalı, maddi və qeyri yadımlarda bulunmalıdır.": Mətnin bu hissəsi qəzetdə belə getmişdir: "...mümaniət olmamalı və qeyri maddi və yadımlarda bulunmalıdır."

***Teleqraf xəbərləri***

"Stokholmda müntəşir «D. N.» qəzetəsi...": "Daqens nyuheter" qəzeti nəzərdə tutulur.

***Azərbaycanda: Qarabağa heyət əziməti***

"…doktor Mehmandarov cənabları…": Kərim bəy Mehmandarov nəzərdə tutulur.

***Azərbaycanda: Gürcü və erməni toqquşması***

"Ayrum ilə Sanain arasında bilaaram zirehli qatar hərəkatı lazımdır.": "Ayrum" deyərkən, Tiflis quberniyasının Loru-Borçalı qəzasında, indiki Ermənistan ərazisində yerləşən Ayrum (Böyük Ayrım) şəhəri nəzərdə tutulur.

***Mövludi-nəbi münasibətilə***

"Və mən yüəzzim şəairəllahi fəinnəha min təqval-qülub": "Quran"ın "Həcc" surəsinin 32-ci ayəsindən bir hissə. Mənası: "Və hər kəs Allahın mərasiminə hörmət etsə, bu, şübhəsiz ki, qəlblərin təqvasındandır."

***Ayaqqabı***

"Şevro": əsasən dəri ayaqqabı istehsalında işlədilən yumuşaq keçi dərisi.

# SOCAR 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində uğurla təmsil olunur

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) "Bakı Enerji Həftəsi"ndə əsas tərəfdaş olaraq iştirak edir.**




Şirkətin İctimaiyyətlə əlaqələr və kommunikasiya xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Bakı Enerji Həftəsi" çərçivəsində təşkil olunan 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində iştirak edən SOCAR-ın Apstrim, Midstrim və Daunstrim istiqamətlərində, həmçinin marketinq, satış fəaliyyəti və müxtəlif xidmətləri barədə məlumat verilir.

Bakı Ekspo Mərkəzində açılan 28-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin girişində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən sərgi nümayiş olunur.

"Yaşıl enerji" layihələrinə dair bölmədə SOCAR-ın "yaşıl enerji"yə baxışı, bərpaolunan enerji mənbələri üzrə pilot layihələri, habelə 2022-ci il ərzində rekultivasiya edilmiş ərazilər, şirkətin karbon emissiyasının azaldılması istiqamətlərində gördüyü işlər barədə informasiya verilir.

Stenddə həmçinin SOCAR-ın elmi-tədqiqat, rəqəmsallaşma istiqamətlərindəki fəaliyyəti, aldığı mükafatlar, nanotexnologiyalar, təlim və təhsil proqramları barədə məlumatlar əksini tapıb.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Səba" ASC-nin səhmdarlarının nəzərinə

**Azərbaycan Respublikasının Nazirlər Kabineti 25 may 2023-cü il tarixli 164 nömrəli Qərarına əsasən 30 iyun iş gününün istirahət günü ilə yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq "Səba" ASC-nin Direktorlar Şurasının qərarına əsasən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti Ümumi yığıncağının vaxtı dəyişdirilərək 03 iyul 2023-cü il saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında cəmiyyətin inzibati binasında keçiriləcəkdir.**

**Ümumi yığıncağın gündəliyinə cəmiyyətin İdarə Heyətinin təklifinə və Direktorlar Şurasının qərarına əsasən əlavə məsələ daxil edilmişdir. Yığıncağın gündəliyində olan məsələlər aşağıda qeyd olunmuşdur:**

- *"Səba" ASC-nin 2022-ci il üzrə illik (maliyyə) hesabatları barədə.*
- *"Səba"ASC-yə kredit xəttinin açılması üçün banka müraciət edilməsi.*

*Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar Ümumi yığıncağın gündəliyinin layihəsinə dair təkliflər vermək və gündəliyə daxil edilmiş məsələ (və ya məsələlər) üzrə müvafiq sənədlərlə Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında tanış olmaq hüququna malikdirlər.*

***Ümumi yığıncağın keçiriləcəyi ünvan: AZ 0100, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1, "Səba"ASC-nin baş ofisi.***

***Gündəliklə əlaqədar münasibət bildirilməsi üçün əlaqə telefonu: (+994 55) 254-07-27.***

***İdarə Heyəti***

# Lənkəran Dövlət Universiteti açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir: Lənkəran Dövlət Universitetinin 1 saylı tədris korpusunda yeməkxana binası və 3 saylı tədris binasında cari təmir işləri.

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 150.00 (bir yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin iyun ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin iyun ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatları)).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması. Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial, qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyun ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyun ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 iyun 2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 05 iyul 2023-cü il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 06 iyul 2023-cü il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Bəzi rayonlarda leysan yağacaq, dolu düşəcək

**Azərbaycanda iyunun 2-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 26-31° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində fasilələrlə yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 28-33° isti, dağlarda gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 20-25° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 27-32° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 20-25° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində gün ərzində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 21-26° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 26-31° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 24-29° isti, dağlarda gecə 6-11°, gündüz 14-19° isti olacaq.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 28-33° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-20°, gündüz 25-30° isti, dağlarda gecə 14-17°, gündüz 20-25° isti olacağı ehtimal edilir.

# İraqda həbsdə saxlanılan Azərbaycanın qadın vətəndaşları ölkəmizə gətirildi

Azərbaycanın İraq Respublikasında məhbus həyatı sürmüş və hazırda cəza müddəti bitmiş 3 nəfər qadın vətəndaşı Azərbaycan Respublikasının hökuməti tərəfindən aparılmış müvafiq əlaqələndirmə işi, habelə ölkəmizin aidiyyəti dövlət qurumlarının mərhələli və koordinasiyalı tədbirləri nəticəsində ölkəmizə gətirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, növbəti mərhələdə daha 2 nəfər cəza müddəti bitmiş Azərbaycan vətəndaşının ölkəmizə gətirilməsi nəzərdə tutulur.

Hazırda İraq Respublikasında həbsdə saxlanılan Azərbaycan Respublikasının qadın vətəndaşlarının mərhələli şəkildə ölkəmizə gətirilməsi istiqamətində müvafiq işlər davam etdirilməkdədir. Bununla əlaqədar olaraq, İraq Respublikasının aidiyyəti dövlət qurumlarına müvafiq müraciətlər ünvanlanıb.

Qeyd edək ki, Azərbaycan hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində indiyə qədər sözügedən qadın vətəndaşlarımızın 288 nəfər övladı ölkəmizə geri gətirilib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov, Həmkarlar İttifaqı Təşkilatı və kollektivi Milli Aerokosmik Agentliyi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun direktoru, professor Fəxrəddin Ağayevə qardaşı

**NAZİR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin Kosmik Cihazqayırma Məxsusi Konstruktor Bürosunun direktoru Namiq Muradov və kollektivi Milli Aerokosmik Agentliyi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun direktoru, professor Fəxrəddin Ağayevə qardaşı

**NAZİR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutunun direktoru, professor Bəhram Əliyev və institutun kollektivi Milli Aerokosmik Agentliyi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun direktoru, professor Fəxrəddin Güləli oğlu Ağayevə qardaşı

**NAZİR GÜLƏLİ OĞLU AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5772**
**Sifariş 1378**

**Qiyməti 40 qəpik**